Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 18 (6061) 24 may 2024-cü il | Qiyməti 40 qəpik

# İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib



Bax:səh-2

## Sahil Babayev: "Bəzən məlumatları olmur ki, onların iki hüququ var"



**"Bəzən vətəndaşlar pensiya almaq üçün iki hüququnun olması barədə məlumatsız olur".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Onun sözlərinə görə, əgər vətəndaşın eyni anda iki hüququ yaranarsa, misal olaraq, həm ailə başçısını itirməyə, həm də yaşa görə pensiya almaq hüququ yaranırsa, mövcud qanunvericiliyə əsasən, bir pensiyadan digərinə keçid yalnız onun yazılı müraciətindən sonra baş verə bilər:

"Vətəndaş desə ki, sırf yaşa görə yox, ailə başçısını itirməyə görə pensiya almaq üçün müraciət edir və hüququ təmin edilə bilər. Biz birbaşa ən yüksək pensiya hansıdırsa, onu təyin edəcəyik. Bu təqribən ilə 6-7 min insanı əhatə edəcək. Bəzən heç onların məlumatı da olmur ki, onların iki hüququ var. Məsələn, yaşa görə pensiyasını alır və bilmir ki, həyat yoldaşı vəfat etdikdən sonra onun pensiyasının şamil olunması ilə pensiya məbləği artırıla bilər. Vətəndaşın məlumatı olmasa da, "Əmək pensiyaları haqqında" qanuna təklif olunan dəyişikliklə bunu elektron qaydada təmin edəcəyik".

Əbülfət MƏDƏTOĞLU

## Qazi sözünün işığında

Bax:səh-8

## Məktəb direktoru nöqsanlara görə işdən çıxarıldı



**Ağstafa rayon Yenigün kənd E.Mustafayev adına tam orta məktəblə bağlı sosial şəbəkələrdə yayılmış videogörüntülərlə əlaqədar müvafiq araşdırma aparılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Qazax-Tovuz Regional Təhsil İdarəsi açıqlama yayıb.

Araşdırma nəticəsində məktəb direktoru tərəfindən kollektivə qarşı etik davranış qaydalarının pozulduğu və digər neqativ hallara yol verildiyi məlum olub. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müvafiq əmri ilə Ağstafa rayon Yenigün kənd E.Mustafayev adına tam orta məktəbin direktoru tutduğu vəzifədən azad edilib.

## Medvedev: "Zelenskiyə yaxın ətrafı sui-qəsd edə bilər"

**Ukraynada narazı dairələr 1944-cü ildə alman elitasının bir hissəsinin Adolf Hitlerə qarşı sui-qəsd cəhdinin ssenarisinə uyğun Vladimir Zelenskini öldürməyə cəhd edə bilər.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib. O deyib ki, Zelenski "operetta fiquru" ilə əvəz oluna bilər.

"Lakin bu, nə ukraynalılar, nə də bizim üçün heç nəyi dəyişməyəcək", - deyə Rusiya Təhlükəsizlik Şurasının sədr müavini deyib: Ukraynanın hazırkı prezidentinin səlahiyyətləri, Konstitusiyaya görə, mayın 21-i gecə başa çatır. Ölkədə seçkilər mart ayında keçirilməli idi, lakin mövcud hərbi vəziyyətə görə keçirilmədi.

## Ərdoğan İlham Əliyevə zəng etdi



**Mayın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Adalet.az xəbər verir ki, bu barədə məlumatı Azərbaycan Prezidentinin Mətbuat Xidməti yayıb.

Bildirilib ki, telefon söhbəti zamanı Türkiyə-Azərbaycan əlaqələri, regional və qlobal proseslər müzakirə olunub. Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin müsbət istiqamətdə irəliləməsindən məmnunluğunu ifadə edib və Türkiyənin prosesi yaxından izlədiyini bildirib.

Türkiyə Prezidenti bölgədə təmin olunacaq ədalətli və davamlı sülhün həm Azərbaycan, həm Ermənistan, eləcə də bölgə ölkələri üçün yeni bir mühit yaradacağını vurğulayıb.

Söhbət zamanı gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıb.

## Milli Məclisin növbədənkənar sessiyası çağırılacaq



**Milli Məclisin növbədənkənar sessiyası çağırılacaq. Adalet.az xəbər verir ki, bununla bağlı imza toplanılmasına başlanılıb.**

Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, növbədənkənar sessiyasının çağırılması üçün müvafiq qaydada imzalar toplanmalıdır.

Milli Məclisin sədri 42 deputatın tələbi əsasında parlamentin növbədənkənar sessiyasını çağırır.

## Paşinyan: "Bir çoxları hərbi xidmətdən yayınmaq üçün Ermənistandan gedib"



**"Ermənilərin çoxu övladlarının hərbi xidmətdən yayınması üçün mühacirət edib".**

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan demoqrafik strategiyanın müzakirəsi zamanı deyib.

O qeyd edib ki, demoqrafik vəziyyət təhlil edilərkən bir sıra amillər nəzərə alınmır. Xüsusən də bu səbəbdən nə qədər insan ölkəni tərk edib. Paşinyanın sözlərinə görə, bu məsələ ilə bağlı heç bir statistik məlumat yoxdur: mühacirətə görə nə qədər Ermənistan vətəndaşının lazımi təhsil almaq imkanını itirdiyi məlum deyil.

## GÜNÜN LƏTİFƏSİ

Şair Əlisəmid gedir həkimə və deyir ki, qara ciyərim ağrıyır. Həkim şairin qara ciyərini uzidən keçirir, başını bulayır və soruşur:

**- Şair içirsən?**

Əlisəmid:

**- Həkim, içirəm ey, amma xeyir eləmir.**

# Tacikistan Prezidenti Emoməli Rəhmonun rəsmi qarşılanma mərasimi oldu



**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Tacikistan Prezidentinə, Tacikistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

# Azərbaycan-Tacikistan sənədləri imzalandı

**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub.**

Trend xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni imzaladılar.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Kabir Şerali "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Tacikistan Respublikasının Sənaye və Yeni Texnologiyalar Nazirliyi arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov və Tacikistan Respublikası Hökuməti yanında İcra Xidmətinin rəisi Barno Saidvalizoda "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında İcra Xidməti arasında məhkəmə aktlarının və digər orqanların aktlarının icrası sahəsində əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin sədri Baxodur Şeralizoda "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Tacikistanın daxili işlər naziri Ramazon Raximzoda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş"i imzaladılar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Tacikistanın xarici işlər naziri Muxriddin Sirodjiddin "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzaladılar.

# İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına müsahibə verib.**

**Həmin müsahibəni təqdim edirik.**

**Müxbir:** Prezident Əliyev, Sizinlə söhbət etmək həmişə olduğu kimi çox xoşdur. Biz Berlində, Petersberq İqlim Dialoqu tədbirindəyik. Bu, həqiqətən də COP29-a aparan yolun başlanğıcıdır. Yəqin ki, komandanız çox həyəcanlıdır. Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?

**Prezident İlham Əliyev:** Biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Çünki siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz.



**Müxbir:** Qazıntı yanacağı ideyası ötən il BƏƏ-də keçirilən COP28-də üstünlük təşkil edirdi. Bilmək istərdim iki, Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?

**Prezident İlham Əliyev:** Biz məhz buna nail olmağa çalışırıq. Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin ayrılmaz hissəsidir və biz necə uğur qazanacağıq.

**Müxbir:** COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?

**Prezident İlham Əliyev:** Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Eyni zamanda, bildiyiniz kimi COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir.

Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik.

**Müxbir:** Cənab Prezident, Sizinlə söhbət etmək xoş idi. Bu gün bizə vaxt ayırdığınıza görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# Bakı və Tiflis arasında kritik görüş oldu

**Azərbaycan və Gürcüstan Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Bu barədə Adalet.az-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, məsləhətləşmələrdə Azərbaycanın nümayəndə heyətinə xarici işlər nazirinin müavini Samir Şərifov, Gürcüstanın nümayəndə heyətinə isə bu ölkənin xarici işlər nazirinin birinci müavini Laşa Darsaliya rəhbərlik edib. Məsləhətləşmələr zamanı ölkələr arasında siyasi, iqtisadi-ticarət, enerji-nəqliyyat, mədəni-humanitar və s. sahələrdə ikitərəfli əməkdaşlıq əlaqələrinin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında müzakirələr aparılıb.

Tərəflər əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə edib, iki qonşu ölkə arasında mehriban qonşuluq şəraitində inkişaf edən qarşılıqlı faydalı strateji tərəfdaşlıq münasibətlərinin Cənubi



Qafqaz regionunun tərəqqisi üçün vacib amil olduğunu, bu xüsusda iki ölkənin ortaq səyləri və iştirakı ilə reallaşdırılan qlobal miqyaslı enerji və nəqliyyat layihələrinin bölgədə iqtisadi inkişafın əsaslarını təmin etməklə yanaşı, sabitlik və təhlükəsizliyin bərqərar olunmasına da xidmət etdiyini vurğulayıblar.

Görüşdə yüksək səviyyəli qarşılıqlı səfərlərin və iqtisadi məsələlər üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd edilib. Eyni zamanda, beynəlxalq və regional təşkilatlar, habelə Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli və digər çoxtərəfli əməkdaşlıq platformaları çərçivəsində hər iki ölkə üçün əhəmiyyət kəsb edən məsələlər üzrə əlaqələndirmə və qarşılıqlı dəstək təcrübəsinin davam etdirilməsinin önəminə vurğu edilib.

Bununla yanaşı, regional təhlükəsizlik məsələləri, müqavilə-hüquq bazası və baxılmaqda olan sənəd layihələrinə dair fikir mübadiləsi aparılıb.

Cari ilin noyabr ayında Azərbaycan Respublikasının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) təşkili ilə bağlı qarşı tərəfə məlumat verilib.

**Görüş əsnasında Gürcüstan tərəfi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması, Azərbaycan tərəfindən regionda dayanıqlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar barədə məlumatlandırılıb.**

# Türkiyənin modernləşdirdiyi "Laçın" qırıcısı Azərbaycana verilib

**Azərbaycan Hərbi Hava Qüvvələrinin parkına modernləşdirilmiş qırıcı təyyarə olan "SU-25 ML" markalı, "Laçın" adının verildiyi təyyarə daxil edilib.**

Adalet.az-ın "SavunmaSanayİST" portalına istinadən xəbərinə görə, bu barədə Türk Aviasiya və Kosmik Sənaye Şirkətindən məlumat verilib.

Bildirilib ki, sözügedən qırıcı analoqlarından bir sıra cəhətlərinə görə fərqlənir. Onlardan biri həmin təyyarənin idarə olunabilən "Teber" aviasiya bombaları və raketlər, eləcə də qanadlı raketləri idarə etməyə imkan verən avadanlıqlarla təchiz olunmasıdır. Həmin silahlar da məhz Türkiyədə istehsal edilib. Bununla yanaşı, təyyarənin komplektasiyasına raketləri lazer vasitəsilə istiqamətləndirə bilən KGK tipli avadanlıqlar da daxil edilib. Təyyarələrdə qanadların açılması hesabına uçuş məsafəsinin artırılması, kəskin hava şəraitində müşahidə qabiliyyətinin yüksəldilməsi, eləcə də ANS/KKS proqram təminatı da quraşdırılıb.

Xatırladaq ki, "Laçın" təyyarələrində nəzərdə tutulan "KGK" avadanlığının əsas üstünlüyü raketin buraxıldığı yerdən 110 kilometrlik məsafədəki hədəfi məhv edə bilməsi üçün doğru istiqamətləndirmək, eləcə də 37 kilometrdən də artıq yüksəklikdən atılan raketi belə dəqiq tuşlamaq qabiliyyətidir.

# Hərbçilərin pensiyası ilə bağlı dəyişiklik

**Hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldığı gündən təyin olunacaq.**



Adalet.az xəbər verir ki, bu, "Əmək pensiyaları haqqında" qanuna təklif edilən dəyişiklik layihəsində öz əksini tapıb.

Belə ki, "Əmək pensiyaları haqqında" qanunu ilə hərbi xidmətə yenidən qəbul edildiyi tarixdən ən azı 72 ay xidmət etmiş şəxslərin, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə hərbi xidmətə bərpa edilmiş şəxslərin, hərbi xidmət vəzifələrini yerinə yetirərkən həlak olmuş şəxslərin və ali zabit heyətinə aid şəxslərin əmək pensiyasının yenidən hərbi xidmətə qəbul edilməsi ilə əmək pensiyasının sonuncu təminat xərciyinə görə yenidən hesablanması mümkün olub.

Bu redaksiyanın qanunda mətn üzrə aidiyyəti maddələrdə göstərilməməsi bu şəxslərin əmək pensiyasının yenidən hesablanmasında çətinlik yaradır. Odur ki, bu şəxslərin əmək pensiyasının yenidən hesablanmasnın dəqiqləşdirilməsi üçün dəyişiklil təklif olunur.

Bundan əlavə, qanunun 9.5.2-ci və 20.14.2-ci maddələrində müvafiq olaraq "25 təqvim ili" ifadəsindən əvvəl "buraxıldığı günə" sözlərinin əlavə edilməsində məqsəd şəxsin hərbi xidmətdə qalmasını təşviq etmək, eləcə də daha çox xidmət edən hərbi qulluqçu ilə qeyd olunan maddələrə əsasən daha az xidmət edən və pensiya hüququ əldə edən hərbi qulluqçuların pensiya məbləğləri arasında ədaləti qorumaqdır.

Belə ki, qanunun 20.14.1-ci maddəsinə əsasən hərbi xidmətdən buraxıldığı günə 20 təqvim ili hərbi xidmət etmiş hərbi qulluqçulara 20 il hərbi xidmət üçün müvafiq təminat xərcliyinin 50 faizi miqdarında pensiya verilir. Əgər, hərbi xidmətdən yaşa görə buraxılmış və buraxıldığı günə 12 il 6 ay hərbi xidmət keçmiş, həmin tarixə 25 il ümumi iş stajı olmayan, lakin sonradan işləyərək bu tələbi tamamlayan şəxslərə də hərbi qulluqçu kimi pensiya hüququ yaradılarsa, onda bu Qanunun 20.14.2-ci maddəsinə əsasən həmin şəxslərə də müvafiq təminat xərcliyinin 50 faizi miqdarında pensiya verilməli olduğu anlaşıla bilər.

**Göründüyü kimi, bu 20 təqvim ili və daha çox hərbi xidmət etmiş şəxs ilə 12 il 6 ay hərbi xidmət etmiş şəxsin pensiya təminatları fərqləndirilmiş və nəticə etibarı ilə hərbi xidmətdə qalması təşviq edilmişdir. Bu dəqiqləşdirici düzəliş olduğundan maliyyə yükü yaranmayacaq.**

# <u>Siyavuş Novruzov:</u> "Camaatın gəzdiyi yerdə foto çəkdirib mitinq kimi təqdim edirlər"

**"Ümumilikdə insan alverinin yaranma mənbəyi üçün əsas şərait yoxsulluq, iqtisadi çətinlik və müharibələrdir. Biz də bunun şahidi olmuşuq və görürük. Çünki vaxtilə işğal altında olan Qarabağ insan alverinin mənbəyi idi. Həmin mənbə ləğv olundu, Azərbaycan öz ərazi bütövlüyün təmin etdi və bu gün orada genişmiqyaslı tikinti quruculuq işləri həyata keçirilir".**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında parlamentin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov deyib. O bildirib ki, bu gün dünyada baş verən müharibələr nəticəsində hadisələr insan alverinin artmasına səbəb olur və bu da istər-istəməz dolayısı ilə Azərbaycana da təsir göstərir.

"Hüquq-mühafizə orqanları da bu sahədə mühüm işlər görür. Digər ölkələrdən fərqli olaraq Azərbaycan insan alverinin xüsusi forması da var və hesab edirəm ki, buna qarşı ciddi mübarizə aparmalıyıq.

Bu da siyasi alverdir və bunun mənbəyi bu və ya digər cinayət törədən şəxslərin adlarını siyahıya salıb siyasi məhbus kimi təqdim etmək və onlardan aldığı pullar vasitəsilə istər Milli Şura rəhbərliyi, istər xaricdə oturan blogerlər gəlir əldə edir. Buna qarşı da mübarizə tədbirləri aparılmalıdır. Heç bir siyasi fəaliyyətlə məşğul olmayan şəxslərə arayış satmaqla onların guya siyasi baxışlara görə sıxışdırılması və heç bir partiyanın üzvü olmadan xaricə getmək üçün viza alınmasına yardım göstərilir. Bunlara qarşı ciddi mübarizə aparılmalıdır ki, gəlib Fəvvarələr meydanında camaatın gəzdiyi yerdə şəkil çəkdirir, sonradan aparıb mitinq təşkil etdiyi ilə bağlı məlumat verir. Guya onu həbs edib işgəncələr veriblər. Hamısı ali təhsili olmayan oğrulardır ki, ora yığışıblar".

# Türkiyə-Azərbaycan Universitetinə 3 təhsil proqramı üzrə qəbul olacaq

**Türk Dövlətləri Təşkilatı təkcə beynəlxalq arenada əməkdaşlıq platforması deyil. Bu, həmçinin müsbət təcrübələri paylaşmağa, eyni mövqedən çıxış etməyə, müxtəlif mövzularda qarşımızda duran çağırışlara cavab vermək üçün önəmli bir imkandır, təşkilatdır.**



Adalet.az xəbər verir ki, bu fikri elm və təhsil nazirinin müavini Həsən Həsənli Türk Universitetlər Birliyinin (TÜRKÜNİB) 7-ci Baş Assambleyasının iclasında çıxışı zamanı söyləyib.

Son illərdə türk dövlətləri arasında təhsil sahəsində əməkdaşlığa diqqət çəkən nazir müavini bu baxımdan Ege Universiteti ilə diplom proqramının həyata keçirildiyini və nəticələr əldə edildiyini bildirib: "Düşünürük ki, bu ikili diplom proqramı yaxşı nümunədir".Nazir müavini, həmçinin deyib: "Bu il biz Türkiyə-Azərbaycan Universitetinin fəaliyyətə başlamasını görəcəyik. Bakı şəhərində üç təhsil proqramı üzrə tələbə qəbulu həyata keçiriləcək. Bu da birgə əməkdaşlığımızın növbəti gözəl nümunəsi olacaq".

Xatırladaq ki, Türkiyə-Azərbaycan Universitetinin yaradılması ilə bağlı 2024-cü il fevralın 19-da Azərbaycanın Elm və Təhsil Nazirliyi ilə Türkiyənin Ali Təhsil Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının sədri Erol Özvar imzalayıblar.

# *NATO-nun ən güclü 10 ordusu açıqlandı*



**Amerikanın "Global Fire" təşkilatı NATO-nun 10 ən güclü ordusu ilə bağlı araşdırma dərc edib.**

Adalet.az bildirir ki, araşdırmaya əsasən 1-ci yerdə 831 milyard dollar hərbi büdcə ilə ABŞ ordusu gəlir. ABŞ-ın 1 milyon 400 min əsgəri, 13 min hava qüvvəsi, 4600 tankı və böyük donanması var.

68 milyard dollar hərbi büdcə ilə Böyük Britaniya ikinci sıraya qoyulub.

Türkiyə 40 milyard dollarlıq hərbi büdcə ilə 3-cü yerdədir. Türkiyənin 520 min aktiv və 400 min ehtiyat əsgəri var və hücum pilotsuz təyyarələri ilə seçilir. Onun 2200 tankı və 200 döyüş gəmisi var.

**4-cü yerdə İtaliya, 5-ci yerdə 50 milyard dollarlıq büdcəyə malik Fransa (141 min əsgər), 6-cı yerdə Almaniya, İspaniya, 8-ci yerdə Polşa, 9-cu yerdə Kanada, 10-cu yerdə Yunanıstan ordusu qərarlaşıb.**

*Rüstəm Hacıyev*

# *Beynəlxalq Cinayət Məhkəməsi deyəsən çaşıb...*



***ABŞ Konqressinin spikeri Mayk Conson bəyan edib ki, Beynəlxalq Cinayət Məhkəməsi İsrailin baş naziri Benyamin Netanyahunun həbs edilməsiylə bağlı order verilməsini təsdiq edərsə, Konqress onlara qarşı istənilən tədbirləri görməyə hazırdır.***

***"Əgər onlar belə bir qərar verərlərsə, onda Konqress BCM-ni cəzələndırmaq üçün sanksiyalar tədbiq edəcək və qurumun rəhbərliyi ağır nəticələrlə qarşılacaqlar. BCM-nə, İsraili hədələmək imkanı versək, növbəti hədəf bizim ölkənin rəhbərləri olacaqlar"- deyə Conson bildirib.***

***Konqressin spikerinin fikirincə, Beynəlxalq Cinayət Məhkəməsi İsrailin və ABŞ-ın üzərində hökm edə bilməz. Conson beynəlxalq məhkəmənin prokurorunun qərarını "ligitimsiz və beynəkxalq qınağa" layiq qərar kimi qymətləndirib.***

***Əlbətdə, ABŞ-a kimsə "gözünün üstündə qaşın var" deyə bilməz. Bütün bu beynəlxalq məhkəmələr, nə bilim beynəlxalq insan haqları təşkilatları və bütün digər "beynəlxalqlar" anlamalıdılar ki, onların mövcudluğu "Sem dayıdan" asılıdır. Bu "beynəlxalqlar" yalnız ABŞ-ın icazə verdiyi ölkələrə qarşı hansısa qərarlar qəbul edə, qətnamələr çıxara, sanksiyalar tədbiq edə bilərlər. Yoxsa ABŞ-ın özünə qarşı yox da...***

***Beynəlxalq Cinayət Məhkəməsi deyəsən özünü unudub, "dünyanın ağasının" razılığı olmadan, qurumun prokurorunun bəyənatı ilə, mayın 20-də İsrailin baş naziri Benyamin Netanyahu və müdafiə naziri Yoava Qalantın həbsinə order verilməsiylə bağlı məhkəməyə müraciət edib. Prokuror, siyasiləri Fələstin torpaqlarında insanlığa qarşı hərbi cinayət törətməkdə günahlandırıb.***

***Yəhudi dövlətinin prezidenti İsxaq Hersoq dünyanı BCM-nin bu addımını qınamağa çağırıb. Netanyahunun ofusi bunu "qanlı təyziq" kimi qiymətləndirib. "Eş atit" partiyasının qurucusu və birinci sədri Yair Lapid BCM-nin bəyənatını "faciə" adlandırıb, maliyyə naziri Besalel Smotriç məhkəməni nasistlərlə eyniləşdirib və antisemitizmdə günahlandlrıb. Və təbii ki, onların himayədarları - ABŞ prezidenti Co Bayden və dövlət katibi Entoni Blinken də Beynəlxalq Cinayət Məhkəçəsinin bu qərarını qınayıblar.***

***Beynəlxalq Cinayət Məhkəməsi isə, guya ədalətlərini nümayiş etdirmək məqsədiylə, "xala xətrin qalmasın" deyə, HƏMAS-ın üç lideri- Yəhya Sinvar, İbrahim Əl-Masri və İsmayil Xanii nin həbsiylə bağlı order verilməsini qərara alıb. Bu adamlar da, İsraildə və Fələstində insanlığa qarşı cinayət törətməkdə günahlandırılırlar. Hə, bax bu başqa məsələ, HƏMAS liderləri ilə bağlı belə bir qərar verməyə cəsarət etmək olar. Onlar onsuz da bu günədək gizləndikləri yerlərdən çıxmırlar ki, həbsdən filandan qorxsunlar. Yoxsa ABŞ-ın "himayə etdiyi" adamlara "ilişmək" nə deməkdir...***

***İndi yəqin ki, ABŞ konqressinin hərəkərindən sonra, Beynəlxalq Cinayət Məhkəməsinin canına birə düşüb, vəziyyətdən çıxış yolları axtarırlar. Ya "tüpürdüklərini yalayacaqlar", ya da cəsarətləri varsa "Sem dayı" ilə kəllə-kəlləyə gələcəklər...***

# *Rusiyanın aktivlərinin müsadirə olunmasına rəsmi icazə verildi*

**Avropa İttifaqı Şurası, Rusiyanın dondurulmuş aktivlərinin gəlirlərindən, Ukraynaya hərbi yardım göstərilməsi məqsədiylə istifadə edilməsiylə bağlı rəsmi qərar qəbul edib. Qəbul edilmiş qərara görə, gəlirlərin 90 faizi ildə iki dəfə Aİ-nin büdcəsinə köçürüləcək, oradan isə Avropa sülh fondunun vasiyədiylə Ukrayna ordusunun maliyələşdirilməsinə yönəldiləcək. Bu məbləğin milyardlarla dollar olduğu bildirilir.**

Rusiya tərəfi, onun aktivlərinin gələn gəlirlərin müsadirə olunmasının, beynəlxalq hüquqa zidd olduğunu bildirib. (guya ki, beynəlxalq qanunlarl vecinə alan var idi). Eyni zamanda Qərb hüquqşünasları, Avtopa Beynəlxalq Bankı və Beynəlxalq Valyuta Fondu da bunun yüksək hüquqi risk ola biləcəyi barədə xəbərdarlıq ediblər. Ekspertlər hesab edirlər ki, bu qərar dünyada xoşagəlməz president yaradacaq. Bir çox ölkələr qızıl və valyuta ehtiyatlarını xarici banklara yerləşdirməkdən ehtiyat edəcəklər. Bu da dollar və avtonun nüfuzdan düşməsinə səbəb olacaq. Bu, həmçinin şəxsi əmlak hüquqlarının pozulması deməkdir. Ekspertlər qeyd edirlər ki, Rusiyanın aktivləri Qərb banklarında saxlanıldığı kimi, Qərb şirkətlərinin də Rusiya banklarında kifayət qədər aktivləri saxlanılır. Onlar hesab edirlər ki, Rusiyada analoji addımlar ataraq, onlarln aktivlərinə çökə bilər. Bu isə, dünyanı iqtisadi eskslasiyaya və hibrit müharibəsinə gətirib çıxara bilər.

**Rüstəm Hacıyev**



Zaur Əhməd

## Nəcməddin Sadıkov hələ də azadlıqda...

*Bakı Hərbi Məhkəməsində Müdafiə Nazirliyinin həbs edilmiş Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi, general-mayor Nizami Məmmədovun məhkəməsini izləyirəm və hər dəfə bir az da dəhşətə gəlirəm.*

*Dövlətin, millətin milyonlarını necə insafsız və vicdansızcasına göyə sovurublar. Konkret ifadələr var ki, Nəcməddin Sadıkova, filankəsə, filan qədər verdim. Bəlkə də bizim bilmədiyimiz, məhkəmədə açıq şəkildə deyilməyən o qədər faktlar var. Təəssüf ki, bizim bilmədiyimiz çox şeylər var və çox şeylər hər gün daha da çoxalır. Amma ortada dövlətin, millətin milyonları şəxsi ciblərə, ordan da xaricə, başqa-başqa yerlərə gedir. O pullarda tükü hələ bitməyən neçə-neçə yetimin haqqı var. Hərb sistemində haram yolla yeyilən hər manatda şəhidin, şəhid balasının, qazinin, döyüşçünün haqqı var...*

*Görünən odur ki, milyonları yeyib talayanların çoxu rahat həyatlarını yaşayırlar. Təkcə bu məhkəmə prosesi bunu deməyə əsas verir. Mən hələ "Tərtər hadisələri" ilə bağlı basdırılan ah-naləni, qanunsuzluqları, işgəncəni, haqsızlığı demirəm. O ayrı məsələdir. Amma bu, kor kor, gör gördür.*

*Bir əsgərin burnu qanayanda hansısa kiçik və orta rütbəli zabiti "cavabdehdir, onun tabeliyində baş verib", - deyərək başına oyun açırlar, ən sərt cəza verirlər. Maraqlıdır, bu qədər hadisə, haqsızlıq, qanunsuzluq, cinayət baş verib, amma baş qərargah rəisi Nəcməddin Sadıkov hələ də azadlıqda, müdafiə naziri Zakir Həsənov isə vəzifə başındadır...*

## Blinken: "İran xalqı Rəisisiz daha yaxşı vəziyyətdə olacaq"



**ABŞ dövlət katibi Antoni Blinken Konqresdə dinləmələr zamanı İran prezidenti İbrahim Rəisinin helikopter qəzasında həlak olmasını şərh edib.**

Adalet.az xəbər verir ki, onun sözlərinə görə, "Rəisinin prezident kimi dəhşətli hərəkətlərini nəzərə alsaq, İran xalqı yəqin ki, onsuz daha yaxşı vəziyyətdə olacaq". "Biz, şübhəsiz ki, onun ölümünə yas tutmuruq", - Antoni Blinken əlavə edib.

Maraqlıdır ki, daha əvvəl ABŞ Dövlət Departamenti İbrahim Rəisinin və digər İran rəsmilərinin vəfatı ilə əlaqədar "rəsmi başsağlığı" verərək, "İran xalqına və onun insan haqları və əsas azadlıqlar uğrunda mübarizəsinə dəstəyini" bir daha təsdiqləyib.

## Ermənistanda impiçment baş tutmasa...

**Ermənistanda baş nazir Nikol Paşinyana qarşı başlayan "Keşiş Qapon" qiyamının baş tutması sual sltındadır. Bu barədə "Sputnik Armeniya"nın efirində məlumat verən "şıfətim var" fraksiyasının katibi Tiqran Abramyan məlumat verərək bildirib ki, parlamentdə baş nazir Paşinyanın impiçment məsələsi baş tutmayacağl halda, növbəti impiçment məsələsi yalnız altı aydan sonra qaldırıla bilər.**

Xatırladırıq ki, rusların "keşiş Qapon" adlandırdıqları arxiyepiskop Baqrat Qalstyan, Yerevanda keçirilən mitinqdə bildirib ki, müstəqil deputat İşxan Zaxaryan Nikol Paşinyana qarşı qaldırılan impiçment prossesinə qoşulacaq.

Tiqran Abramyan bildirib ki, parlamentin "sifətim var" fraksiyası artıq dağılmaq üzrədir. İmpiçmentlə bağlı 36 səs toplamaq uğurlu addım kimi qiymətləndirilə bilər. Lakin çoxları düşünürlər ki, müxalifətin impiçmentə müvəffəq olmasına inanmırlar.

"36 deputatın imzasıyla layihə parlamentə təqdim olunarsa, 50 plyus bir səs qazanmaq çətin olacaq və impiçment layihəsi parlamrnt tərəfindn rədd ediləcək. Belə olan halda isə təkrar impuçment məsələsinə yallz altı aydan sonra qayıda biləcəyik"- deyə Abraynan bəyan edib.

İmpiçmentin qəbul olunması üçün daha 18 deputatın səsi lazımdır. Ona görə də müxalifət, hakim partiyanın daha 18-19 deputatını öz tərəfinə çəkməyə çalışmalıdır. Bacara biləcəklərmi?.. Bu məsələni həll etmək üçün etirazçılar küçə təyziqlərini gücləndirməyə cəhd etməlidi. Səriştəsiz bir keşiş bunu bacara biləcəkmi? Çətin görünür...

**Rüstəm Hacıyev**

# Sosioloqla jurnalistin qarabağlılara nifrəti: "Ev almaq üçün boşanan köçkünlər..."

**Şair, publisist, sosioloq, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, iqtisad elmləri doktoru "Ahəng-yol" elmi-fəlsəfi konsepsiyasının yaradıcısı Əhməd Qəşəmoğlu bu gün mediaya elə bir açıqlama verib ki, nə sosiologiyaya, nə iqtisad elməri doktoruna, nə də elmi -fəlsəfi konsepsiyaya qətiyyən dəxli yoxdu.**

Belə mövzunu ancaq, qanundan, daha dəqiq məcburi köçkünlər və qaçqınlar haqqında qanunlardan bixəbər, təndir başında mövzu,-söhbət qıtlığından əziyyət çəkən analar, nənələr ağzına alıb danışar.

Nə deyir, axı, bu şair, publisist, sosioloq?

Deyir ki, ənənəvi qəbul etdiyimiz qaydada boşanmalarla yanaşı müəyyən bir məqsədə xidmət edən boşanmalar var, işğaldan azad olunmuş bölgələrdə boşanmaların sayının çox olmasına bu da təsir edir:

" Belə bir fikir yayılmışdı ki, boşanma onlara yeni əmlak əldə eləməyə imkan verir.Onunla bağlı süni boşanmalar var, yəni ər-arvad bir yerdə qalır, sənəd üzərində boşanırlar. Belə boşanmalar bir çox bölgələrdə, həmçinin işğaldan azad olunmuş bölgələrdə müşahidə olunub.

Belə məlumat vardı ki, ər-arvad boşananda iki təsərrüfat olur, torpaq almaqda, ev almaqda bu rol oynayır. Məcburi köçkünlərin arasında elələri var ki, Bakıda onlara mənzil verilib. Ona görə boşanırlar ki, ev birinin adında qalsın, digəri işğaldan azad olunan rayonlardan yeni bir ev alsın. Belə məlumatlar var.

Yəni bunlar bizim fərziyyələrimiz deyil, belə faktlar müşahidə olunub. Bu faktlar da müəyyən bir faizdir, çox deyil, amma hər halda statistikaya təsir edir. Yəni deyilmir ki, həmin bölgələrdə hamı ona görə boşanıb".

Əhməd müəllim ümumilikdə, boşanmaya təsir edən fərqli amillərin olduğunu bildirib:

"Boşanmaya təsir edən ümumi amillər var. Azərbaycanda 2012-2014-cü ildən başlayaraq boşanma sayı sürətlə artıb. Burada təkcə iqtisadi, sosial faktorlar yox, digər, ayrı-ayrı faktorlar da rol oynayır".

### Yəni, köçkünlərin "yalançı" boşanmaları?

Əvvəlcə sosioloqa bildirmək lazımdır ki, 33 il əvvəl Bakıda köçkünə qarşı necə qıcıq münasibət vardı , elə indi də onu müşahidə edirik. Demək olar ki, yerli soydaşlarımızın böyük bir hissəsinin "evinizi qoyub qaçdınız Bakıya, qorumadınız" dediyi sözlər bu 33 ildə erməninin atdığı güllədən yüngül olmayıb. Hətta deyirdilər ki, "niyə gedib yerinizi-yurdunuzu ermənidən geri almırsınız, Bakıda qalmaq xatirinə gedib döyüşmürsünüz.." kimi düşük ittihamlarla bizi qınayırdılar. İş burasındadır ki, dövlətimizin xətti ilə köçkünlərə evlər tikiləndə də, qəsəbələr salınanda da bəzi soydaşlarımız hiddətlə- nifrətlə bizə baxıb: bunlar hara gedirlər, bunlara Qarabağ lazımdır ki? Qalıb Bakılı olacaqlar, belə



rahatlığı qoyub gedərlər heççç?!" deyib bəzən bizi təhqir etməkdən də çəkimirdilər.

Düzünü deyim, mənim ömrümə baltanı erməni tək çalmadı, həm də belə nadan soydaşlarım çaldı, qəlbimizi qırdılar, ağlatdılar, incitdilər bizi. Nəhayət Azərbaycan ordusu səfərbər olub torpaqlarımızı işğaldan azad etdilər. Yəqin ki, nadanlar o boş başları ilə anladılar ki, gedib yurd almaq adı vətəndaşın, sadə qarabağlı köçkünün işi deyil, buna dövlər qol qoymalıdır. Şükür ki, nadanlar 2020-ci ildə bu gerçəyi də qandılar. 2022-ci ildən etibarən isə köçkünlər asta-asta evlərinə köçürülməyə başlandı. İlk karvanlar yüksək beynəlxalq standartlara uyğun tikilmiş Qobu köçkün qəsəbəsindən başladı.

Köçkünlərin yaşadığı evdən əşyalar çıxarılıb Qarabağa gedən yük maşınlarına yükləndikdən sonra ev DövlətQaçqınkom və digər strukturların nümayəndələri tərəfindən akt tərtib edilib blomlandı və yaxud satışa çıxarıldı. Yəni indiyə qədər 20 mindən çox köçkün yurduna dönüb və onlara müvəqqəti yaşamaq üçün verilmiş evin hamısı əllərindən alınıb.

Bu işin başında dövlət durur və o da çörəyi qulağına yemir. Bilir ki, 1992-ci ildən etibarən köçkünlük siyahısında olan qarabağlılar yurdlarına dönəcək və bu evlər müvəqqəti yaşamaq üçün idi. Bunu köçkünlər də bilir. Əgər o müvəqqəti evlərin bir "kubik"ini özləri ilə apara bilməyəcəklərsə, bu absurd səbəbə görə niyə boşansınlar ki? Yurduna dönənlərdən kimsə Bakıda tikilən evdə qaldımı? Qalmadısa sosioloq Əhməd müəllim belə mənasız açıqlamanı niyə verir?

Sosioloqu keçdik. Daha bir nüas isə jurnalistin məsələyə girişidir. Qarabağlılara həsdiz nifrət bəsləyən kimliyi ilə maraqlanmasamda düzüb -qoşduğu cümlələrdən nifəti bəllidir. Jurnalist sanki nifrətini xirtdəyində zorla yığaraq yazır: "Həmin ildə hər 1000 nəfərə düşən boşanmanın sayının 1,5-dən yüksək, hətta 2 olduğu bölgələr var. Onlar arasında işğaldan azad edilən rayonlar da yer tutub. Məsələn, Ağdam 2, Füzuli 2,1, Zəngilan 2,6, Kəlbəcər 1,9 və s.

Xatırladaq ki, 2020-ci ildə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Eldar Zeynalov yerli mediaya açıqlamasında məcburi köçkünlər arasında yeni mənzilə sahib olmaq üçün həddindən artıq süni boşanmanın olduğunu demişdi.2022-ci ildən sonra rayonlar üzrə boşanma sayı açıqlanmasa da, ölkə üzrə ümumi boşanma sayı artıb".

Yeri gəlmişkən, həmin jurnalistlə sosioloqa bildiririk ki, psixoloqlar siz dediyinizi demirlər. Onlar fikirləşir ki, boşanların başında gələn əsas səbəb sosial-iqtisadi vəziyyət( işsizlik, ev problem, kasıbçılıq ailənin və, uşaqların tələbatının ödənilməməsindən yaranan problemlər, gərginlik, üstəgəl məmur özbaşnalığının verdiyi fəsadlar),

İkinci səbəb isə birinci səbəbdən yaranan çoxsaylı və dərin mənəvi-psixoloji amillər,reproduktiv sağlamlıqdakı problemlər,zərərli vərdişlərə aludəçilik, məişətdaxili zorakılıq, xəyanət və s.

Bəli, sosioloqla açıqlama alan jurnalist birləşərək köçkünlərə. kin püskürürlər. Bunun başqa adı yoxdur.

***P.S.* Nə əcəb hazırda bu jurnalist və sosioloqdan tələbə yataqxanalarında, düşərgə, uşaq bağçası və sair heç bir yaşamaq şəriti olmayan inzibati binalarda 33 ilini məhv edən, yaşamaq məcburiyyətində qalıb xəstə düşən köçkünlərin siyahısına bir açıqlama olmayıb?. Görəsən, "evimyurdum" deyə-deyə bu dünyadan əli uzalı gedək köçkünlərin ölüm səbəbi indiyə qədər nə jurnalistin, nə də sosioloq Əhməd Qəşəmoğlunun ağlına gəlməyib? Köçkünə qarşı nifrətdən gözləri açılıb ki?**

**Əntiqə Rəşid**

# Dövlət imtahanları ləğv edildi...

**Artıq bütün ali məktəblərdə dövlət imtanları ləğb edilib! Heç şübhəsiz bu, öncə tələbələrin ürəyincədir.**

Çünki 4 il təhsil alan tələbələr sonda dövlət imtahanları verirdilər. Bu zaman dövlət imtahanlarında uğur qazananlarla yanaşı, " kəsilən" tələbələr də az olmurdu. Əlbəttə, dövlət imtahanlarına hazırlaşmaq, gərgin anlar hər bir tələbədən həyəcan, stress yaradırdı. Bütün bunlar isə onların psixologiyasına, həyat tərzinə mənfi təsir göstərirdi. Ona görə də tələbələrin bu gərginlikdə canları xilas oldu və onlar indi rahat nəfəs alırlar.

Amma müəllimlərin isə rahatlığı əllərindən alınıb. Bir vaxtlar onlar hamısı diaqnostik qiymətləndirmədən keçdilər. Yəni imtahan verib, lazımi qədər nəticə əldə elədilər.Bir balaca rahat nəfəs alırdılar, dedilər ki, yox ey , yemədən imtahan verib sertifikat almalısınız! Heç



müəllimi də bu qədər incitmək olar?! Amma bizdə müəllimi nəinki incidirlər, həm də əsəbləri ilə oynayırlar. İmtanlarda keçməyənlər ikinci dəfə imtahan olundular.

Bu mərhələdən də keçməyən müəllimlərlə əmək müqaviləsi ləğv olundu və nə qədər insan işsiz qaldı, evinə çörək apara bilmədi. Məgər bu, müəllimə qarşı ədalətsizlik deyil.

**Hətta imtahan həyəcanından neçə- neçə müəllim müxtəlif xəstəliklərə tutuldu! Bir sözlə, cəmiyyətdə müəllimi gözdən salmaq istəyirlər, amma hələ də xalqın və cəmiyyətin müəllimə böyük sevgisi var! Ona görə də bu , mənasız imtahanlar ləğv edilməli, müəllimlərin rahat yaşaması və işləməsi üçün onlara normal şərait yaradılmalıdır! Axı, vallah, müəllimlərə bu qədər yormaq, yükləmək elə özü bir haqsızlıq və ədalətsizlikdir!!!**

**EMİL FAİQOĞLU**

# 82 illik ömrü nifrətlə yaşayan, "əməyi" puç olan Arkadi Ter-Tadevosyanın qazandığı lənət

**Bu gün irq, din, dil, insanlıq, türk, günahsızların qatili olan bir ermənini sizə tanıtdırmaq və yaşadığınız müddətcə ona lənət oxumağınızı istəyirəm. Ona lənət oxumamağımız üçün bizə bir səbəb də yetərdi, amma gerçəkliklər buna imkan vermir.**

1939-cu il 22 mayda Tbilisidə anadan olub, amma ömrünün 82 ilini ancaq ermənilərə həsr edən, millətçi, irqçi, faşist Njdenin mənivi oğlu , ”Komandos” ləqəbi ilə tanınan erməni general-mayor Arkadi Ter-Tadevosyan I Qarabağ müharibəsinin əsas simalarından biri olub. O, bəlkə də daha çox yaşayardı, lap bu gün 85 yaşını da qeyd edə bilərdi. Amma onu əcəli yox, içindəki nifrət öldürdü.

”Meşə tülküsü” adını almış bu terrorçu 1988-ci ildən Qarabağda separatizmə qoşulub və könüllülərin hərbi təlimində fəal iştirak edib. 1990-cı ildə ”Sasunlu Davit” terrorçu dəstəsinin üzvü oldu . 1991-ci ildə Ermənistan Müdafiə Komitəsinin hərbidənkənar hazırlıq şöbəsinin rəisi təyin edilib .

1991-ci il oktyabrın 30-da separatçı ”artsax respublikası”nın yeni yaradılmış özünümüdafiə dəstələri Ter-Tadevosyanın komandanlığı altında həyata keçirilən hərbi əməliyyat sayəsində böyük strateji əhəmiyyətə malik olan Hadrut rayonunun Tuğ kəndini işğal etdilər .

Amma qarabağlılar onun necə bir canı, necə bir qatil olduğunu hələ 1990 - 92-ci illərdə bilirdilər . Araşdırmaçı yazar Tural Həmid müharibə ilə bağlı materiallara əsasən yazırd:

”1992-ci il fevralın 26-da Ermənistan silahlı birləşmələrinin Xocalıya hücumunu ”meşə tülküsü” ləqəbli general Arkadi Ter-Tadevosyan (1939-2021) planlaşdırıb. O,şəhərə hücumu 2 səbəblə əsaslandırırdı:

**1.Xocalıda Azərbaycan ordusuna aid BM-21 (Qrad) vasitəsilə Stepanakertin atəş altında tutulması.**

**2.Döyüş əməliyyatlarının intensivliyinin artması ilə əlaqədar olaraq helikopterlərin yanacaq və hərbi texnika ilə bağlı artan tələbin öhdəsindən gələ bilməməsi. Təyyarələrin istifadəsi üçün Xocalıdakı hava limanı çox vacib idi (Ter Tadevosyan, 2007:568).**

Meşə tülküsü” bu əməliyyatı 3 həftə ərzində hazırlamışdı. Qarabağ müharibəsində ilk dəfə olaraq erməni dəstələri zirehli texnikalardan - iki BRDM bölməsindən və bir ədəd 100 mm-lik Rapier tank əleyhinə silahdan istifadə edirdilər.

Hücumun əsas istiqaməti Xocalı aeroportu ərazisinə yönəldiyi üçün ən şiddətli vuruşmalar burada başladı.

Hava limanının ərazisini qoruyan Əlif Hacıyevin komandiri olduğu dəstə üstün düşmən qüvvələri ilə bir neçə saat döyüşdü. Demək olar ki, bütün heyət qeyri-bərabər döyüşdə həlak oldu.

Sağ qalan döyüşçülər ermənilərin əlinə keçməməsi üçün hava limanının nəzarət qülləsini partlatmağa müvəffəq oldular. Əlif Hacıyev özü sağ qalan əsgərlərlə birlikdə Xocalı sakinlərinin Ağdam istiqamətinə doğru getməsinə kömək etdi. Ancaq burada mülki şəxsləri xilas edərkən şəhid oldu.

Tadevosyan Xocalı döyüşü ilə bağlı bunları yazır: ”Hücum saat 22:00-da başladı və döyüş əməliyyatları təxminən yarım gün davam etdi. Düşmən ən inadlı müqaviməti doqquzmərtəbəli binanın ərazisində göstərdi. Müqaviməti yatırmaq üçün Xocalının özündə ələ keçirilmiş iki Alazan raket qurğusu və əvvəllər yaxınlıqdakı yüksəkliklərdə quraşdırılmış iki iri çaplı pulemyotdan istifadə etməyə məcbur qaldıq.

Xocalı əməliyyatında 8 nəfər hərbi itki verdik, azərbaycanlıların isə 23 nəfər hərbi itkisi vardı.” (Ter-Tadevosyan, 2007: 569).”

Şərəfsiz qələbədən beyni dumanlanmış erməni terrorçuları və general-mayır Ter-Tadevosyan növbəti bir işğal planına imza atır.

Məşəqqətli fevraldan sonra may ayının ilk günləri başlar- başlamaz yadımıza əbədi həkk olunan günlərin acısını yenidən yaşamağa başlayırıq.

Azərbaycan xalqının mübarizə əzminin qırılılması, Qarabağın əraziləri, xüsusən sarsılmaz qalası Şuşanın Ermənistan və Rusiya silahlı birləşmələrinin birgə əməliyyatları nəticəsində işğala







məruz qalması isə mayda davam etməyə başlayıb.

General-mayor Arkadi Ter-Tadevosyan Şuşanın da işğalında adı keçən cinayətkarlardan biri idi. 4 may 1992-ci il tarixdə Ter-Tadevosyan Şuşa şəhərinə hücum üçün əmr imzaladı. Həmin əmr Şuşanın işğalını nəzərdə tutan ”Dağlarda toy” əməliyyatının başladılmasına ”qanuni şəkildə” göstəriş idi.

Əslində Xocalı soyqırımından sonra qarşılarında onları cəzalandıra biləcək güc görməyən işğalçılar Şuşa üzərinə hücumlara elə o vaxtdan hazırlıq görməyə başladılar. Amma Arkadi Ter-Tadevosyanın ”əmr”indən sonra ermənilərin cəbhə boyu Azərbaycan kəndlərinə hücumlarını daha da genişləndirdilər.

1992-ci il may ayının 6-da Yura Ovanesyan Canhəsən istiqamətindəki Azərbaycan mövqelərinə bir neçə sarsıdıcı zərbələr endirərək, mövqeyini dəyişib Şuşa şəhərinə doğru istiqamətləndi. Canhəsən-Kosalar istiqamətindəki Yura Ovanesyanın başladığı döyüşün davam etdirilməsi tapşırığını 26-cı bölmə öz üzərinə götürdü. Burada erməni ordusunun əsas məqsədi Azərbaycan döyüşçülərinin diqqətini Canhəsən-Kosalar istiqamətiə cəlb etməklə Şuşa şəhərini mühasirəyə salmaq idi. Əsas yol olan, 37 km-lik Ağdam - Şuşa yolu da ermənilərin əlinə keçdi.

Ermənilər 1992-ci ilin 28 yanvarında Şuşa səmasında içərisində 44 sərnişin olan təyyarəni amansızcasına partlatdıqdan sonra hava yolu da ermənilərin nəzarətinə keçdi.

Şuşalıların ermənilərə əsir düşməməsinin yeganə səbəbi və Azərbaycanla yeganə əlaqəsi 537 kilometrlik- Akara yolu oldu .

Bu tülkünün ən çox sevdiyi bir ”kəlam”ı vardı və istənilən tədbirdə o ”kəlamı” işlədirdi: ”Birinci Artsax müharibəsi zamanı azərbaycanlılara qaçmağı öyrədirdik, ikinci müharibədə də üzməyi öyrədəcəyik”.

Bəli bu ermənilərin xəyallarını qurduğu qədim erməni şəhəri Bakunakerti-Bakını işğal edib, azərbaycanlıları Xəzərdə boğmaq planlarının məntiqi nəticə cümləsi idi. ”Dənizdən dənizə” xülyası...

Ümumiyyətlə Azərbaycan ictimaiyyətinin yaddaşında isə o ”ən çox hədələyən general” kimi qalıb: ”Bizdə elə bir silah var ki, düşmənin bundan xəbəri yoxdur. Bu silah ermənilərin əli ilə hazırlanır və ən ağır vəziyyətdə istifadə edilə bilər ki, Azərbaycan özünə gələ bilməsin. Buna görə də mən silah-sursatın siyahısını açıqlayanları çox tənqid etmirəm. Onlar göstərməyə çalışıblar ki, guya nəsə bilirlər, amma bu, Azərbaycan üçün elə də faydalı olmayıb”.

Erməni general bu tip hədələyici fikirləri 2015-ci ilə qədər mütəmadi söylədi. Amma 2016-cı ildə 4 günlük müharibədən sonra sanki ”söndü” və bird aha Azərbaycana qarşı hədələyici fikirlər söyləmədi.

O, 2016-cı ilin 6 aprelində erməni ictimaiyyətini belə bir açıqlama ilə şok etdi: Azərbaycanın əsas məqsədi bizim qoşunlar və texnikamızın harada olduğunu öyrənmək idi. Hesab edirəm ki, Azərbaycan öz istəyinə nail oldu. Cəbhə xəttində baş verən hadisələr döyüşlə yanaşı kəşfiyyat xarakterli əməliyyat idi.

Azərbaycanın əsasən hədəfi bu məlumatları təhlil etmək və növbəti addımı atmaqdır. Biz onlara nə ilə cavab verdik? Gözlənilməzlik faktoru olduğundan biz bir neçə mövqe itirdik”

Azərbaycanın öz hədəfinə nail olubmu?” sualına general ”bəli” deyə cavab verdi:”Bəli, Azərbaycan öz istəyinə nail oldu. Bir daha təkrar edirəm cəbhədə yaşananlar kəşfiyyat xarakterli idi. Azərbaycan Qarabağ uğrunda gedən son döyüşlərdə müharibə qanunlarına riayət edərək qələbə qazanıb: ”Hesab edirəm ki, Azərbaycan genişmiqyaslı hücum qərarı verəcəyi təqdirdə faktiki olaraq başladığı işi davam etdirə biləcək”.

Bəli ”uzaqgörən” general bu fikirləri 2016-cı ildə səsləndirdirmişdi.

(İndi artıq nə bu gördüyünüz erməni əsgərləri var, nə də, o general...)

Arkadinin ölümü sanki bir görəcək, bir möcüzə oldu. Allah ona haqsız, ədalətsiz olduğunu ”başa saldıqdan sonra canını aldı”.

2021-ci ilin 31 martı - Bu tarixdən bir həftə əvvəl - 22 fevralda ermənilərin ”ilk qəhrəmanlıq” göstərdikləri həmin oTuğ kəndində Azərbaycan Prezidenti bir qrup tuğlularla görüş keçirirdi.

Şuşada isə Azərbaycan bayraqları dalğalanır, tikinti və quruculuq işləri başlamışdı. Xocalı aeroportunun Azərbaycan ərazisi olduğunun və azərbaycanlılara məxsusluğunu bir başa Rusiya prezidenti V. Putin efir vasitəsi ilə elan etmişdi.

**Hər zaman çıxışında ”Hər bir dövlətin böyük qardaşı var. Bizim nə böyük, nə də kiçik qardaşımız var idi. Gücümüz birliyimiz sayəsində qələbəmizdi” deyən bu işğalçının ürəyi 1813-28-ci ildən ona qardaş, himayədar olmuş Rusiyanın etinasız baxışlarına dözməyərək partladı . Separatçılar tərəfindən ”Dağlıq Qarabağ Qəhrəmanı” adı verilmiş general-mayor beləcə, əməllərinə görə 82 yaşında öz əcəli ilə deyil, Azərbaycanın uğurlarını görüb öldü. Bu Böyük Rəbbimiz ın ədalətsizliyi cəzalandırması, günahsız insanların ahının yerinə qalmaması idi.**

**Əntiqə Rəşid**

***Rüstəm Hacıyev***

# "Siyasətdə "təsadüflər" elə belə baş vermir"

**Amerikalı politoloq, ABŞ ordusunun istefada olan podpolkovniki Erl Rasnussen mətbuata açıqlamasında bildirib ki, İran prezidenti İbrahim Rəisinin helekopter qəzasında həlak olması, Slovakiyanın baş naziri Robert Fisoya sui-qəsd olunmasından, Serbiya prezidenti Aleksandr Vuçiçin ölümlə təhdid edilməsindən və Türkiyədə dövlət çevrilişinə cəhddən sonra baş verdi. O, qeyd edib ki, faciənin baş verməsinin bir çox səbəbləri ola bilər, xarici xüsusi xidmət orqanlarının müdaxiləsi və s.**

**Politoloq bildirib ki, ”kim bilir ABŞ-ın və yaxud İsrailin bu qəzaya müdaxiləsi varmı, ya yox. Bu barədə danışmaq hələ tezdir”.**

**Rasmussen qeyd edib ki, bir nömrəli dövlət başçılarına qarşı baş verən hadisələr, həmçinin Səudiyyə Ərabistanında yaşanan problemlər ard-arda bir ayın içərisində baş verib. Politoloqun fikirincə, xarici siyasətdə ”elə belə təsadüflər” az hallarda baş verə bilər.**

**”Siz, Almaniyanın kansleri, və yaxud Fransanın prezidentinə qarşı oxşar hadisələrin baş verməsinin şahidi olmusunuzmu?... Amma vəziyyət elə gətirib ki, baş verən hadisələr məhz bir sıra güclərlə problemləri olan ölkələrdə baş verir”- deyə politoloq bildirib.**

**Təbii ki, həmişə olduğu kimi, ictimayyət xarici müdaxilənin olub-olmadığını heç vaxt bilməyəcək, lakin mövcud vəziyyət məhz xarici müdaxiləyə işarə edir.**

**Əslində baş verən son hadisələrə ayrı-ayrılıqda baxmaq lazımdır. Əgər həqiqətən Türkiyədə dövlət çevrilişi baş versəydi, kim qazana bilərdi? Əgər Fiso həqiqətən ölsəydi kim qazanacaqdı? Bəs İranın prezidenti və digər yüksək vəzifəli şəxslər, o cümlədən Yaxın Şərqdə böyük nüfuza malik xarici işlər nazirinin baş verən qəzada həlak olmalarından kimlər qazanacaq?**

**Göründüyü kimi müəmmalar çoxdur. Yəqin ki, İranın xüsusi xidmət orqanları hadisənin baş vermə səbəblərini ciddi araşdıracaq. İranın Ali Dini rəhbəri Əli Xomenei artıq faciənin baş vermə səbəblərinin araşdırılması üçün aidiyyəti qurumlara göstəriş verib.**

**İran prezidentinin də içərisində olduğu kortecdə üç helekopter olub. Digər iki helekopterdə İranın enerji naziri Əli Əkbər Mehribani və yollar naziri Mehridad Bazroaş olublar. Həmin helekopterlər eyni marşurutla müvəffəqiyyətlə mənzil başına çatıblar.**

**Uçuş marşurutunda hava şəraiti qəbatbəxş olmayıb, qatı dumanlı hava şəraiti olub. Niyə hava şəraitinin uçuş üçün əlverişsiz, təhlükəli olduğu barədə ölkə başçını aparan ekipaj üzvülərinə məlumat verilməyib? İran üçün xarici təhdidlərin artığı gərgin bir vaxtda birinci bortun mühavizəsi lazımi qaydada təşkil olunmayıb?**

**Cavabsız, (əslində cavabı hamıya məlum olan) suallar çoxdur.**

**Qeyd edək ki, insident, beynəlxalq münasibətlərin yumşalmasına doğru aparılan delikant danışıqlar ərəfəsində baş verib. Bir neçə gün əvvəl İranın və Birləşmiş Ştatların rəsmi nümayəndələri, vasitəçilər vasitəsiylə Yaxın Şərqdə münaqişələrin geniş miqyas alması təhlükəsini azaltmaq məqsədiylə danışıqlar aparmışdı.**

**Bütün bunlar İranda vəziyyəti qarışdırmağa yönələ bilərmi? Təbii ki, prezidentin müəmmalı şəkildə həlak olması ilə sistemin çökməsinə çalışan xarici qüvvələrin cəhdləri heç bir fayda verə bilməz. Çünki, İran İslam Respublikasında əsas siyasi sima- Ali Dini rəhbər Əli Xomeneidir. Bu ölkənin qanunlarında prezident Ali Dini rəhbərdən sonra ikinci adam sayılır. Yəni, istənilən halda vəziyyət Ali Dini Lider və İran islam inqilabi keşikçiləri Korpusunun nəzarətində olacaq.**

**Allah qəzada həlak olan İranın dövlət xadimlərinə rəhmət eləsin, İran xalqlna səbr versin...**

## *Yenilənmiş 1 qəpiklik metal pul nişanları tədavülə buraxıldı*

**Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən yenilənmiş 1 qəpiklik metal pul nişanları tədavülə buraxılıb.**

Adalet.az Mərkəzi Banka istinadən xəbər verir ki, tədavülə buraxılan yenilənmiş 1 qəpiklik metal pul nişanının arxa tərəfində yeni dizayn elementləri kimi Azərbaycan Respublikasının Dövlət gerbi, eləcə də pul nişanının istehsal ili əks olunub.

Yenilənmiş 1 qəpiklik metal pul nişanının digər dizayn elementləri və texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb.

Yenilənmiş 1 qəpiklik metal pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq.

## Mincivana ilkin mərhələdə köçürülənlərin sayı açıqlandı

**Prezident İlham Əliyevin mayın 18-də təməlini qoyduğu Zəngilan rayonunun Mincivan qəsəbəsinə media-tur təşkil olunub.**

Adalet.az xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyyə Rzayeva media nümayəndələrinə bildirib ki, ərazisi 301,51 hektar olan Mincivan qəsəbəsinə birinci mərhələdə 3 min 146 nəfər köçürüləcək: "2040-cı ilədək qəsəbədə 9088 nəfər üçün 630 fərdi ev və bir neçə mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Mincivan qəsəbəsində yaşayacaq əhalinin məşğulluğunun təmin olunması məqsədilə idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri yaradılacaq. Qəsəbədə inzibati bina, mədəniyyət mərkəzi, kitabxana və çoxfunksiyalı bina, restoran, idman-sağlamlıq, ailə-sağlamlıq mərkəzləri, hotel, bayraq meydanı, ticarət, məişət və baytarlıq xidmətləri obyektləri, mebel mağazası, mərasim evi, yanğın deposu, bazar kompleksi, emalatxana və satış köşklərinin yaradılması nəzərdə tutulub. Mincivan qəsəbəsində tam orta məktəb, uşaq bağçası, poliklinika, avtovağzal binası, yanacaqdoldurma məntəqəsi, anbar və logistika binaları, ağac emalı və mebel sexləri, digər istehsalat müəssisələri də inşa olunacaq".

Qurumun rəsmisi onu da vurğulayıb ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır: "Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 fərdi ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli dörd yaşayış binasının tikintisi nəzərdə tutulur".

## Erməni aşığına, gürcü şairinə abidə qoyuldu: Bəs, Azərbaycan niyə yada düşmədi?



**Xəbər verdiyimiz kimi, mayın 18-i Türkmənistanda Məhdimqulu Poeziya Günü kimi qeyd olunub və Aşqabadda Kopetdağ silsilə dağlarının ətəyində türkmən şairi və filosofu Məhtimqulu Fəraqinin anadan olmasının 300 illiyinə həsr edilmiş heykəlin açılışı olub. Forumun açılışında 20-dən çox ölkənin yüksək səviyyəli nümayəndə heyəti, beynəlxalq qurumların nümayəndələri iştirak ediblər.**

Eyni zamanda Ermənistan Respublikasının təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan Türkmənistanın paytaxtı Aşqabadda şair Məhtumulu Fəraqinin anadan olmasının 300 illiyinə həsr olunmuş mədəniyyət nazirlərinin beynəlxalq konfransında iştirak edib.

Məşhur türkmən şairi və mütəfəkkiri Məhtimqulu Fəraqinin anadan olmasının 300 illiyi çərçivəsində Aşqabadda onun adını daşıyan xatirə parkının açılışı olub, burada Fəraqinin 60 metrlik monumental abidəsi ilə yanaşı, dünyanın məşhur mütəfəkkirlərinin heykəlləri də qoyulub. Parkda yenicə istifadəyə verilən Uilyam Şekspirin, Dante Aligyerinin, Onore De Balzakın, İohan Volfqanq fon Hötenin, Hafiz Şirazın, Fyodor Dostoyevskinin, Rabindranat Taqorun, Yasunari Kavabatanın, Raca Əli Hacının, Mixay Emineskunun, Sayido Nəsəfinin, eyni zamanda, Şota Rustavelinin,Şandor Petefinin, Dan Kurtun, Kurmanqazı Saqırbayulinin, Çingiz Aytmatovun, Adam Miskeviçin, Xuan Ramos Ximenezin, Yunus Əmrənin, Qriqori Skovorodanın, Lenqston Hyuzun və ümumilikdə 24 məşhurun heykəlləri parkda öz yerini alıb.

Sayat Novanın heykəlinin açılışı ilə bağlı Ermənistan daxili işlər və rabitə naziri Janna Andreasyan və Ermənistanin Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri Ruben Xarazyana həvalə edilib.

***P.S.* Türkmən ədəbiyyatının görkəmli klassiki M.Fəraqinin Azərbaycan ədəbiyyatı ilə bağlılığı həmişə diqqəti cəlb edib. Məhtimqulu poeziyasında Azərbaycana bağlılıq daha əyani şəkildə meydana çıxır. Məhtimqulunun Azərbaycanla əlaqəsi maraqlıdır. Onun şeirlərində Təbriz, Şirvan, Şamaxı və sair Azərbaycan yer adlarına rast gəlinir. "Yaylaqları var" şeiri Azərbaycana həsr edilmişdir. Şair öz şeirlərində dönə-dönə görkəmli Azərbaycan şairlərindən dahi N.Gəncəvinin, İ.Nəsiminin, M.Füzulinin adını çəkib. Təəssüf ki, Məqtimquli Fəraqinin xatirə parkında dünyanın hər yerində tanına Azərbaycan mütəfəkkir şairlərinin heykəli yoxdur. Maraqlıdır ki, konfrans günlərində Azərbaycanın Türkmənistandakı səfiri Qismət Gözəlov, Xarici İşlər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Turizm Agentliyinin nümayəndələri iştirak ediblər. Amma bu nüans diqqətlərindən uzaqda qalıb.***

Əntiqə Rəşid

# Atmosferə normadan artıq zərərli qazlar atılır...

**Mayın 15-dən iyunun 15-dək respublika ərazisində "Təmiz hava" aylığı keçirilir.**

Hər il olduğu kimi , bu il də ölkə ərazisində DİN- nin Baş Dövlət Yol Polisi İdarəsi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə " Təmiz hava" aylığına start verib.Aydındır ki, hər gün müxtəlif markalı nəqliyyat vasitələrindən atmosferə normadan artıq zərərli qazlar atılır. Məhz adını çəkdiyimiz hər iki nazirlik birgə mübarizə apararaq bu problemin həllinə çalışır. Artıq bütün ölkə ərazisində, o cümlədən respublikasının avtomobil yollarındakı postlarda reydlərə başlanıb.







Belə reydlərdən biri də Baş Dövlət Yol Polisi İdarəsinin Ekoloji Nəzarət Bölüyündə keçirilib. Keçirilən reyddə yol polisi əməkdaşları ilə yanaşı, kütləvi informasiya vasitələrinin nümayəndələri, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçilər iştirak ediblər.

Reyd zamanı onlar nəqliyyat vasitəsindən atmosferə normadan artıq zərərli qazların atılması faktları aşkarlanıb.

Məlum olub ki, edilmiş xəbərdarlıqlara baxmayaraq bir çox sürücülər avtomobillərndəki texniki qüsurları vaxtında aradan qaldırmayıb, mövcud nöqsanlara göz yumublar! Buna görə də həmin sürücülər inzibati məsuliyyətə cəlb edilib və 50 manat məbləğində cərimələniblər.

Reyddə iştirak edən Baş Dövlət Yol Polisi İdarəsinin avtotexniki müfəttişlik şöbəsinin baş inspektoru, polis polkovniki -leytenantı Toğrul Mustafayev dedi ki, bu reyddə bir daha aydınlaşdı ki, bəzi sürücülər həqiqətən də istismar etdikləri nəqliyyat vasitələrini vaxtında texniki baxışdan keçirmir, göstərilən nöqsanları aradan qaldırmır və nəticədə avtomobillərdən atmosferə normadan artıq zərərli qazlar atılır. Bu isə təmiz havamızın çirklənməsi və ekoloji tarazlığın pozulması deməkdir.

Ona görə də fiziki, hüquqi və vəzifəli şəxslər bu tədbirdən nəticə çıxarmalı, öz məsuliyyətlərini dərindən dərk etməlidirlər. Bir sözlə, təmiz havanı qurumaq tək iki nazirliyin deyil, bütün cəmiyyətin borcudur!

Baş Dövlət Yol Polisi İdarəsinin avtotexniki müfəttişlik şöbəsinin rəisi, polis polkovniki Xalid Əzimov keçirilən reydlə bağlı fikirlərini ifadə edərək dedi ki, ilk günlərin nəticəsi göstərdi ki, hələ də nəqliyyat vasitələrni texniki cəhətdən saz saxlamayan kifayət qədər sürücülər var.

Biz öncə onları maarifləndiririk, amma nəticə çıxarmayanda inzibati məsuliyyətə cəlb edirik! Reyd zamanı məlum olub ki, atmosferə ən çox zərərli qazlar Sovet istehalı olan" VAZ" markalı avtomobillərdən və " Kamaz", "Kıraz" , " Şadman" kimi yük maşınlardan atılır.

**Ümumiyyətlə, hər bir sürücü " Təmiz hava" aylığında diqqətli olmalı, yol polisinin tövsiyələrinə əməl etməlidir. Çünki qanunu pozan hər hansı sürücü mövcud nöqsanı vaxtında aradan qaldırmazsa, o, ikinci dəfə də cərimə ediləcək! Birmənalı olaraq qanuna riayət etmək bu problemin ən yaxşı çıxış yoludur!**

EMİL FAİQOĞLU

# Şəhidin nur saçan gecəsi

**Hamı yığılıb ora, hamı Beynəlxalq Muğam Mərkəzinin foesində toplaşan insanların üzündə kədərlə qürur hissi bir- birinə qarışıb. Hamıdan çox Qabil Ədalət diqqətimi çəkir. Həyəcanı gözlə görünür. Yəqin ki, bu həyəcan məsuliyyətindən xəbər verir. Axı bu böyük işin məsuliyyəti onun üzərindədir.**

Şəhid kəşfiyyatçı leytenant Vüsal Muradovun 25 illik xatirəsinə həsr olunmuş "Vüsal gecəsi" adlı bədii ədəbi musiqili gecədə ilk olaraq dövlət himi səsləndirilib, sonra isə şəhidlərin əziz ruhlarını bir dəqiqəlik sükutla yad edilib. Daha sonra tədbiri açıq elan edilib. Gecədə Ağdam RİH başçısı Vaqif Həsənov, Millət Vəkili Müşfiq Məmmədov, BSU-nun rektoru Anar Nağıyev, Müdafiə Nazirliyinin nümayəndələri, Ali Hərbi məktəbin kursantları, QHT və media nümayəndələri, şəhid anaları, qazilərimiz, Vüsal Muradovun döyüş, kursant yoldaşları, əsgərləri və mədəniyyət əhli iştirak ediblər. "Vüsal gecəsi"ndə əməkdar artisti Firuzə İbadova, Xalq artisti Gülyaz Məmmədova, səsi ilə zalı titrədən Əməkdar artist Sevinc Sarıyeva və tələbələri, ifası







ilə Ağdamı xatırladan Əməkdar artist Firuz Səxavət şəhidimizi öz vətənpərvər mahnıları ilə anıblar. Bədii qiraət ustası Əməkdar artist Azad Şükürov gecənin iştirakçılarını məlahətli səsinin ahənginə bürüyüb.

Möhtəşəm səsə sahib Mirələm Mirələmov, Arif Səlimov, gənc xanəndə Məxfirət Alişanova da ifaları ilə zalda əyləşənlərin alqışlarını qazanıblar.

Aşıq Elşad Abbas , tar ifaçısı Məhərrəməli Alişanov. bədii qiraət ustası Həlimə Sultan, Sair, Günay Nəriman, Sevinc Şirin, kanon ifaçısı Humay Abbas şəhidimizi öz ifaları ilə ehtiramla yad ediblər.

Gecədə "Sübh şəfəqləri" rəqs ansamblının iştirakı ilə "Xarı bülbül" rəqsi tamaşaçılara təqdim olunub Qulubəyovlar Mədəniyyət mərkəzinin rəhbəri bəstəkar, yazar Fərahim Sadiqin rəhbərlik etdiyi "Öncə vətən" qrupu da tədbirdə iştirak edib.

**Gecənin sonunda Vüsal gecesinin təşkilatçısı Qabil Ədalət şəhidin öz hərbi geyimində səhnəyə çıxıb. Şəhidin anası Kəmalə xanıma yazdığı "Başına dönüm" şeiri ilə ilə çıxış edib.Daha sonra xanımın əlindən tutub səhnəyə çıxararaq, başından qara yaylığı açıb. Əvəzində isə xanımlıq rəmzi sayılan yaşıl kelağayını başına örtüb. Təşkilatçının bu addımı böyük alqışlarla qarşılanıb.**

Əntiqə KƏRİMZADƏ

# Armudu stəkanda, çaaay, ürəyiniz yananda, çaay: Beynəlxalq Çay Günü

**Bildiyiniz kimi, 2019-cu ilin dekabrında BMT Baş Assambleyasında mayın 21-nin Beynəlxalq Çay Günü elan edilməsi barədə qətnamə qəbul olunub.**

**Yəni bu gün çayın və "çayxor"ların günüdür.**





### *İlk çay içən bəxtəvərlər: Çayın tarixi və inkişafı*

Qədim tarixə və olduqca faydalı əhəmiyyətə malik sevilən içki növü çay ilk dəfə Qədim Çində istifadə olunmuş və indiki halına çatanadək çeyli dəyişiklik yaşamışdır. Hazırda dünyada çayın üyüdülmüş, ləçəkli, soyuq çay və s. Kimi formaları olduqca geniş yayılmışdır. İlk dəfə olaraq məhz çinlilər çay bitkisinin yarpaqlarından hazırlanmış məhlulun orqanizm üçün olduqca faydalı təsirə malik olduğunu kəşf etmiş və bu bitkini geniş şəkildə becərməyə başlamışlar. Bu bitkinin böyüməsi üçün, kifayət qədər rütubətli isti bir iqlim tələb olunur. Çay sahələrinin əksəriyyəti tropik və ya subtropik iqlimi olan ərazilərdəki dağ yamaclarında yerləşir. Çayın ən çox istehsal olunduğu Çin, Hindistan və Afrikada ildə dörd dəfəyə qədər çay yığımı həyata keçirilir. Ən çox ilk iki məhsulun çayları bəyənilir. Çay yarpaqları əl ilə toplanır və çeşidlənir. Əla növ çaylar üçün ya açmamış, ya təzə açan tumurcuqlar ya da ən gənc yarpaqlar istifadə olunur, daha "qaba" çaylar yetişmiş yarpaqlardan hazırlanır. Yığıcıların işi olduqca ağır və monotondur: hazır qara çay və xam yarpağın kütlə nisbəti təxminən 1/4 qədərdir, yəni 1 kiloqram çay almaq üçün 4 kiloqram yarpaq yığmaq lazımdır.



### *Pürrəngi, xoruzquyruğu: Çayların növləri və Azərbaycanda "çayxorluğun" tarixi*

Mənşəyinə görə çaylar müxtəlif qruplara ayrılır. Bəziləri haqda qısa məlumat:

Çin - dünya çay istehsalının dörddə birindən çoxuna sahibdir, yaşıl və qara çaylar istehsal edir, eyni zamanda ağ və sarı çayların, ulun və Puer çaylarının istehsal olunduğu yeganə ölkədir.

Hindistan - dünyanın ikinci ən böyük çay istehsalçısıdır. Hindistanda çay istehsalı ixrac yönümlüdür, istehsal həcmi öz istehlakını xeyli üstələyir.

Seylon - İstehsalçı - Şri Lankadır, dünya istehsal həcmindəki payı təxminən 9-10% -dir. Qara və yaşıl çay istehsal olunur, çay bitkisinin yalnız Assam çeşidi becərilir.

Yapon - Yaponiya yalnız çay kolunun Çin çeşidindən yığılan yaşıl çay istehsal edir. Afrika - Afrika çayları yalnız qara, doğranmış və ya dənəvər, orta və aşağı keyfiyyətli, yaxşı ekstraktlılığı və kəskin dadı ilə seçilir.

Azərbaycan təbiəti zəngin olduğu üçün müxtəlif ətirli bitkilərdən çaylar hazırlanıb içilməsinin tarixi çox qədimdir. Kəklikotu, heyva yarpağı və xırdalanmış budaqları, çobanyastığı, nanə, bəndrövş və digər müxtəlif bitkilərdən hazırlanan çay ağız dadı ilə içilib.

Hazırda bu çaylar indi də sevilir və sağlamlığa böyük xeyri var.

Çay bitkisi ilk dəfə 1912-ci ildə Azərbaycanın Lənkəran bölgəsinə gətirilərək orada əkilib və ilk dəfə olaraq çay zavodu 1937-ci ildə Lənkəranda tikilib. Bundan sonra Azərbaycanda çayın kütləvi şəkildə istehsalına başlanılıb.

***Armudu istəkanda çaaaayyyy
Ürəyimiz yananda çaaayyyy...***

Çay ürəyi xəstə olanlara dərmandı. Sidikqovucu təsir edir və bu səbəbdən ödemləri və ürəyə düşən gərginliyi azaldır. Təzyiqi aşağı salmağa kömək edən çay damarları "pis" xolesteroldan təmizləyir və bununla ürək xəstəliklərinin, insultun və infarktın riskini azaldır.

Lakin çayın bu gözəl müalicəvi xüsusiyyətlərindən faydalanmaq üçün onu düzgün seçmək, dəmləmək və qəbul etmək lazımdır.Yəni yarpaqları iri olan çay növlərinə üstünlük verin.

Belə çay daha faydalı sayılır. Çinli alimlər bildirib ki, dəmləndikdən 15 dəqiqə sonra qara çayda zərərli maddələrin görünməyə başlayır. Ona görə də çayı dəmlədikdən dərhal sonra için. Tanınmış qidalanma mütəxəssisi Yelena Solomatina köhnə çayın zərərlərini izah edib:"Çay müxtəlif efir yağlarını ehtiva edir, üzərinə qaynar su tökdükdə, bu yağların bir hissəsi çay yarpaqlarından çıxır və nazik bir təbəqə şəklində suyun səthinə yayılır.

Çay içərkən dərhal görə bilmərik, stəkan boşaldıqca qabın divarlarında qara ləkə nəzərə çarpır. Bu təbəqəyə orqanik birləşmələr, taninlər və s. daxildir. Hava ilə təmasda olanda bu maddələr oksidləşir, stəkanda patogen mikroflora yaranmağa başlayır. Xüsusilə çayı şəkərlə içsəniz, mikrobların yaranması üçün lazım olan isti, nəmli və şirin qida mühiti meydana gəlir"

### *Bərəkətli Lənkəranın limonu və çayı*

Hamımızın sevdiyi "lumulu çay"ın (Limonlu çay) ləzzəti isə bir başqadır. Xeyri isə sağlamlığımıza töhvədir. Limon qəlvi elementlərlə olduqca zəngindir. Tərkibində 8%-ə qədər üzvi turşular, 3%-ə qədər şəkər, azotlu və mineral maddələr (kalium, mis), fitosidlər, A, VI, V2, Z, S vitaminləri var. Eyni zamanda, limonun tərkibində insan orqanizmində çatışmayan R vitamini var ki, məhz onun qıtlığı orqanizmində qanaxmalara, ayağ ağrılarına, dərialtı qansızmalara, ümumi zəifliyə gətirib çıxarda bilər.

Lakin bütün bu vitaminlər limon dilimini isti içkiyə atdığınız zaman məhv olur. Yüksək temperaturun təsiri altında limonun tərkibində olan C vitamini və digər qiymətli komponentlər tamamilə dağılır. Orqanizminizi limonun faydalı komponentləri ilə zənginləşdirmək istəyirsinizsə, məsləhətdir ki, çaya və ya istənilən isti içkiyə limonu dərhal yox, nisbətən soyuq halda atasınız.

Bir sözlə, Arizona Universitetinin alimləri müəyyənləşdirmişlər ki, hamımıza yaxşı tanış olan qara çaya limon dilimləri salıb içəndə o, dəri xərçənginin inkişafının qarşısını 70 faiz alır. Çayın tərkibində hamilə qadınlar üçün vacib sayılan sink var. Çay qan damarlarının daxili səthində piy təbəqəsinin əmələ gəlməsini yavaşıtmaqla sklerozun, hipertoniyanın və beyin tromblarının baş verməsi ehtimalını azaldır.

Çay mərkəzi sinir sistemini stimullaşdırır və əzələlərin mütəhərrikliyini yüksəldir. Çay çəkini azaldır və dərinin vəziyyətini yaxşılaşdırır. Çayın tərkibindəki tanin bir çox zərərverici bakteriyaları qırır və buna görə də stomatitin, anginanın, enteritlərin və digər bağırsaq infeksiyalarının qarşısını alır.

Çay orqanizmin qan əmələgətirmə funksiyasına kömək edir. Çayda zərərli şüalanmanı neytrallaşdıran maddələr var. Buna görə də işləyən televizorun qabağında əyləşib çay içən adam şüalanmadan qorunur və görmə qabiliyyətini qoruyub saxlayır.



Çayın tərkibində kofein, teofillin, teobromin kimi alkaloidlərin olması qanın turşu-qələvi balansının pozulmasına imkan vermir. Çay orqanizmdə tez həzm olunur. Buna görə də qana düşən turşu tullantılarını vaxtında neytrallaşdırmaq üçün kifayət edən konsentrasiyada maddələr əmələ gəlir.

Çay sərinlik gətirən vasitədir. Bir fincan isti çaydan az sonra dərinin temperaturu 1-2 C endiyindən adamda sərinlik duyğusu yaranır.

### *Çay nədir, say nədir? - deməyin...*

2009-cu ildə İran alimləri isti çayın istehlakını qida borusu xərçəngi riski ilə əlaqələndiriblər. Bununla bağlı Britaniya Tibb Jurnalında dərc edilmiş araşdırmaya əsasən, 70C dərəcə və ondan isti çay içmək riskin 8 dəfə artmasına səbəb ola bilər.

Alimlərin gəldiyi nəticəyə görə 62 dərəcədən yuxarı temperaturda olan çayı içmək isə mədə-bağırsaq sistemində ciddi xəstəliklərə səbəb olur. Çayın içilməsi üçün onun temperaturu maksimum 56 dərəcə olmalıdır.

Tünd çay içmək həvəsindən də imtina etmək lazımdır.

Çünki tünd çayın tərkibində kofein və tanin daha çox olduğuna görə bu baş ağrılarına və yuxusuzluğa səbəb ola bilər.

Üstəlik tünd çay dəriyə mənfi təsir göstərir, xüsusilə üz dərisinin rəngini tutqunlaşdırır. Bu səbəbdən də çay dəmləyərkən onun tünd olmamasına diqqət yetirin. Yeməkdən dərhal sonra çay içməyin. Nəzərə alın ki, yeməkdən sonra çay mədə şirəsinin ifrazını kəskin şəkildə azaldır və bunun nəticəsində həzm prosesi çətinləşir. Ən azı yeməkdən 20-30 dəqiqə sonra çay içmək məsləhət görülür.

Gün ərzində 3-5 fincan təzə dəmlənmiş çay için. Həkimlər çayı bundan artıq içməyi tövsiyə etmirlər. Çayı dəmirlə zəngin olan qidalardan (söhbət əsasən ətdən gedir) sonra içməyin. Çayın tərkibində olan maddələr dəmirin mənimsənilməsinə mane olur. Son məlumatda verək , məsləhətimiz bitsin. Deməli, dəmlənmiş çayın tərkibindəki alkaloidlər - kofein və teobromin orqanizmin tonusunu yüksəldir. Ən yaxşı çay sortlarında alkaloidlərin miqdarı 4 faizədək olur. Çaydakı kofein qəhvə dənələrindəki kofeindən yaxşıdır. Çaydakı kofein ürək əzələlərinin yığılmasını təsirləndirir, beləliklə də arteriyaların qan dövranını gücləndirir.

Kofein beyin damarlarına da müsbət təsir göstərir. Buna görə də yaxşı dəmlənmiş bir stəkan çay içəndən sonra adamın əhvalı yaxşılaşır. Çayı qıvraqlıq eliksiri (iksiri) adlandırırlar. Çay böyrəklərin də funksiyasına müsbət təsir göstərir. Böyrəkləri xəstə (böyrək çatışmazlığı, kəskin və xroniki nefrit) olan adamlar üçün də çay xeyirlidir. Çay belə xəstələrin ümumi zəifliyini, iştah yoxluğunu aradan qaldırır.

**Çay soyuqlamış adamların tənəffüs yollarında hüceyrə mübadiləsinin intensiv getməsinə yardımçı olduğundan xəstəliklə mübarizə asanlaşır. Çay soyuqdəymə hallarında tərlədici və stimullaşdırıcı vasitə hesab olunur. Hələ o çayın içinə zoğal, moruq, böyürtkən, gilənar və s. mürəbbələr qatıb içirsənsə, xəstəlik səndən uzaq qaçır. Bu məsləhət də bizə nənə-babalarımızdan qalıb.**

**Çalışın, sağlam qalın...!**

**Əntiqə Rəşid**

## *"Azərbaycandakı "Akıncı" helikopterin axtarışı üçün hazır vəziyyətdə olub"*

**Azərbaycandakı "Akıncı" Texniki Dəstək personalı İranda qəzaya düşmüş helikopterin axtarışı ilə bağlı mümkün fövqəladə vəziyyətə müdaxilə etmək üçün missiya boyu hazır vəziyyətdə olub.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "CNN TÜRK"ə açıqlamasında bildirib.



"Akıncı" tipli pilotsuz uçuş aparatının İranda qəzaya uğrayan helikopterin yerinin müəyyən edilməsində mühüm rol oynadığını bildirən Bayraktar, "Akıncı" PUA-larının böyük risk aldığını əlavə edib.

Qeyd edək ki, Türkiyə Milli Müdafiə Nazirliyi İran hakimiyyətinin Türkiyə Xarici İşlər Nazirliyi vasitəsilə etdiyi müraciət əsasında İran prezidentinin və onun nümayəndə heyətinin qəzaya uğrayan helikopterinin axtarış-xilasetmə işlərində iştirak etmək üçün "Akıncı" tipli PUA və gecəgörmə qabiliyyətinə malik "Cougar" tipli helikopterin cəlb olunduğunu açıqlayıb.

Xatırladaq ki, 19 mayda İran prezidenti İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahian, İranın Ali Liderinin Təbriz üzrə nümayəndəsi Məhəmməd Əli Ali Haşim, Şərqi Azərbaycan vilayətinin valisi Malik Rəhmətini Xudafərindən Təbrizə aparan helikopter vilayətin Vərzəqan rayonunda qəzaya uğrayıb. Qəza nəticəsində 9 nəfər həlak olub.

## *Suriyanın birinci xanımına leykoz diaqnozu qoyuldu*

**Suriyanın birinci xanımı Əsma Əsədə tibbi müayinədən sonra kəskin leykoz diaqnozu qoyulub.**

Adalet.az xəbər verir ki, bu barədə Suriya KİV-ləri məlumat yayıb. "Suriya prezidenti Bəşər Əsədin həyat yoldaşı Əsmada bir sıra simptomlar və klinik əlamətlər aşkar edildikdən və bir sıra tibbi müayinə və müayinələrdən sonra ona kəskin miyeloid leykemiya diaqnozu qoyulub", - məlumatda deyilir.

Qeyd olunur ki, Suriyanın birinci xanımı sosial məsafəyə riayət edəcək və müvəqqəti olaraq ictimai tədbirlərdə iştirak etməyəcək.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Qazi sözünün işığında

**İstənilən söz adamı ilham pərisi ilə və yaxud dəftər- qələmi ilə baş-başa qalanda tamam fərqli bir dünyanın sakini olur. Necə deyərlər cismi yanımızda, ruhu göylərdə gəzib- dolaşır.Bu da təbiidir.Çünki söz ilahi bir incidir- Tanrı payıdır.Bu vergi də, bu pay da hər adama verilmir.Deyə bilərsiniz ki, yanılırsan. Axı bir şair xalqıq!**

Iradiniz haqlıdır.Lakin şair xalq o demək deyil ki, hamı şeir yazır.Hamı qələmlə, dəftərlə təmasda olur. Mən 100 faiz əminliklə deyirəm ki, Azərbaycanda insanların hamısının söz demək, fikir çatdırmaq qabliyyəti var. Ammma bu bir misra , üç cümlə səviyyəsindədir. Ona görə ki, millətin aid olduğu coğrafiya və təbiət ona o ilhamın çınqılarını, qığılcımlarını bağışlayır.Tutaq ki, gözəl bir ormanı görürsən, başı qarlı dağa baxırsan, şəlaləni seyr edirsən, dərə ağaşı axın edən dumanı izləyirsən...Yaxud da səhər - səhər şehli çəməndə lalənin, bənövşənin ətrindən bihuş olursan...Bax həmin an ağlından keçən söz misradır, şeirdir.Amma sənin üçün, çünki həmin anı sən yaşadın.Həmin ana da sən münasibətini bildirdin.!

Bütövlükdə isə çəməni vəsf etmək, çəməni tərifləmək, onun özəlliklərini oxucuya çatdırmaq artıq sənin şeir yaradıclığındır, söz sənətinin sahibi olmaq imkanının göstəricisidir.Bu artıq sənin vasitənlə hamıya çatdırılanda olur ŞEİR! Və olur HAMININ!

Bu dediklərim mənim özəl düşüncəmə aiddir...Öz yanaşmamın ifadəsidir.Ona görə də mükəmməl bir şeirin müəllifini şair sayıram.Beş cümləlik mükəmməl nəsrin müəllifini yazıçı sayıram.Və beləcə əvvəldə vurğuladığım şair xalqın içərisindən şairlər-yazıçılar çıxır ortaya.Hərəsi də öz sözünü yazır.Bu günlər stolüstü kitabım olan İmam Cəmillinin əsərlərini gözdən keçirmişəm.Həm şeirlərini oxumuşam, həm də nəsr əsərlərini. Düzdür, onun "Ədalət" qəzetində çap olunmuş yazılarından imzasını tanımışdım. Sonra redaksiyada görüşdük.Ancaq sözün əsl mənasında onu mənə dəyərli ruh qardaşım Fazil Sənan böyük sevgi ilə təqdim etdi. Və dedi ki, ay qağa, bu İmam həm yaxşı söz adamıdır, həm də mənim Gəncədə güvəndiyim, sirrimi - sözümü bölüşdüyüm kişilərin birincisidir.

Fazil Sənanın bu təqdimatı mənim biraz toparlanıb, İmam Cəmillinin yaradıcılığı ilə maraqlanmağa həvəsləndirdi. Başladım oxumağa..

Bir arayış verim, İman Cəmilli Qarabağ müharibəsinin qazisidir.Birinci Qarabağ savaşında o da "Vətən!" deyib, səngərə atılıb.Özünümüdafiə dəstələrindən başlayıb döyüş yol. Doğulduğu Cəmilli kəndinin, and yeri olan Kəlbəcərin uğrunda ölümün üstünə gedib. Köhnə kişilərin dediyi kimi əlində silah, ürəyində düşmənə nifrəti ifadə edən, bir- birindən maraqlı misralar, cümlələr...

Günlərin birində sağlamlıq durumu, həm də yaşı ilə bağlı ordudan təxris edildən sonra ürəyindəkiləri vərəqlərə köçürmək imkanı qazanıb. Bu gün də ürəyindəkiləri yazır İmam Cəmilli. Özü də çox sadə, necə deyərlər elə- oba dilində söhbət edəedə, göstərə- göstərə ..Bəzən pçıltı ilə, bəzən də qışqırtı ilə.

Mən onun poemaların oxuyanda mövzuları bir- birinin ardınca gedən durna qatarı olduğunu zənn etdim. Çnüki İmam Cəmilli "Ata", "Ana", "Məhəbbətin faciəsi", "Qərbi Azərbaycandan Qarabağa məktub", "Kəlbəcərdən gələn haray", "Xatirələr", "Ay Vətən", "Dərdin yaxşısı olmaz" v.s kimi poemalarda özünün bir oğul yanaşmasını, sevgisini, həm də bu oğlun günahlarıını da eturaf etməklə qələmə alıb.

Təbii ki, Azərbaycanda ataya, anaya həsr edilmiş şeirlər, qoşmalar və nəğmələr yüzlərlədi.

Onların hər birində də müəllif öz sevgisini hopdurub obraza. Məsələn, İ.Cəmilli yazır:

***Ata qeyrət rəmzi, qürur yeridir,***
***Sevginin, övladın həm sərhədidir.***
***Ata dəyanətim, sipər yerimdiir,***
***Ailədə Allahdır, Allahdan sonra.***




Diqqət yetirsəiniz sadə və hamımızın bildiyimiz sözlərdir.

Lakin biz onun belə bir qəlibdə, İmam Cəmillinin şeiri kimi oxuyuruq.Qazi şair bu sadə sözləri öz qələmi ilə şeir çevirib. Yaxud İ. Cəmilli yazır:

***Bu həyat dərsini almışam səndən,***
***İnciyən tapılmaz təmiz qəlbindən.***
***Həyata gözümü açdığım gündən,***
***Ömür uyuşduran mayamsan, ata.***

"Ata" poemasından gətirdiyim bu nümunələr bir oğulun atasına sevgisini, güvəncini, onun ölmü ilə vuruşmaq istəyinə yardımçı olmaq, lap elə birbaşa desək, qılınc götürüb yolunu kəsmək niyyətini də mərамını da tam şəkildə realaşdırmaq istəyir.. Özü də bunu şeirin dili ilə deyir.

"Ana"poemasındanda həmin duyğular misra-misra qanadlanır:

***"Necə çəkim şəklini,***
***Bənzədim sənin özünə.***
***Fırçamla nur- işıq verim,***
***Yaxşı görməyən gözünə.***

***Dərddən tərpədə bilmirəm,***
***Donub- qalıb əl- ayağım.***
***Necə yaradım əksini?***
***Ömürlük onunla qalım"***

Anaya üz tutub bir oğul sevgisi ilə onun ağrısını, acısını, yurd-yuvasından, öz əli ilə qurduğu yuvasndan didərgin düşməyi bədii sözə çevirən İ. Cəmilli folklorumuza da yaxşı bələddir. Çünki onun poemalarında yer verdiyi özünəməxsus bayatıları da dərhal diqqəti çəkir. Məsələn:

***Ürəyi vətən istər,***
***Geyməyə kətan istər,***
***Qərib ömrü boyunca,***
***Ölməyə vətən istər.***

Yaxud da:

***Anam hey vətən deyir,***
***Vətəndən ötən deyir,***
***Ay oğul, qismət ola,***
***Arzuma çatam deyir.***

Ümumiyyətlə, "Ana" poemasında şairin kövrək notları daha çoxdur. Bu da təbiidir.

Çünki analar özləri dözümlü olduqları qədər də, kövrəkdilər. Əgər hər birimiz öz anamızı, ümumiyyətlə valideynlərimizi düşünsək, onların övlad üçün hansı çətinliklərə sinə gərdikllərini, hansı od- alovdan keçdiklərini göz önünə gətirib, onlara nə qədər borclu olduğumuzu dərk etmiş olarıq. Və belə bir məqamda şairin öz- özünə pıçıldayırmış kimi dediyi kimi:



***Durna gedir, qatardasan***
***Ürəkdəsən, məzardasan?***
***Mən hardayam, sən hardasan?***
***Səni gəzir gözüm, ana.***
***Adım vətən, sözüm ana.***

Burda mütləq qeyd etməiyəm ki, 105 yaşında (amma gəlin ulu Məmməd Arazın məşhur misrasını unutmayaq: "Ana itirmişəm, ana yaşında"-Ə.M.)haqqa qovuşan ana üçün ürəyi təşnə olan oğlun sevgisi qarşısında baş əyir. Məncə məhz bu sevgi "Ana" poemasını dünyaya gətirib. Ana həm də vətən olduğu üçün şair onun qarşısında diz çökür, az qala üsyan edirmiş kimi deyir:

***"Millətimə çağırışım var birbaşa,***
***Dayanmışam altmışbeşlə baş-başa.***
***Mən köçəcəm, sən bütövləş min yaşa***
***Birləşməsək, olammasaq yenə tən***
***Məndən sənə oğul olmaz , ay vətən.***

Yaxud:

***Həqiqətin doğru üzü acıdır,***
***Zəmanəmiz ədalətin acıdır.***
***Qazi, şəhid haqsızlığa acıdı.***
***Vətənimdə budur bu gün görünən,***
***Məndən sənə oğul olmaz, ay vətən.***

Şair bu poemanı yurd həsrətimizin həmımızı dara çəkdiyi məqamda yazıb. Amma ürəyindəki ümidi, qisas məqamını bir an da olsa unutmayıbdı. Sanki o, böyük savaşın, 44 günlük müharibəmizin mütləq olacağın görürmüş.Ona görə də I Qarabağ savaşının acılarının içində qovrulmaqla, məğıubuyyətin acısının çəkdiyini də gizlətməyib.Açıq şəkildə bəyan edib ki, qisas qiyamətə qalmamalıdır.Qisas alınmalıdır.Çünki biz bu qisası almasaq, nə tarix, nə vətən, nə də övladlarımız bizi bağışlamaz. Ona görə də şair hər misrasında Kəlbəcərin özəlliklərini oxucu yaddaşında təzələyir. Şuşanın baş tacı olduğunu bəyan edir, vətənin dünənini, bu gününü və sabahını oxucu önünə çıxarır. İşğal olunmuş torpaqlarımızın hər qarşısına sevgisini, o torpaqlara daman şəhid qanının unudulmazlığını bizə diqtə edir.

Bəzi məqamlarda hətta, elə bil ki, o, Vətəni, Vətən övladına hansı sözlə sevdirməyin bilicisi kimi çıxış edir.Və mən də bir oxucu kimi onu dinləyir, onu oxuyur və ona qoşuluram.

Azxı hər kəs doğulduğu ocağı özünün yarısı hesab edir.Bu mənada şairin Cəmilli kəndinə yazdığı qoşması poemada xüsusi diqqəti çəkir. O yazır ki:

***Yaman göz qırılıbdı qeyrətin,***
***Halı tamam pərişandı ismətin,***
***Yeri yoxdur danışmağın, söhbətin,***
***yaşamaq da dərd- azardır, İlahi!***

Mən İman Cəmillinin poemalarıının bir ana xəttini diqqətə çatdırmaq istəyirəm . O da bir qazi övladın vətən sevgisidir. i.Cəmilli vətənin həm qazisidir, həm də aşiqid. Onu həm sevir, həm də uğrund döyüşür.Vətən yolunda çəkdiyi ağrı-açını da mərd- mərdanə çəkməyi boynunun haqqı bilir.Onun üçün dünyada dərdsiz insan olmadığı kimi, çəkilməyən də dərd yoxdur. O yazır ki,

***"Dərd var saman çöpüdür***
***Dərd var tuluq- tuluqdur.***

Yaxud:

***Dərd var çox, dərd də var az***
***Onsuzda bu dunyada***
***Dərdsiz insan tapılmaz!***

Deməli bütün hallarda bu vətən bizimdir.Və onun vətən daşı olmaq, bizim bprcumuzdur.Həmin borcu anlayanda biz artıq vətəndaş oluruq.Deməli İ.Cəmilli də bütün poemalarında özünün vətən daşı olması üçün oda- közə vurmasını gizlətmir. Bunu da mərd kişi kimi edir. Çünki o, vətənin qazisidr. Və bu qazi inanır ki vüsalın bayramı olduğu kimi, həsrətin də bayramı var. Bu bayram isə ocağına, yurduna qovuşduğun gün hesab olunur.Ona görə də böyük inamla dağlara üz tutur. Yazır ki,

***"Qoyma qəribsəyim aman günüdür,***
***Görüşünə mən gəlirəm, a dağlar.***
***Dizimdə gördüyün taqət qalmayıb,***
***Saçlarımda dən gəlirəm, a dağlar.***

***Ürəyimiz neçə illər oyulub,***
***Bağrım başı parçalanıb, soyulub.***
***Otuz illik həsrətə son qoyulub,***
***Sevinc boğur, şən gəlirəm, a dağlar.***

**Bəli, mən Qarabağ qazisinin, vətən sevdalı İ. Cəmillinin poemaları haqda bir oxucu kmi duyduğum, qəbul etdiyim bir şəkildə dünüşcələrimi sizinlə bölüşdüm. Demək istədim ki, bu gün yaşının yaddaqalan, diqqət çəkən məqamını yaşayan , yəni 70-nin əlin sıxan İmam Cəmilli deyir ki, o, hər yerdə Vətən axtarıb.Kəlbəcər soraqlayıb.Özü də yorulmadan usanmadan, həm də ümidllə axtarıb.Və nəhayət onun və bizim hamımızının ümidi böyük Zəfərlə reallığa çevrildi. Biz Şuşaya, Ağdama, Xocalıya, Zəngilana, Qubadlıya , Xocavəndə qayıtdıq. Bütövləşdik.İndi də Zəngəzurun haqqını almaq üçün birlikdəyik. Bax elə həmin birliyin işığında bir oxucu kim İmam Cəmilliyə, Sözünün yolu açıq olsun !-deyirəm. Düşünürəm ki, özü də sözü də hər kəsə açıq olan İ.Cəmilli bundan sonra da yazıb- yaradacaq və bizləri öz sözünün qonağı edəcək. Uğurlar sizə, İmam Cəmilli, qazi qardaşım!**

# Nizaməddin Şəmsizadə: "Mən xalqımla eyni səviyyədə yaşayıram"

*Əməkdar elm xadimi, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadənin yaradıcılığını son dövrlərdə izləyirəm. Zəng açıb ondan müsahibə almaq istəyində olduğumu bildirdim. Razılıq verdi.*

**- Nizaməddin müəllim, 2024-cü ilin sonunda 70 yaşınız tamam olacaq. 70 yaş sizin üçün nə deməkdir? Necə yaşayırsınız?**

- Əlbəttə, hər yaşın öz hikməti, öz fəlsəfəsi var. Həyatda hər adam bir az çox, bir az az müəyyən yaşa qədər yaşaya bilər. Mənalı yaşamaq çox çətindir. Mən xalqın səviyyəsinə uyğun yaşayıram. Kasıbla kasıbam. Varlı ilə varlıyam. Həyatım boyu öz şəxsiyyətimi və ailəmi qorudum. Var-dövlətə meyl etmədim. Həyatda şəxsiyyət olmayanın heç nəyi yoxdur. Bəlkə də buna görə bir çox insan məni çox sevir. Çünki bilirlər ki, iradəli, inadkar, istedadlı və zəhmətkeş şəxsiyyətəm. Bu gün Azərbaycan bütün dünyanın diqqət mərkəzindədir. Xüsusilə cənab prezidentin güclü diplomatiyası sayəsində Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Əlbəttə, bu, fərəh doğurur. Fəqət bilirsiniz ki, mən təqaüdə çıxmış adamam. Kamunal xərclərin, mağaza və bazarlarda ərzaqların qiymətinin həddindən artıq bahalılığı dövründə təqaüdçü adam necə yaşayırsa, mən də elə yaşayıram. Mən fəxr edirəm ki, qalib ölkənin xoşbəxt ziyalısıyam.

**- İnsanın müxtəlif yaş dövrlərində müxtəlif arzuları ola bilər. Məhz 70 yaşda sizin əsas arzunuz nədir?**

- Hörmətli Sevil xanım, əlbəttə, müxtəlif yaş dövrlərdə müxtəlif arzular ola bilər. Mənim əsas fikrim,məqsədim həyatda bu olub ki, boş yaşamayım. İlləri boşuna keçirməyim. Mən böyük zəhmətlə məqsədimə çatmaq uğrunda mübarizə aparmışam. Ən gənc yaşımda elmlər doktoru olmuşam.Hələ o rekordu təzələyən yoxdur. Otuz bir yaşımda doktorluq işini yazıb təfil vermişəm. Bu elə-belə iş deyil.1986-cı ildə Vorovik adlanan qəsəbədə kirayədə, 7 kv m olan otaqda üç qızım, yoldaşım və özüm yaşamışıq. Yayda o otağın pəncərəsinə kərtənkələlər sancılırdı.Qışda da həyətdəki mətbəx adlanan yerdə yoldaşım yemək bişirirdi. Onun ayaqları altından siçovullar qaçırdı. Mən hər zaman demişəm ki, həyatımın hər anı ailəmin səadəti və zəhmətindən aslı olub. 1986-cı ildə doktorluq işimi təfil verəndə məni baykot etdilər. Tək-tək dedilər ki, eladır. Müzakirə günü müzakirəyə gəlmədilər. Mən inciyib Moskovaya Dünya Ədəbiyyat İnstitutuna doktoranturaya getdim. Məndən əvvəl vəzifədə olanlar dedi: ”biz 50-60 yaşımızda doqtor olmuşuq. Sən 31 yaşında doqtor olmaq istəyirsən”. Ən böyük arzum Azərbaycanı bütöv görməkdir.Düzdü indi deyirlər ki, Azərbaycan sərhədləri bütövləşdi. Bu hələ yarım bütövdür. Əsl bütöv o vaxt olacaq ki,Azərbaycan Dərbəndən Borçalıya,Borçalıdan Kəngər körfəzinə,Təbrizə ,Ərdəbilə, oradan Göyçəyə qədər Azərbaycanın ərazisi bərpa olunsun.Milli ideologiyamız haqqında ”Azərbaycançılıq” kitabının 1996-cı ildə birinci variantını, 2006-cı ildə isə ikinci variantını yazdım. Orada bu məsələdən bəhs etmişəm. Bütöv Azərbaycanın tarixi xəritəsini də göstərmişəm. Məhşur ərəb alimi Təbərinin tarix kitabında yazılan xəritəni də ora əlavə etmişəm.

**- Siz ağır xəstəlikdən sonra 5 ildə 6 kitab çap etdirmisiniz. Bu enerji, belə möhkəm iradə hardandır?**

- 2015-ci ildə mənim Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 60, onda əvvəl isə 50 yaşım təntənə ilə qeyd olundu. Sonra 2016-cı ildə ağır xəstəlik keçirdim. Bu barədə ”həyatımda təlatümlər başladı” adlı müsahibə vermişəm. Hətta ailə üzvlərim yas yeri müəyyənləşdirmişdi. Mən üç dəfə axırıncı dəfə 4 gün olmaqla komada qalmışam. Hamı elə bilirdi ki, mən ölmüşəm. Bir gün saytın birində yazmışdılar ki, Nizaməddin Şəmsizadə vəfat edib. Həyat yoldaşıma zəng vurublar. O da deyib ki, bilmirəm,səhər dializə yola salmışam,gəlsin soruşum görüm vəfat edib ya etməyib?(gülür)

Xəstəlikdən sonra böyük inadla ”İdrakın üfüqləri”, ”Orta əsrlər Azərbaycan ədəbiyyatı”, ”Roman və tarix”, ”Estetik meyar və bədii mahiyyət” , ”Nəsimi və Füzuli”, ”Turan;tarixi gerçəklik və müasirlik” kitablarını çap etdirdim. Şeirlərdən ibarət ”dünya SÖZlə yarandı” və ədəbi məktublardan ibarət ”Sizə məktub yazıram” kitabı hazırda çap olunmaqdadır. Bu inad və enerji mənim şəxsiyyətimdədir. İnadkarlığı təbiət mənə öyrədib. Ağır şəraitdə yasayan dağ uşaqları çox dözümlü olur. Bizim əllərimiz soyuqdan donanda əllərimizi qarın içinə salırdıq. Məhşur fransız alimi İppolit Tenfelsəfəsidir. Yunanlara bağlı bir fikrində deyir: ”Yunanların iqlimi onların xarakterini müəyyənləşdirib”.Mənim fəlsəfəm isə belədir: İnsan yaşadığı cəmiyyətdən çox, doğulduğu təbiətə bənzəyir!

**- Müasir dövrü necə səciyyələndirsiniz?**

- Azərbaycan tarixində hələ indiki qədər Azərbaycan xalqının maraqlarının əhatə olunduğu dövr olmayıb. Nadir şahdan sonra biz heç vaxt torpaqlarımızı azad etməmişdik. İlk dəfə cənab prezident İlham Əliyev şəhidlərimizin canı,qazilərimizin qanı bahasına 30 illik işğaldan Azərbaycan torpaqlarını azad etdi. 44 günlük qələbəmiz təkcə bizim qələbə deyildi. Biz eyni zamanda bütün dünyanı erməni faşizimindən xilas etdik. Erməniləri yara kimi dünyanın sinəsindən qoparıb atdıq. Ona görə də bütün dünya bizə təşəkkür edir.Bir zamanlar ermənilərə arxa,dayaq olan Avropa, indi Azərbaycana üz tutur. Azərbaycanın gücünü yüksək səviyyədə qiymətləndirir. İndi biz Avropaya kömək edirik. Bu elə bir dövrdür. Bu il noyabr ayında Azərbaycanda COP29 konfransı keçiriləcək. Azərbayacnın nüfuzunu göstərən konfransdır. Mən kitabmda epiqraf vermişəm. Prezident inaqurasiya mərasimdə deyirdi ki, bizim ailəmiz türk dünyasıdır. Dünyada 40 adda türk milləti yaşayır. Halbuki bunun bir adı var. Türk. Çox qəribədir.Ermənilər bizə türk deyir,biz isə özümüzə Azərbaycanlı deyirik.

**- Dinlərə və milli dəyərlərə,Müasir düşüncəli alim, ziyalı kimi münasibətiniz?**

- Sevil xanım, mən dünyada olan bütün monoteisx,yəni, tək Allahlı dinlərə hörmət edirəm. Dörd səma kitabın qəbul edirəm. Bu Quran, İncil, Tövrat və Zəburdur. Davud peyğəmbərə göndərilən Zəburtapılmayıb. Mənim əqidəmə görə bir Allah var. Hamımız Adəm və Həvvanın övladlarıyıq. Bir Quranımız və bir dinimiz var. Məzhəb və təriqətləri cəfəngiyyat adlandırıram. Allah dinləri insanları idarə etmək üçün yaradıb.

Müasir gənc nəsli necə qiymətləndirirsiniz? Axı yaşlı nəsil özündən sonra gələnləri,yaxudəksinə, təzələr köhnələri bəyənmir.



2020-ci ilə qədər gəncliyə münasibətim çox dolaşıq idi. 2020-ci ilə qədər öz ənənələrini,ədəbiyyatlarını yaxşı bilməyən,Avropanın çaldığı havalarla oynayan bir gənclik hesab edirdim.Fəqət 2020-ci il sentybrın 27-də bu gənclər gülə-gülə şəhid olmağa getdilər. Gənclər özlərini təsdiq etdi. Başımızın tacı oldu. Ona görə də mənim gənclərə böyük ümidim var. Gəncliyi bəyənməyən yaşlı nəsil uduzur. Gənclik gözəllikdir. Hazırda yeni bir kitab üzərində işləyirəm. Təxminən 400-500 səifəlik kitabdır. ”Bizdən sonra gələnlərə”kitabını gənclər üçün yazmışam. Bir növ gənc nəsilə vəsiyyətimdir. Həyatımda başıma gələn maraqlı hadisələrdən nəticə çıxararaq fikirlərimi yazmışam. Onlara demirəm ki, dahi olun və ya qəhrəman olun. Qəhrəmanlıq haqqında hekayələr danışıram. Bir növ Nizaminin ”Sirlər Xəzinəsi” kimi bir əsər olacaq. Yunus Əmrənin yaxşı sözü var:”Biz dünyadan gedər olduq, gələnlərə salam olsun” .

**- Azərbaycanın gələcəyini necə görürsünüz? Piraritetlər hansılardı?**

- Qızım, Azərbaycan üçüncü intibah dövrün yaşayır. Azərbaycanın gələcəyi dünyada 40 adda yaşayan və düşmənlər tərəfindən bölünmüş vahid millət olan türk dünyası ilə bağlıdır. Türk Dövlətlər Təşkilatı gec-tez Turana aparacaq. Azərbaycanın gələcəyi Turanla bağlıdır.Bu gün bütün dünya dərk edib ki, Azərbaycana nə ermənisi,nə rusu, nə də farsı təzyiq edə bilməz. Çünki bilirlər ki, Azərbaycanın arxasında türk dünyası var. Azərbaycan dünyaya 16 imperiya vermiş türk aləminin bir hissəsidir. Azərbaycanın prioritetləri bunlarla bağlıdır. Azərbaycanın prioritetini o yerdə görürəm ki, Azərbaycan türk dünyasının birləşdirəcək və türk dünyasının rəhbəri olacaq. Necə ki, bir zamanlar Hun imperatoru Atilla onun rəhbəri idi. İlham Əliyevin Atilla olmağına az qalıb.

**- Nizaməddin müəllim, bir az da sizin sahədən ədəbiyyatdan və tənqiddən danışaq. Müasir ədəbi prosesi necə görürsünüz?**

- Ədəbi fəaliyyətimi 1976-cı ildən hesab edirəm. 1976-cı ildə Repressiyaya uğramış,qadağan olunmuş tənqidçi Əli Nazim haqqında 125 səifəlik diplom işi yazmışdım. Rəhmətlik türkoloq professor Fərhad Zeynalov var idi.Diplom işimi müdafiə edəndə dedi ki, sən də hamı kimi əlli səifə yaza bilməzdinmi?Rəhbərim Abbas Zamanov dedi: ”Yox, yox o yaza bilməzdi. Çünki o repressiya uğramış adam haqqında Moskovadan,Tibilisdən,Bakıdan material yığıb bu boyda əsər yazıb”. Müasir ədəbi proses bəzi istisnaları çıxmaq şərti ilə durğunluq keçirir. Dünənə qədər onların tapındığı ideallar Sovet ittifaqı ilə birlikdə puç oldu.Kominist, polşevik əqidəli yazıçılar artıq dəbdə deyil. Anar,Elçin, Əkrəm Əylisli və başqa yazıçılar 1960-ci ilin yazıçılarıdır. Mən onlar haqqında hər zaman demişəm. 1960-ci illərin yazıçıları parlaq ulduzlar idi. Fəqət onlar alçaq üfüqlərin parlaq ulduzları idi. Onların heç biri Lev Tolstoy, Hüqo,Balzak,Mirzə Cəlil, Axundzadə deyil. Ona görə də ədəbiyyatımız hələ özünü tapmayıb. Dörd yol ayrıcında dayanıb haradan getməsini bilməyən müdrik bir qocaya bənzəyir. Ədəbiyyatımız özünü axtarır. Çünki müstəqillik dövründən sonra ”ədəbiyyat necə olmalıdır?” sualına heç kim cavab verə bilməyib. Bizim başımıza 20 yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağ müharibəsi gəlib. Heç biri ədəbiyyatımızda Tolstoyun”Hərb və sülh” romanı səviyyəsində əksini tapmayıb. Çünki istedad yoxdur. Xalq şairi Nəriman Həsənzadənin şeirindən bir bənd demək istəyirəm.

***Tarix bizim olub,***
***Tarix yazan özgələr.***
***Tarixə düşməyibdir.***
***Bizim tarixi hünər***
***Bizim tarixi zəfər***

**- Bəs milli mədəniyyətimizə teatr, kino və tele aləmə necə baxırsınız?**

- Qısa deyim ki, müəyyən müğənnilərə hörmətlə yanaşıram. İnsanlar bu bahaçılıq mühitində çox darıxırlar. Müğənnilər hərdən gözəl nəğmələr oxuyub qəlbimizi sevindirir.Bu gün Azərbaycan Televiziyası istisna olmaqla hamsı reklama və şouya işləyir. Milli mentalitetimizə zidd olan reklamlara yer verilir. Fanaqrama ilə mahnı oxuyan adam əməkdar artist adı alır. Televiziyalarda bir zamanlar alimlər,ziyalılar çıxış edirdi. Özü də camaatın bu ziyalılara ehtiyacı var. İndi müğənni alimə ağıl öyrədir. Bu televiziyarəhbərləri unudurlar ki, televiziya onların şəxsi mülkiyyəti deyil. Televiziya ailələrə daxil olub mənəvi terror törətməklə məşğuldur. Əlbəttə, ifaçılıq mədəniyyətimizi təmsil edən ciddi müğənnilər də var. Məsələn, Arif Babayev,Mənsum İbrahimov, Qədir Məmmədov, Təyyar Bayramov, Niyaməddin Musayev,Mirələm Mirələmov, Zeynəb Xanlarova, Zülfiyyə Xanbabayeva, Kamilə Nəbiyeva, Nigar Şabanovavə başqalarını misal göstərmək olar. Fanoqrama ilə iki mahnı oxuyan( bəlkə də özü oxumur.Sadəcə ağzını açır-yumur) şit və yüngül aparıcılar tərəfindən ”sənətkar” mahnılar ”əsər” adlanır. Özləri məzmunsuz sözlər yazıb, mənasız ”mahnılar” ifa edirlər.

**Müsahibəni aldı:**
**Sevil Akifqızı (Əliyeva)**

## *Fitsoya sui-qəsdə Rusiyanı günahlandırmaq istəyirlər..?*

**Britaniyanın The Times mətbu orqanının xüsusi müxbiri Piter Konradi yazdığı məqalədə hesab edir ki, Slovakiya hökumətinin sədri Robert Futsoya sui-qəsdin ardında Rusiya dayanıb.**

Rusiyanın xarici işlər nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova, xüsusi müxbirin bu ittihamlarını cinayətkar ağılsızlıq olduğunu bəyan edib.

Xatırladırıq ki, Slovakiyanın baş naziri mayın 15-də nazirlər kabinetinin iclasından çıxarkən sui-qəsdə məruz qalıb. Levitse şəhərindən olan Yuray Ts. adlı, 71 yaşlı bir kişi onu bir neçə güllə ilə vurub. Cinayəti törədən kişi həbs edilib. Aldığı güllə yaraları alan baş nazir ağır vəziyyətdə qospitala yerləşdirilib. Ona edilən tibbi əməliyyat zamanı həkimlər Fitsonu süni koma vəziyyətinə salmaq məcburiyyətində aalıblar. Mayın 16-sı səhəri, həkimlər onun vəziyyətinin stabil olduğunu bildiriblər. Slovakiya daxili işlər naziri Matuş Şutay-Eştok bildirib ki, hadisəni törədən şəxs sui-qəsdi siyasi motivlərə görə törətdiyini etiraf edib. Fitso son vaxtlar çıxışlarında NATO-nu tənqid edərək, Qərbin Ukrayna ilə bağlı apardığı siyasəti tənqid edirdi. O, Kiyevə silah-sursat verilməsinin heç də uyğun qərar olmadığını bildirirdi. Baş nazir, həmçinin Ukraynanın NATO-ya qəbul olunması ilə bağlı heç bir sənədi imzalamayacaqlarını bəyan edirdi. Belə götürəndə, Slovakiyanın baş nazirinə qarşı sui-qəsdin törədilməsində, əslində Rusiyadan daha çox Qərb maraqlı ola bilərdi. Necə deyəylər ”oğru elə bağırır ki, doğrunun bağrı yarılır”.

**Rüstəm Hacıyev**

## *Avropa Saakaşvilidən imtina etdi*

**Avropa İnsan Haqları Məhkəməsi Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin iki şikayətini tamamilə rədd edib.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, eks-prezident ölkənin hazırkı hakimiyyətini siyasi motivlərlə təqib etməkdə ittiham edir və şikayətlər də bununla bağlı olub. Dərc edilmiş qərarda göstərilir ki, Saakaşvili 2018-ci il yanvarın 5-də və iyunun 28-də ona qarşı çıxarılan hökmlərin ”təsdiqlənməmiş şayiələrə və digər etibarsız sübutlara əsaslandığını” iddia edib.

Eyni zamanda o, hesab edir ki, onun işinə baxan hakim müstəqillik və qərəzsizlik meyarlarına cavab verməyib.

# KAMALƏ ABİYEVA QURBANƏLİ QULUZADƏDƏN YAZDI

**Onun haqqında məlumat toplamağa çalışıram. Müxtəlif xəbərləri oxuyuram: Azərbaycan Silahlı Qüvvələrinin əsgəri. İkinci Qarabağ savaşının şəhidi.**

Torpaq azadlığı, ərazi bütövlüyü uğrunda savaşmaq, şəhid olmaq qürurvericidi.Həm də ağrılıdı. Müharibə səbəbkarlarını lənətləyirsən. Müharibənin aldığı canlar sarsıdır bütün varlığını.

2001-ci il 25 iyunda Bakının Binə qəsəbəsində dünyaya gəlib Qurbanəli Elşad oğlu. Ailənin ilki olub. Uşaqlıqdan yunan-roma güləş növü ilə məşğul olub. Şeir yazıb.

Binə qəsəbəsində Birinci savaşın şəhidləri Rasim Sadıxov adına 136 və Əmirəhməd Quliyev adına 121 nömrəli məktəbdə oxuyub.

Xuraman Cəfərova 136 nömrəli məktəbdə Qurbanəliyə dərs deyən müəllimlərdən biridir: İllərdir məzunu olduğum məktəbdə işləyirəm. Yüzlərlə məzunum olub. Qurbanəli müəllimlərin yaddaşında qalan, sevilən şagirdlərdən olub. Çox sakit, mədəni, təhsilə önəm verən, müəllim adını uca tutan bir ailədə böyüyüb. Özü də elə idi: sakit, mədəni, çalışqan, dürüst. Onda bir kobud hərəkət görmədim illər ərzində. Üzündə nur vardı. Həmişə o nurlu simasını xatırlayıram. Müəllimin də, xalqın da sərvəti Qurbanəli kimi oğullardır.

Sinif rəhbərinin qəfil ölümündən sarsılan Qurbanəli məktəbini dəyişir.

121 nömrəli məktəbdə də şagird kimi kollektivin hörmətini qazanır. Onun haqqında bütün müəllimləri, dostları danışmaq istəyirdi. Uşaq birliyinin rəhbəri Sevda Əliyeva kövrəlir: Qurbanəli hamımızın sevimlisi idi. Şeir yazırdı. Utancaq olsa da, son zəngdə bədahətən şeir deməyini unutmuram. O, bizim fəxrimiz olub həmişə. Təşkilatcı Elnarə Kərimova, psixoloq Samirə Rzayeva danışdıqca Qurbanəli Quluzadəni görürdüm elə bil: sevimli, məsuliyyətli, mədəni, diqqətli, çalışqan...

121 nömrəli məktəbdə Qurbanəlinin sinif rəhbəri olan **Əvəz Rüstəmov** Birinci Qarabağ savaşının iştirakçısı olub. Könüllü özünümüdafiə batalyonunda döyüşüb. 1994-cü ildə tərxis olunandan bu günə kimi müəllim işləyir. Vətənpərvər şagirdlər yetişdirib. Onların çağırışaqədərki hərbi hazırlığına xüsusi diqqət yetirir. Ona görə məzunları həqiqi hərbi xidmət zamanı həmişə fərqlənir, təşəkkürnamələr alırlar: 1991-94-də döyüşlərdə olmuşam. Bütün hadisələrin, çətinliklərin canlı şahidi olsam da, məğlub kimi yaşamaq ağır gəlirdi. Özümü günahkar bilirdim. Tez-tez bu haqda danışardıq. Şagird gündəliklərində olan qara işğal tarixlərinə baxa bilmirdim. Çox çətin idi. Bunları hiss edirdi Qurbanəli. "Müəllim, narahat olma, o torpaqları biz azad edəcəyik"-deyirdi əminliklə. Səsində, özündə bir inam vardı. O torpaqları azad etməliydik. Şagirdlərimi də, öz övladlarımı da buna hazırlayırdım. İki oğlum da İkinci Qarabağ savaşına yollandı. O da buna hazır idi. Onun qələbəyə inamı məlhəm kimiydi, məlhəm də oldu.



27 sentyabr 2020-ci ildə savaş başlayanda Qurbanəlinin həqiqi hərbi xidmətindən bir il ötürdü. Xidmətə gedəndə "Torpaqları azad etməyə gedirəm" demişdi doğmalarına. Hiss etmişdi qalib olacağını. Füzuli, Cəbrayıl, Hadrutun azadlığı uğrunda döyüşlərdən keçdi igid əsgərimiz. 21 oktyabrda Xocavəndin azadlığı uğrunda gedən ağır döyüşlərdə aldığı qəlpə yarasından şəhid oldu.

**Elşad Quluzadə:** Oğlum sanki müharibə olacağını bilirdi. Əsgər getmədən "torpaqları biz azad edəcəyik" deyərdi. Arada zəngləşirdik. Müharibə başlayanda heç nə bildirmədi. Son danışıqlarımızda elə halallıq istəyirdi. Öz özümə sual verirəm ki, o niyə bizdən halallıq istəyirdi? Biz ondan halallıq istəməliyik. Nə deyim? Təki şəhidlərimiz bizə halallıq versin. Təki Qurbanəli kimi bu vətəni düşmənlərdən qoruyan oğullarımız çox olsun.

**Əmisi Xeybər**in sözlərinə görə Qurbanəli əsgər getməyini gözləyirdi, hazırlaşırdı. Tez-tez "Əmi, mən əsgər gedim, erməniləri torpaqlarımızdan çıxaracayıq"- deyirmiş əmisinə: Bilmirəm, hardan idi bu hiss onda? Müharibə başlayanda da qələbəyə əminliklə danışardı. Deyirdim ki, onları qoymayın bir addım da qabağa gəlsinlər. "İrəli nədir? Biz irəli gedirik, bir qarış da geri çəkilmirik. Hər qarış torpağımızı da azad edəcəyik"-belə olurdu cavabı.



**Quluzadə Sahib:** İndi yanımızda deyil qardaşım, çətindi. Amma mən onun qələbə sevincli, qürurlu səsini eşidirəm elə bil. Hərbi xidmət zamanı da, müharibədə də deyirdi ki, ələyam. "Bütün torpaqları azad edəcəyik" - sözü bu idi.. Gedişim kimi dönüşüm də olacaq, amma qalib kimi. Qalib oldu. Onun yaşadığı qürur güc verir bizə. Ordumuz həmişə belə güclü olsun. Heç vaxt məğlub olmayaq.Ən böyük arzum budur.

Şəhidlər haqqında yazanda dostları, döyüş yoldaşları, müəllimləri, ailə üzvləri ilə söhbətləşməli olursan. Asan olmur. Ən çətini anaları. Nə deyəcəyini, söhbətə necə başlayacağını bilmirsən.

**Elmira xanım:** Çox sakit, sevimli idi oğlum, bir başqaydı. Hamıya yaxşılıq etmək istəyirdi. Orta təhsilini başa vurandan sonra ali təhsil almaq istəyirdi. Sonra qərar verdi ki, əsgər gedim, gələndən sonra oxuyaram. Həqiqi hərbi xidmətini Qusarda keçirdi . O zamandan fərqlənmişdi. Komandirləri də razı idi, tərifləyirdilər həmişə. Fəxri-fərmanlar almışdı. Müharibədə olduğunu da demədi, "təlimdəyik" dedi. Torpaqların azad olunmasını çox istəyirdi. Mübariz İbrahimov onun üçün nümunəydi. Qarabağ hadisələri, Xocalı faciəsi ilə barışa bilmirdi. Elə bil bu savaşa hazırlaşırdı. Dostları da qəhrəmanlıqlarından çox danışır.

**Həsən Ələkbər oğlu Quliyev** 44 günlük savaşın iştirakçısıdır: Bir var müharibə haqqında eşidirsən, filmlərə baxırsan, bir də var müharibədəsən. Elə olurdu addım-addım irəliləyirdik. Ölümün gözünə baxa-baxa qorxmursan heç. 21 oktyabr ağır gün idi. "X" təpəsini almalıydıq. Axşam 9-10 arası yola çıxdıq. Hava dumanlı idi. 5 addım irəlini görmək olmurdu. Bir-birimizin çiynindən tutub irəliləyirdik. İstiqamətdən yayınmışdıq. Yolumuzu tapmalıydıq. Tapşırığı yerinə yetirməliydik. Durmadan yol gedirdik. Səhərə yaxın bir az dincəlmək qərara alındı. Bir ev tapdıq. Ermənilər D30 topu ilə bizi vurmağa başladı. Ağır döyüş oldu. Yaralılarımız, şəhidlərimiz oldu. Qubadan olan yaxın dostum Əliyev Həmzə də, Qurbanəli də həmin gün şəhid oldu. Özümə gələ bilmirdim. Orda bir günün döyüş dostunu on ilin dostundan daha yaxşı tanıyırsan, daha doğma olur.

Susuzluqdan əziyyət çəkəndə son bir udum suyunu sənə verən Qurbanəli kimi döyüş dostunu necə unutmaq olar? Onları itirmək çox ağırdı. Qalib olmağımız bu ağrıları yaşamağa kömək edir.Şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı diləyirəm.

Qurbanəli Quluzadə Azərbaycan prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəxsi şücaəti və igidliyinə görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Oğul gedib. Can gedib. Oğul yarası ağlayır. Can yarası ağrıyır. Göz yaşının, bu ağrının məlhəmi əsir torpaqların azadlıq nəfəsidir. Təltifləri düşünürsən: Cəbrayılın, Qubadlının, Füzulinin, Xocavəndin, Şuşanın azadlığına görə. "Vətən uğrunda" "İgidliyə görə" təltif olunmaq ləyaqətli, məğrur olmaqdı, uca olmaq, ucada olmaqdı. Belə yaşamaq da var. Qurbanəlilər də ləyaqəti, məğrurluğu ilə ucadılar. Ucadadılar!**

---

# Gözəllikdən xoşbəxtliyə...



*Göyərçin Kərimi,*
*AYB-nin üzvü*

**Uzaqda olanı yaxınlaşdırmaq diləyilə kompyuterin arxasına keçirəm. Gözəlliyin rəngini seçirəm: rəngsizlik.**

İnsan öz ömrünün başlanğıcıdır; həm irəli, həm geri, həm sağa-sola, həm də yuxarı-aşağı hərəkət edə bilər. Bu mənada onun dayandığı nöqtə də özü üçün başlanğıcdır.

Geriyə-irəliyə, sağa-sola hərəkətlər istənilən kimsəyə məxsus cəhətlərdir, amma yuxarı, yaxud aşağı istiqamət artıq insandan xüsusi qabiliyyət tələb edir.

Sonuncular, həm hissi idrakın açdığı cığırlar, həm də insani üstünlüyün ali dərəcəsini təmsil edən daşıyıcı vasitələr hesabına gerçəkləşir. Hissi idrakın açdığı cığırlar gerçək aləmin hadisələri olduğu qədər sadə rekvizitiv göstəricilər hesab edilsə də, ali idrakın münasibətlərə qoşulması yeni dünyanın başlanğıcından xəbər verir. Bu nəyə bənzəyir?

Düşünən varlıq zaman nöqteyi-nəzərindən həmişə irəliyə doğru gedir, geriyə yolu yoxdur. Bəs o, keçmişi necə qavrayır? O, keçmişi müxtəlif mənbələr: illüstrasiyalar, xatirə-memorial kompleksləri, təsvirlər, qravürlər, məqalələr, xəritələr, qələmə alınmış tarixi proseslər vasitəsilə öyrənir. Tarixin öyrənilməsi artıq canlı proses hesab olunmur.

Ali idrakın münasibətlərə qoşulması da fiziki görünüş cəhətdən hadisələrə canlılıq bəxş edə bilmir. Tarixin öyrənilməsilə ali idraka keçid mərhələsi əsərsizlik, hərəkətsizlik baxımından bir-birinə bənzəsə də, birinci davamiyyət mənada sonlu, ikinci, əksinə, sonsuzdur.

Əgər tarix hadisələrin nəzəri cəhətdən təkrarlanmasıdırsa, ali idrak qaranlıqları pillə-pillə özü dəf edir, daha doğrusu, öz yolunun işıqlatıcı qüvvəsi özü olur. Yəni birinci hadisə əyani vasitələr hesabına araşdırılır, lakin ikincinin əyani vəsaiti yoxdur və onun qismətinə oxşarlıq, bənzərlik kimi müqayisələr yazılmamışdır. Ali idrak sahibi insan məsafəni təkrarsız yolla təkbaşına qət edir.

Yer yuvarlaq olmasaydı, varlığın başlanğıc nöqtədən geriyə hərəkəti mümkün olmazdı.

Əlbəttə, biz aşağı-yuxarı deyəndə iplə quyuya sallanmağı, yaxud Qaqarinin fəth etdiyi yüksəkliyi nəzərdə tutmuruq; nəhayətsiz dərinliklərlə sonsuz yüksəkliklərin bir-birinə qarışdığı əlçatmaz rahatlıqdan, ilahi zövqdən - gözəlliyin gözəlliyindən bəhs edirik.

Gözəllik nədir? Gözəllik zövq mənbəyidir; görünən, görünməyən cəhətləri var. Görünən gözəllik vizual, yəni həm adi göz, həm də xüsusi cihazlar vasitəsilə müşahidə olunur, görünməyən gözəlliyin termin olaraq eyni mənanı verməyən iki nəzəri tədqiqat sahəsi var.

Onlardan biri düşünən varlığın mənəvi gözəlliyidir ki, ali idrakın hiss etdikləri bu mənada deyildir, çünki istənilən insanın mənəviyyatı vardır. Mənəviyyat məsələsi etikanın bölməsi olaraq fərqli varlıqlarda müxtəlif faiz nisbətinə malikdir və həyat tərzindən, cəmiyyətdəki mövqedən asılı olaraq dəyişir.

Varlığın mənəvi keyfiyyətləri stabil olmadığı üçün insanların bu mövzuda dəyərləndirilməsi də mütləq səciyyə daşımır. Mənəviyyatın ölçü vahidi insan vicdanıdır. Vicdan əxlaqi dəyərlərin məcmuudur. Cəmiyyətin idarəçiliyi, bir mənalı şəkildə, insan tələbatının vicdanlı dəyərləndirilməsindən asılıdır.

Deməli gerçək dünyanın aparıcı amili cəmiyyətin vicdan nisbətidir ki, həm dağıdıcı, həm də qurucu təsirə malikdir.

Əgər insan öz arzularını həyata keçirmək üçün ağlının imkanlarından eninə-boluna istifadə etməsə, özünün beş inəkli olmasından ötrü qonşunun bir inəyini onun əlindən zorla, yaxud oğurluq yolu ilə almasa, mənəviyyat həmişə gözəldir.

Mənəviyyat məsələsi güllə yarası almış itin zingiltisinə dözməyərək siqaret tüstülədəcək qədər kövrəlmək deyil, mövcud şəraiti idarə etmək baxımından həqiqətə son dərəcə yaxınlaşmaq bacarığıdır. Müşahidəçi qarşı tərəfi öz qəlbinin aynasına baxırmış kimi seyr etdiyindən bu məsələdə əsas rolu hissiyyat, yəni birinin digərini hiss etməsi deyil də, insan əməllərinin təzahürü oynayır. Özü görünməsə də, görünən hadisələrdə təzahür olunduğuna görə mənəviyyatı vücudu ələ gəlməyən gözəlliklə eyniləşdirmək olmaz.

**Bəs vücudu ələ gəlməyən gözəllik nədir? Vücudu ələ gəlməyən gözəllik ali idrakın ideyaların ən yüksək pilləsilə uyğunluq təşkil etməsidir.**

Vücudu ələ gəlməyən gözəllik izah olunma nöqteyi-nəzərindən bir qədər çətin mövzudur. Bu, hadisələrin metafiziki dərk olunmasıdır ki, insan öz dayandığı yeri kainatın ən uca nöqtəsi hesab edir və maddi, fiziki olan heç nəyə qarşı meyilli olmur.

Ən yüksək nöqtədə qərar tutan insan məkansız olduğu qədər də zamansızdır. Məkan olmayan yerdə zaman nəyi ölçsün?!

(ardı 12-ci səhifədə)

# Bir ömrün halallıq simfoniyası

## El ağsaqqalı Sabir Xammədovun 75 illiyinə

**İnsanın bir şəxsiyyət kimi əsl dəyəri onun kamilliyi ilə ölçülür. Böyük Nizami Gəncəvi də bu kefiyyəti hər cür yarımçıqlıqdan uca tutub. Davranışları insanpərvərliklə yoğrulanlar yaşadıqları ömrü bada vermir, el-oba arasında hörmət-izzət sahibi olurlar. Onlardan biri də ömrünün 75-ci baharını yaşayan Sabir Yaqub oğlu Xammədovdur.**

1949-cu ilin mayın 19-da Biləsuvar rayonunda sadə, zəhmətkeş ailədə dünyaya göz açan Sabir Xammədovu tale uşaq yaşlarından müstəsna bir yolun yolçusu olmağa qərar vermişdi. Amma bu yol ağrı-acısız ötüşmür. O, 13 yaşında ikən atasını itirir. Bundan sonra gənc Sabir özündən böyük müəllim qardaşının himayəsində böyüyür. Sonralar həyat Sabir müəllimi vəzifələrlə də, sərvətlə də imtahana çəkib, amma onu insanpərvərliyindən, həssaslığından uzaqlaşdıra bilməyib. Rahatlığı el-oba üçün çalışmaqda, savab işləri ilə adamlara könül xoşluğu bəxş etməkdə görüb həmişə. Elə buna görə də indi - vəzifə, mənsəb atından düşəndən xeyli sonra da el içində alnı açıq gəzir, etdiyi xeyirxahlıqlar qədirbilənliklə xatırlanır.

Peşəsi müəllimlik olmayıb onun. Amma qazandığı xətir-hörmət sayəsində "Sabir müəllim" deyə çağrılır. Ömür yolunu vərəqlədikcə zəhmətlə yoğrulan, mübarizələrlə mətnləşən əzəmətli bir həyatın şahidi olursan. Yaşının kamillik çağındadır, deyir ki, qocalıq müdrikliyə gedən yolun zivəsidir, bu zivədən keçmişə boylandıqca fərəhlənə bilirsənsə, deməli, hədər yaşamamısan. "Vəzifələrdə olan zaman hər hansı qərarı verərkən vicdanımla hesablaşdım və bu gün səlahiyyət sahibi olduğum illərlə fəxr edirəm, gözüm kölgəli deyil".

Müstəqillik dönəmimizdə Biləsuvar Rayon İcra Hakimiyyətinin ilk başçısı olub. Həmin dövrədək də rayona rəhbərliyi keçmiş sovetlər birliyinin rayon partiya komitəsinin 1-ci katibi olaraq edib. Sabir müəllim Kənd Təsərrüfatı institutunu baytarlıq ixtisası üzrə bitirdikdən sonra - 1971-ci ildən kolxozda əmək fəaliyyətinə başlayıb.Elə o vaxtdan, necə deyərlər, özünü əsl təsərrüfat adamı kimi göstərə bilib. Çalışdığı "Əzizbəyov" adına kolxozunun fermasında mal-qara arasında kəskinləşən ölüm hallarına qarşı düz 8 il çırmanıb mübarizə aparıb. İşinə sevgisi və məsuliyyət hissi sayəsində uğura nail olub. Partiya sıralarına qəbul edilib və kənd sovetində gənc deputat kimi təmsil olunub. O, fəaliyyət göstərdiyi həmin dövrlərdə iki dəfə kənd sovetinin, dörd dəfə rayon sovetinin və bir dəfə Azərbaycan Respublikası Ali sovetinin deputatı seçilib.

Ötən əsrin 80-ci illərində Azərbaycanın kolxoz və sovxoz təsərrüfatları heyvandarlıq və quşçuluğun inkişafı dövrünü yaşayıb. Ayr-ayrı təsərrfatlarda araşdırmalar



aparılarkən Sabir Xammədovun təcrübəsi qiymətləndirilib və o bundan sonra rayonun baş baytarı vəzifəsinə irəli çəkilib. Ardınca isə düzgünlüyü, prinsipiallığı, bilik və bacarığından irəli gələn keyfiyyətləri əsas götürülərək, rayon Xalq nəzarəti komitəsinin rəhbərliyinə



irəli çəkilib. Bu vəzifənin 10 illik uğurlu icrasından sonra, daha yüksək kürsüyə- partiya komitəsinin 1-ci katibliyinə yüksəlib.

1990-cı illərin əvvəllərində müstəqilliyə doğru inamla addımlayan ölkəmizdə keçid dövrünün ciddi problemləri, müharibənin alovlanması, siyasi hərcmərclik idarəetməni xeyli çətinləşdirir. Belə bir şəraitdə Sabir Xammədov rayonun kənd təsərrüfatında gerilənmənin aradan qaldırılmasını ciddi nəzarətə götürür. Bilir ki, məhsul istehsalında yaranan durğunluq qısa zamanda aradan qaldırılmasa, bir müddət sonra sosial problemlərin miqyası genişlənəcək. ölkədə anarxiyanın baş alıb getdiyi 1990-1992-cı illərdə məhz onun gözütoxluqla, halallıqla, bir çoxlarınan fərqli olaraq, fürsətcillik etmədən həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində,rayonda taxıl istehsalı ilk dəfə 47 min tona çatdırılır. Pambıqçılıqda iki il ardıcıl olaraq, dövlət planı ilk sırada yer alır. Bunun üçün, çətin suvarma şəraiti olan Biləsuvarda (keçmiş Puşkin) 15-ə yaxın yeni nasos stansiyası istismara verilir. İlk dəfə, çəltikçiçiliyin inkişafı üçün Çindən mütəxəssislər dəvət olunur... Beləcə, təsərrüfat həyatında dönüş yaranır.

O, rayona rəhbərlik etdiyi illərdə təhsil, səhiyyə, mədəniyyət və xidmət təşkilatlarının mükəmməl fəaliyyəti üçün aidiyyatı dövlət qurumlarına ünvanladığı 100-dən çox müraciətində cəsarətli tələblər irəli sürüb. Biləsuvardakı bir çox məktəblər üçün yeni binaların tikintisi həmin böhranlı günlərdən yadigardır. Rayonda bu gün də aktuallığını itirməyən, yerli xammala əsaslanan istehsalyönümlü lahiyələrin reallaşdırılması da Sabir müəllimin ən ümdə arzu və istəklərindən idi. Qısa müddətdə bu da əlçatan olub. O, həm də Biləsuvar dolama avtomobil yolunun, dəmir yolu xəttinin çəkilməsi ilə bağlı layihə-smeta sənədlərinin hazırlanmasına nail olub həmin dövrdə. Ən ümdə arzularından biri pambıqəyirici sexinin tikintisi idi. Onun da bünövrəsini Sabir müəllim qoymuş, toxucu fabrikin ilk sexinin Səmədabad kəndində açılışına nail olmuşdur.

1990-cı illərin əvvələrində onunla rayonun idarəetməsində çalışan, ağsaqqal Akif Kazımovun dedikləri:

- Sabir Xammədovun rayona rəhbərlik etməsi çox çətin dövrə təsadüf edib. Bildiyimiz kimi, həmin illər ölkəmizdə içtimai-siyasi sabitlik qeyr-qənaətbəxş olduğundan, idarəçilik xeyli çətin olub. Buna baxmayaraq Sabir müəllimin zəngin təcrübəsi, fərdi idaretmə bacarığı sayəsində bir çox problemləryoluna qoyulub. 1991-cı ildə Mərkəzi Komitənin katibi ilə görüşdən sonra Biləsuvar Gömrükxanasının yaradılmasına da o nail oldu. Özünü deyil, camaatı düşünən adam kimi tanınıb bizim Sabir müəllim.

Bəli, insanın öz eli, obası qarşısında göstərdiyi xidmətlərinin ən böyük mükafatı qəlblərdə özünə taxt-tac qurmasıdır.

Bütün fəaliyyətində, xidmətlərində əsl vətəndaşlıq yanğısı ilə çalışan, yaşayan Sabir Xammədov məhz bütün şüurlu ömrünü dövlətçiliyimizə, doğma rayonunun tərəqqisinə həsr edib. Sabir müəllim "Soruşma Vətən sənin üçün nə edib, özündən soruş ki, Vətənin üçün nə edə bilmisən?" -şüarı ilə yaşayıb, yaradıb. İllərini mövcud problemlərin aradan qaldırılmasına sərf edib. Dövlətçiliyə, xalqa ürəkdən bağlılıq bu insanın qəlbinin dəriliyindən süzülüb gələn həyat qayəsidir desək, yanılmarıq...

Deyir ki, doğma Biləsuvarın adı ilə bağlı nə varsa, bizim adımızdır. Çalışmalıyıq ki, fəaliyyət göstərdiyimiz sahədə insanlıq hər zaman uca mərtəbədə dayansın. Xeyirxahlıq, təəssübkeşlik, mərhəmət ən ali məqsədimiz olmalıdır!

Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri 12 dekabr 1999-cu ildə keçirilərkən Biləsuvar özünüidarə orqanına məhz belə bir əqidəsi, zəngin idarəçilik təcrübəsi olan, əhalinin qayğılarını dərindən bilən Sabir müəllimin üzv kimi namizədliyi mütəşəkkilliklə irəli sürüldü. Sonradan oradakı məhsuldar fəaliyyəti ilə özünü təsdiqləyən S. Xammədov bələdiyyədə sədr müavini və sədr vəzifəsinədək yüksəldi.

Bu illər ərzində özünü son dərəcə bacarıqlı təşkilatçı və qayğıkeş rəhbər kimi tanıtdı o. Başqa cür ola da bilməzdi. Axı, özünün dediyi kimi, bu xalq, cəmiyyət elə onun öz ailəsidir. Ailə isə yalnız səmimiyyətin və fədakarlığın ahəngdar birliyi təqdirində yüksəlməyə və uzun ömür yaşamağa qadirdir. Ailədən söz açmışkən, Sabir müəllim həm də gözəl ailə başçısıdır. Ömür-gün yoldaşı Svetlana xanımla əl-ələ, nəfəs-nəfəsə 4 qız, 1 oğul böyüdüb boya-başa çatdırıblar. Övladların ali təhsil alması üçün də valideyn borclarını yerinə yetirblər. İndi onlar həm də övladlarının barı-bəhəri ilə öyünür, nəfəs alırlar. 11 nəvənin sevimli babası, nənəsidir, Sabir müəllimlə Svetlana xanım..

Yaşadığı cəmiyyətdə hörmət, nüfuz sahibi olan dəyərli Sabir müəllim ömrünün saf havalı kamillik zirvəsinə gəlib çatıb. Burada rahat nəfəs ala bilirsə, deməli, xoşbəxt insandır.

Çünki o, böyük həyat təcrübəsi, nəcib davranışları, yüksək mədəniyyəti, sadəliyi ilə hamının hörmətini qazanıb. Ələlxüsus ötən illər ərzində özünün bir xarakterik cəhətinə sadiq qalıb: onu əhatə edən sosial mühitdəki dəyişikliklərdən, bəzən də özünə qarşı olan diqqətsizlikdən, laqeydlikdən asılı olmayaraq, həmişə ləyaqətini, ədalət hissini qoruya bilib. İnsana şərəflə yaşanan bir ömür də kifayətdir, - deyib həmişə. Sabir Xammədov məhz belə bir ömür yaşayır.

**Mənalı ömrün daha da uzun olsun, ağsaqqal!**

Surxay ŞAHBAZOV,
jurnalist

**Türkiyənin gözəl Ege sahilində maraqla gözlənilən yay mövsümü başladı. Bu mənzərəli və füsunkar sahil marşrutu boyunca istirahət etməyi düşünün. Ayvalıkdan Datçaya qədər uzanan ərazidə mavi və yaşıl mənzərələr, təmiz çimərliklər, tarixi yerlər, təzə dəniz məhsulları, ləzzətli zeytunyağlı yeməklər və yerli Ege şərabları tapa bilərsiniz.**

### *Şimali Egenin gözəlliyi: Ayvalık*

Kristal suları, ecazkar mənzərələri, tarixi binaları və ləzzətli Ege üslublu yeməkləri ilə tanınan Ayvalık, dincəlmək üçün ideal şərait yaradır. Səhərinizi Ayvalık tostunun dadlı səhər yeməyi ilə başlaya və Sarımsaklıda və ya Altınova Sahili, Patriça Körfəzi və ya Ortunç Körfəzi boyunca gününüzü çimərlikdə keçirə bilərsiniz. Bu füsunkar rayon olan Ayvalıkda çoxəsrlik küçələri araşdıra, bölgənin məşhur pendirlərini, dəniz məhsullarını, otlarını dada, rakı və ya yerli şərabını yoxlaya bilərsiniz. Möhtəşəm gün batımı mənzərələrini görmək üçünŞeytan Sofrasına (Şeytan Bayramı) baş çəkin.

Görülməli olanlar: Ayvalığa körpü ilə bağlanan Cunda adası, Ayvalık qədər mənzərəlidir. Liman boyunca yerləşən balıq restoranlarından birində nahar edin və yüzdən çox qəlyanaltı seçimi ilə yanaşı, kalamar, karides və ahtapotdan ibarət dəbdəbəli Ege ziyafətindən həzz alın.

### *İzmirin sevimlisi: Alaçatı*



Yaxşı həyatın ünvanı olan İzmir, dərin mavi dənizin qədim şəhərlərə yuvarlandığı gözəl bir sahil şəhəri olan Ege dənizinin incisi sayılır.Lonely Planet tərəfindən 2024-cü il səyahət məkanı olaraq tövsiyə edilən bu şəhərdə ən populyar tətil marşrutu, şübhəsiz ki, ağ qumlu çimərlikləri, gün batımı və çimərlik əyləncələri ilə Alaçatı şəhərinin füsunkarlığı ilə tanınan Çeşmə yarımadasıdır Tarixi yel dəyirmanları, daş evləri, butik otelləri ilə məşhur olan Alaçatı, on minlərlə qonağı özünə cəlb edən festivalları, gecə həyatı və çimərlik əyləncələri ilə də ziyarətə dəyər. Bölgənin ən məşhur çimərliyi cazibədar dənizi ilə Ilıca çimərliyidir. Bundan əlavə, Alaçatı'nın güclü dəniz küləyi onu külək sörfü və uçurtma sörfü üçün ideal edir.

Görülməli olanlar: Urla, üzüm bağları marşrutlarını və restoranları nümayiş etdirən qastronomiya məkanı, vaxt keçirmək üçün əla yerdir.Ərazinin kulinariya inkişafı Michelin GUIDE-nin diqqətini çəkdi və onun üzümçülüyü onu yerli şərabların aparıcı rol oynadığı bazaya çevirdi.

### *Ege Cazibə Mərkəzi: Bodrum*

Bodrum, şübhəsiz ki, Türkiyənin Ege sahil boyunca ən görkəmli turizm məkanıdır. Sərhədsiz mavi suları ilə bu məftunedici kurort heyrətamiz körfəzləri, Mavi Bayraqlı çimərlikləri, lüks və premium otelləri, Ege və beynəlxalq mətbəxi təqdim edən gözəl restoranları ilə diqqət çəkir. Kurort həm də beynəlxalq limanlara və marinalara ev sahibliyi edən qlobal bir ulduzdur.

Göltürkbükü və Gümüşlük kimi tətil şəhərləri ilə əhatə olunmuş Bodrumun ən yaxşı fəaliyyətlərindən biri, Möhtəşəm dəniz məhsulları ilə dolu süfrədə Ege həyat tərzindən həzz almaq fürsəti ilə hər cəhətdən 'premium tətil' yaşaya bilməkdir.

Görülməli olanlar: 15-ci əsrdə Rodos cəngavərləri tərəfindən ucaldılan Bodrum qalasını və qalada yerləşən Bodrum Sualtı Muzeyini ziyarət edin. Həmçinin Qədim Dünyanın Yeddi Möcüzəsindən biri sayılan Halikarnas Mavzoleyinin xarabalıqlarını ziyarət edin. Unutmayın ki, Bodrum başqa bir qastronomik cənnətdir, çünki burada Michelin GUIDE-də göstərilən bir çox restoran var.

### *Saat qurşağınızda: Datça*

Şam ağaclarının arxasında gizlənmiş sakit, təmiz Mavi Bayraqlı çimərliklər, badam və zeytun ağacları ilə çiçəklənən təpələr, təmiz hava, daş döşənmiş küçələr və daş evlər Ege və Aralıq dənizinin qovuşduğu Datça, təmiz dənizi və sərinləşdirici mehləri ilə tanınan füsunkar bir yarımadadır. Mərkəzdəki Taşlık, Kumluk və Hastane Altı'nın Mavi Bayraqlı çimərlikləri günəş vannası qəbul etmək və qazlı sularda üzmək üçün idealdır, Datça'nın sakit körfəzlərinə isə qayıq turları ilə getmək olar.

**Görülməli olanlar: Yarımadanın lap ucunda yerləşən Datçaya səfər edərkən Ege və Aralıq dənizinin qovuşduğu nöqtədə yerləşən əzəmətli qədim Knidos şəhərinin gün batımı mənzərəsində zövq alın.**



*Əlövsət BƏŞİRLİ*

# BÖHTAN

***Özünü düşməninđən qoru, sirdaşı olduğun dostunun xəyanətinə tuş gəlmə!***

***Atalar sözü***

**Azərbaycan Televiziyasında şöbə müdiri işləyəndə məni Mərkəzi Komitəyə çağırdılar. Mətbuat bölməsinin müdiri mənə dedi ki, Cəlilabad rayon qəzetinin redaktoru işdən çıxarılıb, orada dedi-qodu var. Sənin vaxtilə rayon qəzetində işləməyini, bu sahədə təcrübən olduğunu nəzərə alıb oraya göndəririk.**

Mən ailəmlə birlikdə Cəlilabada getdim. Həyat yoldaşım Dilarə Vəkilova ilə universitetin jurnalistika fakültəsində birlikdə təhsil almışdıq. O, orta məktəbi gümüş medalla, mən qızıl medalla bitirmişdim. İkimiz də rayon mətbuatında, mən Salyanda, o isə Abşeronda işləmiş, ədəbi işçi, şöbə müdiri, redaktor müavini vəzifəsində çalışmışdıq. Cəlilabadda isə vəziyyət acınacaqlı idi, dedi-qodu baş alıb gedirdi.

Biz əl-ələ verib var qüvvəmizlə işlədik. Dedi-qoduçularla yollarımız ayrıldı. Bu zaman universitetin jurnalistika fakültəsində təhsil alan Böyükxan Bağırov redaksiyamıza təcrübəyə göndərildi. O, qələmli, həvəsli oğlan idi. İşimizə yaradı. Mən onu faktiki olaraq əmr ilə işə götürdüm. Onun haqqında yaxşı xasiyyətnamə yazdım. Yeri gəlmişkən, jurnalistika fakültəsinin dekanı Şirməmməd Hüseynovun bu xasiyyətnaməni nümunə olaraq tələbələrinə göstərdiyini qeyd etmək istəyirəm. Sonralar Böyükxan Bağırov bizim redaksiyada işlədi, mən Cəlilabad Rayon Partiya Komitəsinin ikinci katibi işləyəndə onun redaktor vəzifəsinə təyin edilməsinə nail oldum.

Ailəmiz redaksiyaya yaxın kommunal evdə qalırdı. Anam nəvələrinə baxırdı. Dilarə ilə mən işə birgə gedirdik. Raykom da redaksiyaya çox yaxın idi. İşimizlə əlaqədar mən oraya gedib-gəlirdim. Birinci katib Mürsəlov çox yaxşı adam idi. Mən televiziyada işləyəndə Nəbi Xəzri Sədrin birinci müavini kimi bizə - Gənclər baş redaksiyasına rəhbərlik edirdi. Mən bütün verilişlərin yazısını onun təsdiqindən sonra Baş redaktora verirdim. Nəbi müəllim yaxşı, necə deyərlər, isti adam idi. Mənim bədii yazılarımla maraqlanırdı. Məsləhətlərini verirdi. Rayona getməyimlə qəti razı deyildi. Hətta Mərkəzi Komitəyə zəng edib mənim qalmağımı xahiş etsə də, mümkün olmamışdı.

***

Səhərdən axşamadək möhkəm işləyirdik. Öncə qəzetin paltarını, yəni tərtibatını dəyişdik. Mən bunu Salyanda işləyəndə redaktor Mahmud Ağalarovdan öyrənmişdim. Eyni zamanda bunu fərqli elədim. Salyanda qəzetin tərtibatı yaxşı olsa da, tənqid yox idi. Mən belə qəzeti dişsiz hesab edirəm. Cəlilabadda lap birinci səhifədən başlayaraq tənqid öz yerini tuturdu. Birinci səhifəni üç yerə bölürdük. "İrəlidə gedənlər" - yuxarıda, "Geridə qalanlar" - ortada, lap aşağıda olanlar "Quyruqda sürünənlər" adı ilə verirdik.

İkinci və üçüncü səhifələrdə iri materiallar gedirdi. Qabaqcılların iş təcrübəsini və geridə qalanların səbəblərini göstərirdik.

Qəzetin dördüncü səhifəsi "Dəryaz"ın "payına" düşürdü. Bu səhifədə felyetonlar, tənqidi və satirik-yumorlu yazılar verirdik.

Redaksiyamız vəzifəsindən, keçmiş ad-sanından asılı olmayaraq felyetonlar verir, "qəhrəmanların" karikaturasını mütləq felyetona uyğun nəzərə çatdırırdıq.

Möhkəm işlədik və bunun bəhrəsini gördük. Qəzetimiz SSRİ-nin ən yaxşı rayon qəzeti üçün təsis etdiyi mükafata layiq görüldü. Bir il sonra mən felyetonlarıma və tənqidi yazılarıma görə "SSRİ Jurnalistlər İttifaqının mükafatı laureatı" oldum. O vaxt Sosialist ölkələrinə getmək problem deyildi. Kapitalist ölkələrinə turist səfərinə getmək üçün yüksək mükafatın olmalı idi. Mən İngiltərə, Fransa və Portuqaliyada səfərdə oldum. Yeri gəlmişkən, bir maraqlı faktı da qeyd etmək istəyirəm. Mən mükafat alandan sonra Moskvada "Krokodil" jurnalının Baş redaktorunun qəbulunda oldum. O, mənim haqqımda jurnalda yazı yazmaq üçün suallar verdi və axırda təəccüblə soruşdu: Siz vəzifəli adamlar haqqında necə felyeton yaza bilirsiniz, həm də karikaturalarını verirsiniz?! Biz özümüz belə hallarda müəyyən çətinliklərlə qarşılaşırıq. Bəs siz?! Mən cavab verdim: Əlbəttə bu asan iş deyil. Belə hallarda kəskin etirazlar da olur. Məsələn, mən RİK-in vəzifəli və özündən olduqca razı adamından yazdım, karikaturasını da verdim. Karikaturada o, əllərini sinəsinə döyüb deyir: mən mənəm, mənə heç kim artıq-əskik söz deyə bilməz! Mən onun lovğalandığını bilirdim. Ondan elə faktlar, heç özünün də ağlına gəlməyən faktlar toplamışdım. Bu faktların bir hissəsini yazmamışdım. Yuxarıda oğlu yüksək məsul vəzifədə idi. Çığırbağırla redaksiyaya gəldi və məni hədələdi. Mən çox sakit səslə dedim: hay-küy salma, unutma ki, respublikanın rəhbəri Heydər Əliyevdir. O, jurnalistlərlə görüşdə deyib: əsas faktlardır, faktlara əsaslanıb yazın. Siz yuxarıdakı oğlunuzun başını ağrıtmayın. O, elektrik vurmuş kimi geriyə sıçradı, bərəlmiş gözləri mənə dikildi, təəccüblə baxdı və bunu bura kim göndərib? - dedi.

Mən sakit səslə: Mərkəzi Komitə, - dedim.

Bu zaman belə bir hadisə baş verdi. Mənə xəbər verdilər ki, məzuniyyətdə olan bütün rəhbər işçiləri dəli MirAlim vəzifələrindən qovub, təkcə ikinci katibə toxunmayıb, o, cəbhəçidir. Rafiq Zeynalov bu yalana inanıb, mənə heç bir söz deməyib. Bakıya qayıdıb, ən dəhşətlisi budur ki, öz köməkçisinə guya bu "sirri" pıçıldayıb. Beləliklə, mən böhtana tuş olmuşam. Evdə bu barədə söhbət gedəndə arvadı bacım olsun ərinin abrını alıb: "Sən nə danışırsan, Əlövsət qardaş Bakıya gələndə əvvəl bizə baş çəkir. Sən onun tələbə yoldaşı, özün mənə demisən ki, guya "biz qardaşıq". Bütün bu əhvalatı Rafiq özü mənə danışıb, deyib ki, rayonda mənə andaman eləyiblər ki, bu "sirri" Əlövsət müəllimə deməyim. Mən ona dedim ki, Rafiq, sən bilirsən ki, Səməd Vurğunun oğulları Yusif və Vaqif cəbhənin rəhbərliyindədirlər. Onlar Heydər Əliyevin tərəfdarıdırlar? Cəlilabada gələndə bizə mütləq baş çəkirlər. Ona görə ki, mənim yoldaşım onlarla çox yaxın qohumdur, əmiuşağıdırlar. Ulu Öndərə qəlbən yaxındırlar. Bəs necə olub ki, sənə sırınan böhtanı hiss eləməmisən? Sən necə yoldaş, dost, qardaşsan? Mənim camaatın dili ilə desəm, "dəlixanada" həkim işləyən qohumum Qadın "MirAlimi" on il müalicə etdiyini, "indinin özündə də hər gün iynəsini vurdurmasa yaşaya bilməz" - deyir. Bizə deyirdilər ki, MirAlim iynəsini vurdurub "cəbhəçilərin" qabağına düşür. Axırda da it kimi öldü. Onu rayon qəbirstanlığında basdırmağa qohumları cürət eləmədilər...

Öyrəndim ki, birinci katibin kabinetində 4 nəfər oturub prokurorla və milis rəisi ilə əlaqə saxlayır, onlara tapşırıqlar verir. Mən təəccübləndim. Birinci katibin kabinetinə getdim, onlarla söhbət etdim. Öyrəndim ki, onları bizim rayona göndəriblər ki, cəbhəçilərlə problemləri həll etməkdə hüquq-mühafizə orqanlarına köməklik göstərsinlər. Mən onlara dedim ki, xoş gəlmisiniz, bəs nə üçün məzuniyyətdə olan rayon rəhbərinin kabinetində oturmusunuz? İndi məzuniyyətdə olan katibi mən əvəz edirəm. Sözünüzü mənə deyin, prokuror və milis rəisi ilə birlikdə həll edək. Burada oturmağınız məsləhət deyil. Sizə ayrıca otaq verərik, işinizi görərsiniz. Dedilər bizə belə tapşırıq veriblər. Sizə dəməli deyil. Çox yekəxana danışdılar, mübahisə etdik.

Mərkəzi Komitənin ideoloji iş üzrə katibi, mənim tələbə yoldaşım Rafiq Zeynalov rayona gələndə məndən şikayət ediblər, ona deyiblər ki, guya mən cəbhəçiyəm. Rayonun bütün rəhbər işçilərini dəli MirAlim vəzifələrindən qovub, yalnız ikinci katibə toxunmayıb. Rafiq Zeynalov bu yalana inanıb, mənə bu barədə heç bir söz deməyib. Mən onun gicbəsərliyinə məəttəl qaldım. Dedim ki, Rafiq, sən bilirsən ki, Səməd Vurğunun oğulları Yusif və Vaqif cəbhənin rəhbərliyindədirlər. Onlar Heydər Əliyevi qəlbən sevirlər!

Mən istər-istəməz məşhur atalar sözlərini xatırladım:

Özünü düşməninđən qoru, sirdaşı olduğun dostunun xəyanətinə tuş gəlmə!

Və şair gözəl deyib:

**Böhtan nədir?! Cümlə fəlakətlərə bais!**

**Yaxud hər kəsə xain olan insan nədir? İblis!..**

**5 may 2024**

(əvvəli 10-cu səhifədə)

# Gözəllikdən xoşbəxtliyə...

**Fəlsəfə sözünün mənası hikmətə məhəbbət deməkdir, vücudu ələ gəlməyən gözəlliyin söz ilə ifadəsi itirilməyən xoşbəxtlik anlamına gəlir. Bu xoşbəxtlik hissetmə orqanları deyil, ali idrak vasitəsilə dərk olunur. Lakin necə? Məsələnin necəliyi şəxsiyyətin fərdi təkamülündən asılı olaraq fərqlidir.**

İnsan dünyaya gəlir və ölür. Hissi idrak sahiblərinin görüb-götürdüyü olumla ölümün arasında gerçəkləşir. Olum - ölüm aralığında çoxlu hadisələr, o cümlədən, müxtəlif siyasi, ədəbi, iqtisadi, elmi, kimyəvi, bioloji, texniki mübarizələr və hərbi əməliyyatlar formasında həyata keçirilən münaqişələr baş verir.

Münaqişələr tərəfləri, qa qalib, ya da məğlub timsalında bir-birinin əlindən məkanı və zamanı sıra ilə almağa sövq edir. Olumla ölüm arasında gerçəkləşən bütün proseslərin predmeti materiyadır. Materiya hansı formada təzahür edir-etsin, insan şüurundan asılı olmayan bəlli mövcudluqdur, deməli vücudu ələ gələndir. Bəs vücudu ələ gəlməyən gözəllik nədir?

On iki il əvvəl bir şərqşünas alim - professor mənim "Dünya iradə və təsəvvür kimi" kitabım haqqında "Alman filosofuna vurulan azərbaycanlı qadın..." sərlövhəli məqalə yazmışdı.

Məqaləni xatırlamam "vurulmaq"sözünün mahiyyətinə nüfuz etmək məqsədiələdir. Əgər mən Hafiz Şirazini oxuyub ona heyran olmamışamsa, demək ki, oxuduqlarımı anlayacaq qədər iqtibas etməmişəm. Bu şairlər şairinin yaradıcılığı vücudu ələ gəlməyən gözəlliklərə vətəndir: eynən fəlsəfi ruh kimi. "Sürünmə kölgə kimi məqsədin ayağında, /Gələr özü qapıya bir zaman həvalə kimi", - deyə səslənən Hafiz poetik əhvalımı bir dəfəyə və həmişəlik necə kökləyibsə, qanımı mey yerinə içsə, xəbər tutmaram. O zaman mən Cəmşidin cami-cəmini ölməz sənət incilərilə dolduran dəfinələr dəfinəsini sevməyə bilərəm?!

**Bayron:** - Mənim məhəbbətim dağın uca zirvəsindədir, - deyir.

Vücudu ələ gəlməyən gözəlliklər o zaman dərk olunur və xoşbəxtlik gətirir ki, insan artıq gerçək dünyanın hadisələrindən zövq ala bilməyəcək qədər yüksəkdədir.

Ağac əvvəlcə tumurcuqlayır, sonra çiçək açır, daha sonra meyvə verir. Bu, adi təbiət hadisə-sidir, zərərli proseslər baş verməsə, tsikl həmişə eyni ardıcıllıqla davam edir. İnsan da belədir: erotiki hiss çərçivəsində sevir, yaşayır, bəhər verir, lakin ilahi sevgilər çiçək açmaq üçün tumurcuqlamır, daha doğrusu, vücudu ələ gəlməyən gözəllik əbədiyaşar sehrinin təzahürsüz təzahürünə görə ancaq və ancaq ali idrak sahibinə borcludur.

Əslində, bütün sevgilər çiçək açmaq üçün doğulur, ancaq vücudu ələ gəlməyən gözəlliyin uğur böcəyinin qanadlarına bənzəyən qabıqlar arasında gizlənmiş materiya yoxluğu onu idrak edən kəslərin nişanalma məharətindən asılıdır. Tumurcuq sevgilər ona görə əbədiyaşardır ki, çiçək açmadıqları üçün onların müqəddəs bəkarətinə toxunan olmur.

Düşünən varlığın təminolunma mexanizminin üç şəkli var: cismani, mənəvi, idraki. Birinci təminolunma sisteminə insanın cismi ilə baş verən hadisələr daxildir, məsələn, yemək, içmək, intim münasibətdə olmaq və s. O cümlədən, ikinci, yəni mənəvi ehtiyaclar gerçək təbiətdən - güldən, çəməndən, çiçəkdən zövqalma çərçivəsinin hüdudları arasında baş verir.

Üçüncünü görünənlərin fonunda zəkanın görünməyənləri görmə qabiliyyəti aşkarlayır. Cismani təmin olunma mexanizmi zərurətdən əmələ gəlir, lakin mənəvi, idraki təmin olunmanı, nə zərurət yaradır, nə də məqsədli arzuetmə, sırf təsadüflərdən asılı prosesdir. Mənəvi təminolunma ilə idraki təminolunma arasındakı fərq ondan ibarətdir ki, birincinin əhatə dairəsini gerçək təbiətin əsrarəngiz görünüşü, ikincinin ilham mənbəyini vücudu ələ gəlməyən gözəlliyin təbiəti təşkil edir.

Sokrat sevgi haqqında: - platonik məhəbbət ruhi istək olaraq sosial varlığı həyatın mənasını dərk etməyə, olduğundan yuxarılara doğru yüksəlməyə sövq edir, insanı ölümsüzlüyə yaxın-lasdıraraq onun ölüm üzərində qələbəsinə zəmin yaradır, - deyərkən məhz vücudu ələ gəlməyən gözəlliyin doğurduğu sevgidən bəhs edir.

Fiziki nəsə etməyin mümkün olmadığı anlarda insan anidən necə sakitləşirsə, vücudu ələ gəlməyən gözəllik də sevgidən çalxalanan qarşı tərəfə eyni təəssüratı oyadır.

Bu gözəlliyə qarşı cəlb olunan məhəbbət sevgilidən ötrü ölmək deyil, həyata xas olan sonsuz əzablardan nicat tapmaq və düşüncələr arasında vurnuxan birinin özünə qarşı duyduğu elə güclü şəfqət hissidir ki, insanı hönkürdür. Vücudu ələ gəlməyən gözəlik gözəlliyin mahiyyətcə dərk olunmasıdır.

Uyğun sevgilərin hər statusdan olan insanların xilqətində özlərinə yuva qurmaq ehtimalı labüddür, həmin şəxs həkim, sığortaçı, yazıçı, polis general-mayoru və s. də ola bilər.

**İ. Nəsimi insanın qarşı tərəfdə əks etdirdiyi uyğun ilahi neməti - gözəllik tacında olan ən bahalı almazı özünün şah misrasıyla belə təsvir edir:**

***Səni bu hüsnü camal ilə, kamal ilə görüb,***
***Qorxdular Həqq deməyə, döndülər insan dedilər.***



***Vaqif Yusifli***
***Filologiya elmləri doktoru***

# Qəzəl dünyamızın Mahcamalı

**Mahcamal Babayeva... Bu ad, bu imza, bəlkə də çoxlarına tanış deyil, amma onu**

tanıyanlar, qəzəllərini sevə-sevə oxuyanlar da az deyil.

O, ixtisasına görə kimyaçıdır, 1974-cü ildən AMEA-nın Neft-kimya prosesləri institutunda çalışıb, əmək fəaliyyətinin son 11 ilini Müdafiə Sənayesi Nazirliyinin Elmi-tədqiqat institutunda böyük elmi işçi kimi fəaliyyət göstərib, institutun təkmilləşmə kurslarında mühazirələr oxuyub.

Mahcamal Babayeva kimyaçı olsa da, həmişə ürəyi şeirlə çırpınıb. Amma illərlə yazdığı şeirləri bir kimsəyə göstərməyib. Nəhayət, 2002-ci ildə ədəbi-mühitə qədəm basıb, "Qobustan" dərgisində "Səttar Bəhlulzadənin heykəli önündə" şeirini çap etdirib. 2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Mahcamal xanım Bakı-Abşeron ədəbi mühitinin yetirməsidir. O, klassik poeziyaya həvəs göstərib. Çox maraqlıdır ki, qəzəl yazan hər hansı şair ilk növbədə, əruz vəznini yaxşı mənimsəməlidir. Mahcamal xanım əruzu bilir. Görünür, içində musiqi, ritm, ahəng güclü olub ki, əruza, onun qaydalarına yiyələnə bilib. Cəmi iki şeir kitabı çıxıb. "Hələ də gec deyil" (2024) kitabında onun qəzəlləri, müxəmməsləri, təxmisləri, məsnəviləri, müstəzadları toplanıb.

İndiki çağda qəzəl yazmaq hünər istəyir. Özü də qadın şairlər üçün. Amma çox zəngin Azərbaycan poeziyasının bu sahədə də müəyyən təcrübəsi var. Hələ XIX əsrdə Natəvan - xan qızı, Fatma xanım Kəminə, Heyran xanım gözəl qəzəllər yazmışlar. Elə XX əsrdə də bu ənənə davam edib. Nigar xanım Rəfibəylinin şeir yaradıcılığında qəzəllərə rast gəlirik. Bu çağlarda isə Gülnarə Munis, Xatirə Xatun, Mahi, Lilpar kimi qəzəlçi qadınlar var. Gülnarə Munis Divan yaradan ilk qadın şairdir, Lilpar Cəmşid qızı da bu yaxınlarda Divanını ədəbi ictimaiyyətə təqdim etdi.

Mahcamal xanımın qəzəllərinə gəldikdə isə... Onun qəzəlləri XXI əsrin "köhnə formada" təzə söz demək şücaətini əks etdirir. Qəzəllərinin əsas mövzusu ənənəyə sadiq olaraq sevgidəndir, amma digər mövzular da bu qəzəllərdə əks olunur. Xüsusilə, Vətən və Qarabağ mövzusu.

*Verdin sən özün bizlərə fürsət Qarabağda,*
*Cəng eləyək, Allah, qısa müddət Qarabağda.*

*Şimşəkləri oynatdı igidlər göy üzündə,*
*Cəmləndi bütün aləmi-diqqət Qarabağda.*

*Bərbad olan Ağdam, Şuşa azad olub, ey can,*
*Dünya görəcək bir təzə cənnət Qarabağda.*

*Ver Mahcamala zərrəcə möhlət, ey İlahi,*
*Qoy bir kərə etsin o səyahət Qarabağda.*

Mahcamalın qəzəllərinin bir çoxu Vətənə, bax bu müstəqil Azərbaycanımızın tərənnümünə həsr edilib. Baxın:

*Gələrəm mən bir ovuc torpaq olam, Mahcamalam*
*Öpərəm torpağı mərd, olmayasan xor Vətənim.*

Mahcamal xanım həm də muğamlarımızı və muğam sənətkarlarımızı vəsf edir:

*Ol muğam sirli məqam, dürlü kəlam xanəsidir,*
*Xoş məram ilə xanədə zil, bəm yaradır.*

*Feyziyab etmədə çün cümlə cahan məstü xumar,*
*Kim deyib ki, muğam nalədi, min qəm yaradır.*

*Bu o eşq, Zülfi, Seyid, Xanı, Nərimanı olub*
*Çün sələflərlə xələf sirlərə həmdəm yaradır.*

*Ləhni, Davudi xuda bəxş eləyibdir cahana,*
*Bu cahan mülküdü Qurban ilə Bəhram yaradır.*

*Var olub, var olacaq Azərbaycanda muğam,*
*Mahcamal, can da fəda, can belə aləm yaradır.*

Mahcamal xanımın qəzəllərində Vahid ədəbi məktəbinin təsirini duyuruq və bu da təsadüfi deyil, çünki Bakı-Abşeron qəzəlçilərinin əksəriyyəti Vahidin qəzəl ruhunu yaşadıblar. Vahid kimi sadə, anlaşıqlı, amma içi mənalarla dolu qəzəllər yazıblar. Baxın:

*Eşqin mənə ey can, verib ad-sanı deyirlər,*
*Hər kəs belə üzməz yar üçün canı deyərlər.*

*Sevmiş bu könül bir kərə eşqi ilə, hünərvər,*
*Göndərdi fələk min kərə hicrani deyirlər.*

*Qəlbim yenə dövr etmədə, çün cövrü aləmdir,*
*Tək Yusifə məskəndir, o zindani deyirlər?!*

*Gər Mahcamalın səbrinə hicran da məəttəl,*
*Göndərdi sitəm-qəmləri əlvani deyirlər.*

Mahcamal xanım Ulu Natəvan kimi gülləri, çiçəkləri çox sevir. Natəvan "Qərənfil" qəzəlini yazmışdı. Mahcamal isə bənövşəyə həsr edib bir qəzəlini və içindəki, ruhundakı bənövşəni şeirə çevirib.

*Boynun yenə bükülmüş o xəyallarda gəzən gül,*
*Salmış güzərin bir təzə gülzarə bənövşə.*

*Bumbuz o bəyaz qar sənə məskəndi, tayın yox,*
*Tək sənsən hünərvər, görüb hər yarə bənövşə.*

*Verdikcə bahar müjdəsin ellər səsə düşmüş,*
*Gər Mahcamalın meyli kaman, tarə bənövşə.*

Onun məsnəviləri də poetik baxımdan diqqəti cəlb edir. Məsnəvidə hər bənddə iki-iki qafiyələnmə üsulu var. Məsələn, bu strukturu saxlamaqla bitmir, əsas odur ki, fikir yetkinliyi ola. Onun məsələn, "Tut ağacım" məsnəvisi forma ilə məzmun ahəngdarlığını özündə əks etdirir.

*Əllərim tut ağacından tutub, ağ tut yemişəm*
*Basmışam bağrıma, hər tac budağa can demişəm.*

*Yamyaşıl tağda ləli-yaqut olur xar tutumuz,*
*Qan gəlir qanımıza, bir təzə hal, cahi-cəlal.*

Mahcamal xanımın təxmisləri haqqında xoş sözlər söyləyə bilərik. Təxmisin forması müxəmməs kimidir, amma ilk üç misrada müəllifin öz misraları gəlirsə, dördüncü və beşinci misralar hansısa şairin qəzəlindən gəlir.

Məsələn Füzulidən təxmis:

*Ey fələk, zülmün ilə soldu gülüstan, çəmənim,*
*Nə ötür bülbülü şeydam, nə gülüm məst edənim.*

*Nə lüzum ki, yox ikən sevgili canan bəzənim,*
*"Pənbeyi-daği-cünun içrə nihandır bədənim*
*Diri olduqca libasım budur ölsəm kəfənim".*

Qeyd edim ki, Natəvana, Vahidə, Böyükağa Qasımzadəyə, Nigar Rəfibəyliyə, Bəxtiyar Vahabzadəyə, Ənvər Nəzərliyə də ( daha doğrusu, onların qəzəllərinə) belə təxmislər yazılıb.

**Mən qəzəl dünyamızın Mahcamalına yeni-yeni gözəl qəzəllər, müxəmməslər, mürəbbelər yazmağı arzulayıram. Və inanıram ki, o, hələ çox sənət uğurları qazanacaq.**



***Fazil Sənan***

# FƏRMAN KƏRİMZADƏDƏN SÖZ DÜŞƏNDƏ

**"Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu" və s. bədii əsərlərdən və "Axırıncı aşırım" bədii filmindən söhbət düşəndə böyük ədəbi sima olan Fərman Kərimzadə ilə təsadüfi olan iki görüşü xatırlamalı oluram.**

## *"NİYƏ AĞRIMIR"*

**Yaşlı nəslin nümayəndələri yaxşı xatırlayırlar. "Qarlı aşırım" romanı çapdan çıxan kimi az bir vaxtda oxucuların stolüstü sevimli kitabına çevrilmişdi. O vaxtlar həmin roman ali məktəb tələbələri arasında əl-əl gəzirdi. Bəlkə də romanı oxumayana rast gəlmək olmazdı. Mübaliğəsiz demək olar ki, "Qarlı aşırım" romanı yazıçı kimi Fərman Kərimzadənin ədəbi taleyində parlaq bir ulduz kimi doğdu.**

**Ali məktəbi bitirib Jdanov (indiki Beyləqan) rayonunun Təzəkənd kənd orta məktəbinə təyinatla müəllim göndərilmişdim. Tövsiyəmlə dərs dediyim şagirdlərin (xüsusən yuxarı sinif şagirdləri) çoxunun "Qarlı aşırım" romanı ilə tanışlıqları var idi.**

**1975-ci ilin aprel ayının axırları olardı. Hər yerdə baharın nəfəsi duyulurdu.**

**Dərsdən çıxıb jurnal əlimdə müəllimlər otağına gəlirdim. Müəllimlər otağının qapısına çatanda dəhlizdə məktəbin direktoru Bayram Səfərovun bir nəfərlə söhbət etdiyini gördüm. Salam verib yanlarından keçmək istəyirdim ki, Bayram müəllimin "Fazil müəllim, yaxın gəl" deməsinə müəllimlər otağının qapısından direktorun yanına qayıtdım. Bayram müəllim "Tanıyırsınız bu adamı?" deyərək sorusdu.**

**Qonağın gur qara saçlarını, qara lopa bığını, dolu bədənini, gülümsər sifətini bir anlığa nəzərdən keçirib, "Bağışlayın Bayram müəllim, düzünü deyim ki, elə bil hardasa görmüşəm, sifətdən tanış gəlir. Etiraf edim ki, anlaşdıra bilmirəm" - söylədim.**

**Bayram müəllim gülərək dedi:**

**- Tanış ol, təriflədiyin "Qarlı aşırım" əsərini yazan yazıçıdır.**

**- Necə? Fərman Kərimzadə! - deyib sevinclə yazıçının əlini sıxdım.**

**- Bəli, həmin kitabı yazan Fərman Kərimzadədi. O nədəndi romanı tərifləyirsən, amma müəllifin özünü tanımırsan. Bunu necə başa düşək? Bayram müəllim gülümsər təbəssümlə üzümə baxdı.**

**Bayram müəllim ona görə "tanış gəlir" söylədim ki, televizordamı baxmışam, qəzetdəmi şəklini görmüşəm xatırlaya bilmədim. Düzü heç vaxt ağlıma gəlməzdi ki, Fərman Kərimzadə bizim məktəbə gələ.**

**- İndi gördünmü gəlib. Özü də rayonda bir bizim məktəbə gəlib. Bayram müəllim təbəssümlə Fərman müəllimə baxdı.**

**Yaranmış imkandan istifadə edərək "Fərman müəllim, vaxtınız varmı, sizin şagirdlərlə görüşünüzü təskil edim?" - dedim.**

**- Şagirdlərlə görüş onda maraqlı olar ki, müəllifin əsərini oxumuş olsunlar.**

**Bayram müəllim əminliklə üzünü yazıçıya tutaraq dedi:**

**- Fərman müəllim, Fazil müəllim məktəbin "Ədəbiyyat" müəllimidi. Sənətini sevən müəllimlərimizdəndir. Bir neçə dəfə "Müəllimlər otağı"nda sizin kitabınız haqqında müəllim yoldaşları ilə söhbətinin şahidi olmuşam. Sözsüz ki, sizin kitabınızı şagirdlərə oxutmuş olar. Fikrimcə, sizin şagirdlərlə görüşünüz Fazilin necə müəllim olduğunun göstəricisi deməkdir.**

**- Bir haldakı sizdə qocaman bir məktəb direktoru kimi yazıçı ilə şagirdlərin görüşünün tərəfdarısı-nızsa, mən də razıyam, - deyən Fərman müəllim sözünü**



**tamamlayan kimi tez dilləndim.**

**- Siz söhbət edin, beş-on dəqiqəyə gəlirəm, - deyib yuxarı paralel siniflərə partaları çıxartdırıb cərgə ilə dəhlizə düzdürdüm. Müəllimlərin əyləşməsi üçün stol və stul gətizdirdim. Görüşün kimlə keçiriləcəyini bilən şagirdlər sevinc içərisində yazıçı və yazdığı roman haqqında mənə müxtəlif suallar verməyə başladılar. Mənsə "Sualları mənə yox, indi sizinlə görüşəcək yazıçının özünə verərsiniz", - deyib direktorun otağına getdim.**

**- Bayram müəllim, hər şey hazırdı. Şagirdlər Fərman müəllimi gözləyir, dedim.**

**Bayram müəllim "Zəhmət olmasa müəllimlər otağına get, müəllimlərə də de gəlsinlər" - deyərək məni müəllimlər otağına göndərdi.**

**Bayram müəllim görüşü açaraq yazıçı və onun "Qarlı aşırım" romanı haqqında qısa məlumat verəndən sonra sözü mənə verdi.**

**Mən və müəllim yoldaşlar roman haqqında danışandan sonra direktor üzünü şagirdlərə tutaraq "Yazıçıya kimin sualı varsa verə bilər" - dedi.**

**Müəllifə ünvanlanmış müxtəlif səpgili suallardan iki sual və cavabı indi də xatirimdədir.**

**Bəhmən adlı şagird əlini qaldırıb icazə aldıqdan sonra belə bir sual verdi.**

**- Fərman müəllim, siz nə vaxtdan yaradıcılıqla məşğulsunuz?**

**Fərman müəllimin, - "Çox kiçik yaşlarımdan. Yadımdadı ikinci sinifdə oxuyanda "dram" əsəri yazırdım. Birinci pərdədə "ölən" obraz baxırdım ki, sonrakı pərdədə "dirilib". Bu sözsüz ki, kiçik yaşlı uşaq düşüncələri idi", - sözlərinə yazıçı ilə bərabər şagirdlər də gülüsdü.**

**Onuncu sinif şagirdi Zenfira icazə alıb ayağa qalxdı və üzünü müəllifə tutaraq: "Fərman müəllim, mən romanı oxumuşam. Amma romanda bir səhnə hələ də mənim ürəyimi ağrıdır. Əsərinizdə belə bir səhnə var. Qəmlo İmanın samanlıqda ayaqlarını arxadan gətirib başına birləşdirir. Bu formada İmanı iki qatlayıb belini qırır. Bu səhnəni yazanda İmanın fəryadına ürəyiniz ağrımadımı? Həmin səhnəni necə yazmısınız?"**

**Bir anlıq fikirləşən yazıçı "Niyə ağrımır. Amma həmin səhnəni yazanda biz onu hiss etmirik. O mənada hiss etmirik ki, ətraf aləmi unuduruq. Tamam obrazın hiss və duyğusu ilə yaşayırıq. Əsərdə Qəmlo qəddar obraz kimi verilib. Mənim "xəbərim" olmadan Qəmlo İmana həmin cəzanı verir. Çünki İman komsomolçudur. Komsomolçular da varlı sinfin düşməni idi. Komsomolçuların məqsədi birlik, kolxoz qurmaq idi. Buna da Kərbəlayı və Qəmlo heç vaxt razı olmazdılar. Ona görə ki, komsomolçuların dedikləri birlik (kolxoz) varlıların var-dövləti hesabına yaranırdı. Sonra əsəri oxuyanda həmin səhnə sizin dediyiniz kimi mənim də ürəyimi ağrıtdı. Düzdü mənim ürəyim ağrısa da əvəzində əsər qazanır".**

**Sonda yazıçı əsər üzərində necə işləməsi, yaradıcılıq planları haqqında danışdı və əsəri oxuduqları üçün şagirdlərə öz təşəkkürünü bildirdi.**

**Görüş başa çatandan sonra direktor otağına gəldik.**

**Fərman müəllim "Bayram müəllim Fazil müəllim "İmtahan"dan yaxşı çıxdı. Şagirdlərin çoxunun əsəri oxuduğunu hiss etdim. Əsəri oxumaları, uşaqların verdiyi suallardan məlum idi, söylədi.**

**- Fərman müəllim, bizim məktəbə gəlişiniz təsadüfdü, yoxsa başqa bir işlə bağlıdı, - soruşdum.**

**- Təsadüfidi, Fazil müəllim. Mənim bura gəlişimdə məqsəd rayon ərazisində bir-iki yer var. Həmin yerləri lentə almaq istəyirəm. Mənə dedilər ki, sizin məktəbin laboratoriyası zəngindir. Həmin aparat üç-dörd günlük mənə lazımdır. Əgər direktor həmin aparatı versə...**

**Bayram müəllim Fərman müəllimin sözünü yarımçıq kəsərək gülə-gülə "Fərman müəllim, aparat qurbandı sizə. Bizdən asılı nə lazımdısa kömək etmək borcumuzdu" - deyib kreslodan qalxaraq birlikdə laboratoriyaya getdik.**

**Məktəbin qapısında görüşüb ayrılanda Fərman müəllim: "Görüş üçün Bayram müəllim siz başda olmaqla məktəbin pedaqoji kollektivinə təşəkkür edirəm. Əsərimin təbliğ olunmasında Fazil müəllimin zəhmətini xüsusi qeyd etmək istəyirəm.**

**Bugünkü görüş gənc olmasına baxmayaraq Fazil müəllimin ədəbiyyata olan sevgisinin təsdiqidi.**

**Xudahafizləşib ayrılan yazıçı qapıda onu gözləyən maşına əyləşdi.**

**Bu mənim uzun müddətli müəllimlik fəaliyyətimdə dərs dediyim şagirdlərin yazıçı və şairlərlə təşkil etdiyim ilk görüş idi.**

**Aradan nə az, nə çox əlli ilə yaxın bir zaman kəsiyindən sonra həmin görüşə yenidən qayıdıb həmin hissləri ömrün qürub çağında yaşamağımda şirinliklə bərabər, bir acılıq və təəssüf də var...**




# BAYAT

№ 8 (868)




# ƏSRİMİZİN MƏHƏBBƏT ŞƏKLİ




YUSİF HƏSƏNBƏY


## HAYIF

Ayağa çəkirəm qoşalüləmi, -
Eh, vay! Qayalara çırpılır gəmim!
Atdığım hədəfi tutmur, yan keçir!
Məhzum ürəyindən qara qan keçir,-
Gülləyə hayıf, hədəfə hayıf!

Tarı gümüşə tut, sədəflə bəzə!
Artır simlərini əllidən yüzə!
İlham dil açmasa, tar düşməz səsə, -
O gümüşə hayıf, sədəfə hayıf!

Ürəyin oduyla yazılır kitab,
Oxuyan qazanır tanrıdan savab!
Vaxt gəlir tərk edər ruhu inqilab!-
İçilməmiş qalır qədəhdə şərab, -
Şəraba hayıf, qədəhə hayıf!

## DİNC, RAHAT İNSANLARIN DÜNYASI

*(Afrika şeirlərindən)*

Sudanın səhraları cod qumdu.
Əlini tikan cızanda, -
Cızaqdan qan sızanda,
Təcili yardımçı həkim yod, -qumdu!
Günəş qumlar altından çıxır, -
Şəfəqlərin ucundakı od, -qumdu!
Ancaq nə çoxdu burda, -uşaq!
Timsahla bir nohurda, - uşaq!
Xurma budağı ucunda, -uşaq!
Uşaq - ananın qucunda, - uşaq!
İnək sağının dalında, - uşaq!
Nənənin nənni şalında, - uşaq!
Uşaq əlindən bananı
Dələ qoparıb qaçır.
Uşaq qovur,
dələ kaktus ağacına dırmaşır.
Deyirlər ki, qumluqda şum olmur!
Şum yoxdusa, dən olmur, tum olmur!
Amma Sudanda qum dağının yaxası,
Çimərliyin arxası.
Qalın darı tarlasıdı.
Darını insanlar əkmir -
Küləklər əkir,
Leyləkklər, ördəklər əkir.
İnsanları pəhləvana döndərir
Güclü darı çörəyi!

Hədəfə ox atmaqda,
Filləri oynatmaqda,
Pələngi ram etməkdə,
Meymunla bir süfrədə
şam etməkdə.
Ürkək Dəvəquşlarını
Qazalağa qoşmaqda,
Mirvarili dənizlərin,
Təkinə baş vurmaqda,
Hər il rekord qazanır
Sudanlılar.
Hamımız Sudanlılartək
Təbiətə dəstək versək,
Ömür-gün mənalı keçər,
Yaşamaq asan olar!

## EPİTAFİ

*(başdaşı sözü)*

Ayağını qoyan yerə, -
Baş qoydum!
Cavanlığın sultanlıq taxtında səni,-
Başıma tac qoydum!
Amma bir gün ayıldım ki,
Bəylə bostan əkmişəm,
çiynimdə bitib tağı!
Yediyim zəhər oldu,
İçdiyim ağu!
Məzarını bir qarış dərin yox,-
Cəhənnəm ocaqlarına
tez qovuşasan diyənə,
Yeddi arşın dərin qazdıracam!
Cənazəni üzü qibləyə basdırsam,
El içində biabır olaram!
Dili quranlı, ruhu imamlı müsəlmanam
Yezid olaram, kafir olaram!
Naşini üzü qibləyə yox,
Arafat səhrasındakı,
"Şeytanlar meydanına" basdıracam!
Sinə daşına -
Canım -gözüm,
Bal sözüm,
Qaymaq dilim,
Sonalar sonası,
Ömrümün mənası,
Sevgilim yazdırmayacam!
Çənədəağı, - ən yüksək oktanlı,
Zəhirmar dolu əqrəbim, çayanım,
İlanım yazdıracam!
Amma təkbaşına o çətin yolları
Necə keçərsən?
Sənə tərəf uzanır əllərim,
Qucaqlanır qollarım!
Özümü də öz əlimlə, -
Qəbrimə əyilən ağacın,
Budağından asdıracam!

## QISQANC MƏHƏBBƏTİN AĞRILARI

Sən harda qalmısan bu çağa kimi?!
Yanıram cəhənnəm ocağı kimi!
Saplanır sinəmə mizraq qəzəbim,
Otellonun qısqanc bıçağı kimi!
Özümə açılan tüfəngdi səbrim, -
Qurşunam qundaqdan çıxmağa kimi!
"Şonel", "Fidji" ətri uçur telindən,
Deyirlər bir naqis, tutub - belindən,
Öpüb ayağından, öpüb əlindən,
Qəlbinin yağını sorub dilindən,
Qızmar bir qucaqda huşdan olmusan!
Mən şərəf taxtında sultanam, şaham,
Sən gədə-güdəyə mehman olmusan?
Kimlərin dizinə başını qoyub,
Gözü xumarlanan ceyran olmusan?
Çirkinsən vəhşətin qucağı kimi, -
Üzünə baxmaram brilyant olsan,
Satqınsan təpədən dırnağa kimi!
Axır günlərimi,-
Ağır günlərimi,-
Şosse, magistral, beynəlxalq deyil,
Cığır günlərimi, -
Sıfır günlərimi yaşayıram mən.

Gözüm qapıdadır, ürəyim darda,
Şəklin ki, yoxdur
Üstümə yıxılır boş divarlar da!
Qəlbinə mərhəmət qonub gəlmisən,-
Eşqimin oduma yanıb gəlmisən?
Gəlişin zülmətdə doğan şölədi,-
Yoxluğun qəlbimdə kiçik çiləldi!
Bir doğma baxışla,
Şux bir gülüşlə,
Canı üzülmüşlə barış, gözəlim!
O zəhər dilindən bir büsə içim.
Ruhuma bal kimi qarış, gözəlim!
Gəl ki, zülmətimin səmalarında
Parla ulduz kimi, sayrış gözəlim!

Qoy yenə eşqimlə qol-boyun olum,
Sakitcə ölüm!

## YAĞIŞLI BİR AXŞAMDA

Çılğın gənclik çağında,
Hən deməmiş fışqıran
Cılğam gənclik çağında,
Qızğın gənclik,
Quzqun gənclik,
Anamın diliylə desəm,
Pozğun gənclik çağında,
Ömrün-günün hər anı
Cənab Ömər,
Şərab Ömər
Kitab Ömər Xəyyamıydı!
Cıqarası, şərabıyla
Xumar Ömər Xəyyamıydı,
Cüt aşqla, qoşa şeslə
Qumar Ömər Xəyyamı!
Dünyanın ən qiymətli,
Neft və qaz yatağına,
Xəzərin təkindəki
Zərdüştün ocağına,
Dəyişməzdim şərab dolu bir camı!
Yağışlı bir axşamda
Əzildi, nazlandı
Gah qızardı
Gah ağarıb, ayazlandı bir gözəl, -
Dürr gözəl, nur gözəl,
Cilvələndi qarşımda!
Bu ilahi gözəli,
Gözəlliyin inqilabi, iltibahı gözəli
Qoltuqladım!
Bir-birinin nəfəsinə isinə-isinə,
Gicitkan damcıların,
Sancısından gizlənə-gizlənə,
Hasarsız həyətimdə
Açarsız evə gəldik!
Baxdım əyin-başına,-
Tutuldum almazların
Gözümü qamaşdıran yağıçına.
Yanağından süzülən
Göz yaşlarını öpdüm!
Əllərində titrəyən
Təlaşlarını öpdüm!
Qəfəsdə quş kimi çırpınırdı ürəyi,
Necə heyran olmayaydım, -
Necə qurban olmayaydım ona!
Züleyxa zindanında
Züleyxa istəyincə, -
Yusif kimi sarmandım,
gərdəninə boynuna!
Aman Allah!
Dələmə kimi yumşaq,
Dizlərimin cazibəsini duydum.
Özümü də, o yerlərə qoymadım.
Ehtirasın qiyamına uymadım!

Hasarsız həyətimdə
Açarsız evin yiyəsi, -
Allahın gözdən düşən bəndəsi, -
Kürreyi-ərzin,-
Bu günlərin, neçə-neçə gələcək əsrin,
Yoxsullar dünyasının
Kralı, şahzadəsi mən,
Xoşbəxt edə bilərəmmi,
Daş-qaşlara bürünən bu canlı Epmitajı!
Nəfsin polad dişlərini,
İradəmin kuvald yumruqlarıyla əzdim!
Fil dözə bilməzdi
Bu ruhi sarsıntılara mən dözdüm.
Kişiliyim çatdı,
Əyyaş bir tamahın
Qurbanına çevrilmədi o baharı qız!
Yağışlı bir axşamda sirdaşım
Dibində son damlası işaran cam oldu!
Bir də,
Pilitəsində yağı quruyan şam.

## HƏR ŞEYİN OLACAQ!

Hər şeyin olacaq, -
Otaqların xalça muzeyi olacaq!
Mənzilin gen-bol,
Döşəmələr bədii parket!
Soyuducuların
Ərzaq dolu market!
Bir gündə neçə dəfə dəyişəcəksən,
Bahar- yaz paltarını!
Qumaş, atlas paltarını.
Daimi yerin olacaq
Teatr lojaları.
Gözü sənə dikiləcək,
Cavanların, qocaların!
Boynundakı daş-qaşlara yox, -
Açıq -saçıq sinənə
Dikiləcək nəzərlər.
Gözəlliyinin cazibəsində əriyəcək,
Polad iradəli nazirlər!
Sərgilərdə də
Ən gözəl qadın rəsmi
Mono Liza yox,
Sənin rəsmin olacaq!
Super təminatla,
toy-büsatla yaşayacaqsan,
Heç bir dərdin-sərin olmayacaq?
Ən varlı kişilər "adamuşkan"
Amma heç biri ərin olmayacaq!
Qapında əmrə müntəzir
"Şessotka", "Mersedes"!
Birində barlara, kozinolara get,
Birində də kosmetik salonları gəz!
Hər şeyin olacaq, amma,
Pilləkənləri birayaq-birayaq
Endiyin zaman, -
Bir güclü, isti əl istəyəcəksən.-
Dirsəyindən tuta!
Hər şeyin olan yerdə -
Bax, o isti əl olmayacaq!

## XƏSTƏYƏ BAŞ ÇƏKDİLƏR

Şüşələri qırıqdı
Pəncərələrin,
Otağının
Divarları uçuğ!
Tavanı döşəməyə yapışıqdı!
Vəhşi küləklər
Sümüyə işləyən bıçaqdı!
Nə divarlarda Rembrantın şəkilləri,
Nə yerdə qədim,
Didim-didim palaz qalıb?!
Xəstəyə baş çəkməyə gəlmişdilər...
Kitab dolu rəflər,-
Boşalıb!
Bir küçük
Zingildəyirdi mənzildə.
O küçük də
Bir tikə çörək görmüşdü əlində!

# Azərbaycançılıq ideyasının təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 18 (2392) 24 may 2024-cü il


# AZƏRBAYCAN – ÇİÇƏKLƏR İÇİNDƏ QAYA...

**Azərbaycan elə bir məmləkət, elə bir ölkədir ki, onun daşı da, qayası da, torpağı da, gülü də, çiçəyi də qızıldır. Böyük Məmməd Araz Azərbaycanı vəsf edərkən yazır:**

*Azərbaycan - çiçəklər içində qaya,*
*Azərbaycan - qayalar içində çiçək.*
*Mənim ruhum bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya...*

Bayaq dedik axı, Azərbaycanın hər qarışı, hər yeri bir gülüstana bənzəyir. Və bu gülüstanda da həmişə digər ölkələrin gözü qalıb. Düşünüblər ki, nəyin bahasına olursa-olsun bizim məmləkətdən, bizim ölkədən bir şey qoparıb aparsınlar. Axı onlarda heç də bizim ölkədə olan yerüstü və yeraltı sərvətlər yoxdur. Elə məhz buna görə də həmişə Azərbaycana böyük dövlətlər və o cümlədən inkişaf etməkdə olan dövlətlər yağlı tikə kimi baxıblar. Amma Azərbaycan zaman-zaman öz müstəqilliyini, ərazi bütövlüyünü və eyni zamanda məmləkətini qorumağı bacarıb.



Bizim ölkəyə kim gəlirsə, hara baş çəkirsə, hara gedirsə istər-istəməz onun gözəlliyinə, qeyri-adi füsunkarlığına və təbiətinə heyran qalır. Çünki bu ölkənin həm də çox zəngin tarixi, mədəniyyəti və zəngin keçmişi vardır. Bir avropalı deyir ki, dünyada ən çox sevdiyim millət azərbaycanlılardır. Çünki mən dəfələrlə Azərbaycanda, onun paytaxtı Bakıda, Gəncədə, Şəkidə, Lənkəranda olmuşam. Hətta Naxçıvana qədər gedə bilmişəm. Bakıdakı Qız qalasına, Şəkidəki Xan sarayına, Naxçıvandakı Əlincə qalasına, Gəncədəki qədim abidələrə heyran qalmışam. Və eyni zamanda həmin abidələrə tamaşa edəndə mütəxəssislər bizi tarixin bütün incəliyi ilə tanış ediblər. Və biz tanış olandan sonra görmüşük ki, doğrudan da Azərbaycan ən qədim tarixə və mədəniyyətə malikdir. Biz avropalılar da öz elimizi-obamızı sevirik. Bu təbiidir, ancaq başqa ölkələri gəzməklə, öyrənməklə və seyr etməklə həm də yeni bir dünyanı kəşf edirik. Mənim Azərbaycanda yaxşı dostlarım var. Onlar Azərbaycanın istehsal etdiyi və dünya şöhrətli məhsullarını mənə hədiyyə ediblər. Sizin bir "İstisu" var ey, dünyada onun analoqu yoxdur. Eşitmişik ki, həmin yerləri ermənilər işğal eləmişdilər, amma sonradan sizin İkinci Qarabağ savaşında, daha doğrusu, 44 günlük müharibədə həmin yerlər və o cümlədən işğal altında olan bütün ərazilər azad olundu. O millət böyük və gözəl xalqdır ki, onlar başqa xalqları da sevməyi bacarır, onların tarixinə, mədəniyyətinə, incəsənətinə, dininə və dilinə hörmətlə yanaşırlar. Bax, mən sizdə çox millətdə olmayan bu nadir dəyərləri, keyfiyyətləri görmüşəm. Ona görə də Azərbaycançılığa və Azərbaycana məndə böyük sevgi və hörmət var. Düşünürəm ki, bu tək məndə deyil, Azərbaycana gəlib buraları görənlər, insanları tanıyanlar hamısı sizin xalqa hörmətlə yanaşacaq. Ən azından ona görə ki, siz də bütün xalqlarla hörmətlə və məhəbbətlə yanaşırlar.




Hər millət özünün gözəl, bəşəri və dünya tərəfindən sevilən cəhətlərini bir daha dünyaya bəyan edir. Bizim millətin ən gözəl keyfiyyətlərindən və əxlaqi dəyərlərindən biri də odur ki, bizim xalq hətta düşməninə belə mərhəmətlə yanaşır, ona ağır gündə kömək edir, hətta çörək və su verir.

Heç uzağa getməyək, 2023-cü il sentyabrın 19-da Qarabağda aparılan antiterror əməliyyatı zamanı Azərbaycan əsgərlərinin və ordusunun humanist addımı bütün dünyaya bir daha insanpərvərlik mesajı oldu. Çünki həmin anlarda Ermənistana axın edən ermənilər, onların qocalarının, uşaqlarının Azərbaycan əsgəri təhlükəsizliyini təmin edir, çətin vəziyyətdə olan insanlara çörək, su paylayırdı. Bu hadisələr elə erməni sakinləri tərəfindən lentə alınır və sosial şəbəkədə paylaşılırdı. Hətta bir erməni qadını deyirdi ki, biz türkləri baş kəsən, qan tökən bir millət kimi tanıyırdıq, amma Xankəndini, Xocavəndi, Əsgəranı və digər yerləri tərk edib Ermənistana gedəndə gördük ki, türklər baş kəsən, qan tökən deyil, çörək verən, hətta düşməninə belə rəhm edən bir xalqdır.

Nə yaxşı ki bu böyük bəşəri dəyərləri və insanlıq keyfiyyətləri hələ vicdanını itirməmiş bir çox ermənilər etiraf edirlər.

Aydındır ki, bizim düşmən dünyada analoqu və oxşarı olmayan bir millətdir. Çünki onlar ömrü boyu azərbaycanlılardan sevgi, məhəbbət, diqqət görmüşdülər. Amma bunun müqabilində ermənilər görün bizim başımıza hansı oyunu açmadılar. İşğal etdikləri rayonlarda, qəsəbələrdə, kəndlərdə qadınları, uşaqları, qocaları qanına qəltan elədilər.

Hətta vəhşilik o dərəcəyə çatdı ki, bizim əsgərləri əsir götürərkən ağaca bağlayıb üstünə benzin tökərək yandırdılar.

Evlərimizi, eşiklərimizi külə döndərdilər, amma onların bu vəhşiliyindən sonra Azərbaycan ordusu, Azərbaycan əsgəri onlara mərhəmət göstərdi, yaralı, mülki əhalini xəstəxanaya apardı, müalicə elətdirdi və bundan sonra Ermənistana yola saldılar.

**Bax, buna görə də bütün dünya Azərbaycanı bəşəri dəyərlərə sadiq olduğunu qəbul edir və xalqımızla razılaşırlar. Daha doğrusu, dünya görür ki, vəhşi kimdir, humanist kim. Çünki ermənilər işğal etdikləri ərazilərimizin daşını daş üstə qoymamışdılar. Amma Azərbaycan ordusu işğaldan azad etdiyi Xankəndini, Xocavəndi, Əsgəranı, Xocalını və digər yaşayış məntəqələrini elə müdafiə etdilər ki, orda bir evə, bir mənzilə belə zərər toxunmadı. Bu nəyin göstəricisidir? Bu onun göstəricisidir ki, Azərbaycançılıq ideyası min illər bundan qabaq da olub və min il bundan sonra da olacaq. Bizim xalqın əsas missiyası humanistlik, bəşəri dəyərlərə hörmət, dinlərə fərq qoymamaq, irqi ayrı-seçkilik salmamaqdır. Bax, buna görə də dünyada Azərbaycan xalqı və ölkəmiz həmişə seviləcək!**

**Faiq QİSMƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

"XƏZƏR-AUDİT 2019"
Məhdud Məsuliyyətli Cəmiyyəti
VÖEN: 1903868641
İcazə: № AT/184, 06.03.2024
*Bakı şəhəri, Yasamal rayonu. Ş.Mehdiyev küçəsi, 271*
*Telefon: İş; (012) 5331960; mobil; (050;070) 6607050*

**"14" may 2024-cü il**

**TƏKRAR MÜSTƏQİL**
**AUDİTOR HESABATI**

**Rəy**
Mən "Dostlar MM Kredit İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 7500296931) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətinin hesabatdan, məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini təkrar aparmışam.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları İttifaqın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

**Rəy üçün əsaslar**
Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq İttifaqdan asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik İttifaqı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ittifaqın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər İttifaqın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"XƏZƏR-AUDİT 2019"**
**MMC-nin direktor-auditoru:** **R.A.Musayev**

**Forma 3**

Kredit İttifaqının adı: DOSTLAR MM Kİ
Hesabat dövrü: 01.01.2024
Hesabatın tərtib edilmə tarixi: 08.01.2024

**Balans**

| | BALANSIN MADDƏLƏRİ | Məbləğ |
|---|---|---|
| | **AKTİVLƏR** | |
| 1 | Nağd pul | 1141 |
| 2 | Bank hesabları | 1697 |
| 3 | Kreditlərin cəmi | 161645 |
| 4 | Xüsusi ehtiyat fondu | 0 |
| 5 | Xalis kreditlər (kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu") | 161645 |
| 6 | Dövlət qiymətli kağızları | |
| 7 | Əsas vəsaitlər | |
| 8 | Hesablanmış faizlər | 3341 |
| 9 | Digər aktivlər | 0 |
| 10 | **Aktivlərin cəmi:** | 167824 |
| | **PASSİVLƏR** | |
| | **Öhdəliklər** | |
| 11 | Alınmış kreditlər | 0 |
| 12 | Ödəniləcək faizlər | |
| 13 | Digər öhdəliklər | 2205 |
| 14 | **Öhdəliklərin cəmi:** | 2205 |
| | **Kapital** | |
| 15 | Nizamnamə kapitalı | 96282 |
| 16 | Bölüşdürülməmiş mənfəət (zərər)* | 69337 |
| 16,1 | Keçmiş illərin xalis mənfəəti (zərər) | 60516 |
| 16,2 | Cari ilin xalis mənfəəti /zərəri | 8821 |
| 17 | **Kapitalın cəmi:** | 165619 |
| 18 | **Passivlərin cəmi:** | 167824 |

* Kİ zərərlə işləyərsə, bu zərər mənfi işarə ilə mötərizədə qeyd etdirilməlidir

İdarə Heyətinin Sədri: *(Məmmədov Elman Həmid)*
İdarə Heyətinin məsul üzvü: *(Hacıyev Əlağa Sədiman)*

Auditor: R.A. Musayev

**Forma 4**

Kredit ittifaqının adı: DOSTLAR MM Kİ
Hesabat dövrü: 01.01.2024
Hesabatın tərtib edilmə tarixi: 08.01.2024

**Mənfəət və zərər haqqında**
**Hesabat**

*(manatla)*

| Maddələr | Hesabat rübü | İlin əvvəlindən hesabat rübü daxil olmaqla |
|---|---|---|
| **I.Faiz gəlirləri cəmi:** | 9118 | 32044 |
| a) verilmiş kreditlər üzrə | 9118 | 32044 |
| b) Dövlət qiymətli kağızları üzrə | | |
| **2. Faiz xərcləri cəmi:** | 0 | 0 |
| a) kreditlər üzrə | 0 | 0 |
| b) digər | 0 | 0 |
| **3. Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)** | 9118 | 32044 |
| **4. Qeyri-faiz gəlirlərinin cəmi:** | 442 | 1949 |
| a) qeyri-adi gəlirlər | | 0 |
| b) digər gəlirlər | 442 | 1949 |
| **5. Qeyri-faiz xərclərinin cəmi:** | 5236 | 22967 |
| a) əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi | 4941 | 21294 |
| a1) əmək haqqı və əlavələr | 4050 | 16209 |
| a2) mükafatlar | | 1520 |
| a3) sosial tə"minat xərcləri | 891 | 3565 |
| a4) kompensasiya və müavinətlərin digər növləri | | |
| b) əsas vəsaitlərlər bağlı xərclər | 0 | 0 |
| b1) icarə haqqları | | |
| b2) amortizasiya | | |
| b3) əsas vəsaitlərlə bağlı digər xərclər | | |
| c) əməliyyat və komisyon xərcləri | 9 | 93 |
| d) digər xərclər | 286 | 1580 |
| **6. Əməliyyatlardan daxil olan mənfəət (zərər) (3-cü sətir üstəgəl 4-cü sətir çıxılsın 5-ci sətir)** | 4324 | 11026 |
| 7. "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərclər) | | |
| **8.Vergilər çıxılanadək mənfəət (zərər) (6-cı sətir çıxılsın 7-ci sətir)** | 4324 | 11026 |
| 9. Mənfəətdən ödənilən vergilər | 2205 | 2205 |
| **10. Vergilər çıxılandan sonra xalis bölüşdürülməmiş mənfəət (zərər) ( 8-ci sətir çıxılsın 9-cu sətir)** | 2119 | 8821 |

**İzahat:** 8-ci sətr üzrə zərər yaranarsa, bu məbləğ 10-cu sətrə köçürülür

İdarə Heyətinin Sədri: *(Məmmədov Elman Həmid)*
İdarə Heyətinin məsul üzvü: *(Hacıyev Əlağa Sədiman)*

Auditor: R.A. Musayev

## *Dilarə Kazımova: "Yaxşi ki, ayrılmışam, xoşbəxtəm"*



**Məşhur müğənni Dilarə Kazımova şəxsi həyatından danışıb.**

Adalet.az bildirir ki, müğənni itləri insanlardan çox sevdiyini söyləyib: "Mən hesab edirəm ki, 3 övladım var. İtləri nəzərdə tuturam. Onlara uşaq kimi baxıram. Onlar üçün hər nə lazımdırsa edirəm. Hətta bu gün itimin biri saç baxımına gedib. Uşağım yoxdur, amma itim var. Uşaq dünyaya gətirməyi qarşıma hədəf qoymamışam.

Düşünmürəm ki, ailə qururamsa mütləq uşağım olmalıdır. Mən Türkiyə vətəndaşı ilə ailəli olmuşam. Evliliyimiz iki davam etdi. Sonra ayrıldıq. Çox şadam ki, nə yaxşı ayrıldıq. İndi çox xoşbəxtəm. Çətin xasiyyətli insanla həyat davam etmir. Sanki ondan canımı qurtardım."

## *Röya: "Səidənin toyuna gedəndə hamı şoka düşdü"*

**Xalq artisti Röya Ayxan diqqətçəkən açıqlamaları ilə gündəm olub.**

Adalet.az bildirir ki, o, Səidə Sultanın touna getməsindən danışıb: "Deyirlər ki, ulduz kimi həyat yaşayıram. Bəli, mən ulduz kimi həyat yaşayıram, dost kimi də dostam. Mən Səidə Sultanın toyuna gedəndə hamı şoka düşmüşdü. Dedim ki, mənim onunla bir problemim yoxdur axı. Mən onun ailəsi ilə dostam, məni ilk növbədə onun ailəsi çağırıb. Doğrudur, özü də dəvət edib, amma mən



getmişəm bacımın bacısının toyuna. Hər kəs özü ilə yanaşı ətrafındakılara da hörmət etməlidir".

## *Aparıcı: "Heç vaxt həyatımda pullu kişi olmadı"*

**Aparıcı Zümrüd Bədəlova maraqlı açıqlaması ilə diqqt çəkib.**

Adalet.az bildirir ki, o, şəxsi həyatından giley edib: "Heç vaxt həyatımda pullu kişi olmadı. Soruşsanız ki, istəyərəm? Cavabım, əlbəttə, hə, olardı. Amma ona qarşı hislərim olsun, istəyirəm. İki avtomobilim olub, ikisini də kreditlə almışam. Həyatımda demək olar ki, maddi hər şeyi özüm əldə etmişəm. Amma çox istəyərdim ki, mənə də avtomobil hədiyyə edən sevgilim olsun. İki ildir maşınımı dəyişmək istəyirəm, amma dəyişə bilmirəm. Bu gün bağ arzulayıram, istəyirəm ki, mənə bağ hədiyyə etsinlər. Yəni mənim də arzularım- istəklərim var. Ancaq həm də o insana sevgimin olmasını çox istəyirəm".



**Əntiqə**

Aslan Mehdiyev Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvü **Məlahət xanıma** qardaşı

**Rafiq İsmayıl oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvləri Şura üzvü **Məlahət xanıma** qardaşı

**Rafiq İsmayıl oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 179**
Çapa imzalanmışdır: 23.05.2024